# QARABAĞ AZƏRBAYCANDIR!

RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 224 (8540) CÜMƏ AXŞAMI, 29 oktyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az


## Prezident İlham ƏLİYEV: "Bərdə sakinlərinin qisası yerdə qalmayacaq və döyüş meydanında işğalçılara layiqli cavab veriləcək"



**Erməni silahlı qüvvələrinin raketlərlə hücumu nəticəsində Bərdədə həlak olanlara Allahdan rəhmət diləyir, ailələrinə başsağlığı verir, yaralıların şəfa tapmasını diləyirəm. Bərdə sakinlərinin qisası yerdə qalmayacaq və döyüş meydanında işğalçılara layiqli cavab veriləcək.**

**AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində etdiyi paylaşımda bildirib.**



## Böyük qələbələrlə tariximizə şanlı səhifələr yazılır

**Hər şəxsiyyət öz dövrünün yetirməsidir. Amma bütün müxtəlifliklərə, fərqlərə baxmayaraq, bu insanları birləşdirən ümumi cəhətlər, ortaq dəyərlər də var. Bunlar o dəyərlərdir ki, tarixin heç bir dönəmində başqalaşmır, məzmununa xələl gətirmir. Dünyanı yaşadan, gələcəyə ümidi, inamı sarsılmaz edən belələrinin haqq yolunda apardıqları qətiyyətli fəaliyyətləri hər addımda ümumxalq dəstəyi ilə əhatə olunur.**

Bu da təsadüfi deyil, çünki onların həyata keçirdiyi ali məqsədlərdir, yüksək amallardır. Cəmiyyətin firavanlığına, xoşbəxtliyinə bu proseslərin əsas məqsədi kimi yanaşanlar, insanı müasir həyatımızın ən qiymətli dəyəri kimi qəbul edənlərsə zəmanəmizin ən zəngin, cəfakeş, müdrik insanlarıdır. Bu baxımdan Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın fəaliyyətində məsuliyyət yükü ağır və şərəflidir. O, millətin tərəqqisi üçün yenilənən ideyalar sahibidir. Azərbaycanın Birinci vitse-prezidentinin inkişafa doğru hər addımı sosial reallığı dəyişən, daha gözəl, daha sağlam, hər kəs tərəfindən məmnunluqla qarşılanan yaradıcılıq məzmunu təqdim edir.

### Onun hər müraciəti dünyaya bir çağırışdır

Nəcib əməllərinə, Azərbaycana xidmətlərinə görə vətəndaşlarımızın, ümumən, bütün dünya azərbaycanlılarının böyük sevgi və ehtiramını qazanan ölkəmizin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri, UNESKO və ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın bu çətin sınaq günlərində cəmiyyətimizdə milli həmrəyliyin əldə olunmasında müstəsna xidmətləri var.

Müzəffər Ordumuzun hər şanlı qələbəsindən sonra Mehriban xanımın müxtəlif sosial şəbəkələr üzərindən xalqımıza ünvanladığı təbrik sözləri, sevinc, qürur və ümid dolu kəlmələri insanlar arasında qələbə əzmini daha da gücləndirir. Onları vahid amala, milli hədəflərə doğru səfərbər edir.

Azərbaycanın informasiya müharibəsindəki qələbələrində də Mehriban xanım Əliyevanın rolu çox böyükdür. Məlumdur ki, müharibə təkcə səngərlərdə, döyüş meydanlarında aparılmır. Müasir dünyamızda öz həqiqətlərini beynəlxalq aləmə düzgün çatdıra bilməyin, düşmənin informasiya təxribatlarının qarşısını almağın və bu sahədə də işğalçılara qalib gələ bilməyin çox böyük önəmi var. Üstəlik, nəzərə almalıyıq ki, biz son dərəcə məkrli, çirkin bir düşmənlə üz-üzəyik. Ermənistan dövləti, erməni diasporu əsrlər ərzində dünyaya müxtəlif yalanlar təqdim edib və onlar bu "ənənəni" indi də saxta xəbər və rəylərlə davam etdirməkdədirlər.

*Ardı 9-cu səh.*

## Azərbaycan bütün məsələlərdə qardaş Türkiyənin yanındadır

Türkiyə Respublikasının Prezidenti zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana



Hörmətli cənab Prezident,
Əziz Qardaşım.

29 Oktyabr - Respublika Günü münasibətilə Sizi və Sizin simanızda qardaş Türkiyə xalqını şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən xoş arzu və diləklərimi yetirirəm.

Biz Türkiyə Respublikasının əldə etdiyi nailiyyətləri daim böyük məmnunluqla izləyir, uğurlarına öz uğurlarımız qədər sevinirik. Son illər ərzində qardaş ölkəniz siyasi, iqtisadi, sosial, hərbi, texnoloji cəhətdən hərtərəfli inkişaf nümayiş etdirərək dünya miqyasında müstəqil siyasət yürüdən güc mərkəzinə çevrilmişdir. Bütün bu nailiyyətlərdə şəxsən Sizin misilsiz rolunuz və əvəzsiz xidmətləriniz vardır. Qardaş xalqınızın Sizə bəslədiyi böyük inam və etimad ölkənizin rifahı naminə həyata keçirdiyiniz siyasətə verilən ən yüksək qiymətdir.

Xalqlarımızın iradəsindən və ortaq milli-mənəvi dəyərlərindən qaynaqlanan Azərbaycan-Türkiyə birliyi və strateji müttəfiqliyi birgə səylərimizlə bu gün ən yüksək səviyyədədir. Dünyada bənzəri olmayan bu dostluq və qardaşlıq münasibətləri regionda sülhə, təhlükəsizliyə və əməkdaşlığa xidmət edən, siyasi və iqtisadi proseslərə istiqamət verən mühüm amilə çevrilmişdir.

Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı ortaya qoyduğunuz qəti və birmənalı mövqe, haqq işimizə verdiyiniz tərəddüdsüz dəstək həmrəyliyimizin bariz nümunəsidir və xalqımız üçün olduqca dəyərlidir. Azərbaycan da öz növbəsində bütün məsələlərdə qardaş Türkiyənin yanındadır.

Əminəm ki, gələcək nəsillərə ən böyük əmanətimiz olan sarsılmaz Azərbaycan-Türkiyə birliyi və qardaşlığı "Bir millət, iki dövlət" şüarına uyğun olaraq bundan sonra da yüksələn xətt üzrə inkişaf edəcək və güclənəcəkdir.

Bu bayram günündə Sizin sevincinizi bölüşür, Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Türkiyə xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 oktyabr 2020-ci il*

## "Biz öz torpağımızı təcavüzkarlardan azad edəcəyik və bu cinayətlərə son qoyacağıq"

Birinci vitse-prezident Mehriban Əliyeva Ermənistanın Bərdəyə raket hücumu nəticəsində həlak olanların yaxınlarına başsağlığı verib



**"Dünən Ermənistan silahlı qüvvələri döyüş əməliyyatları zonasından kənarda yerləşən Bərdə şəhərini raket atəşinə məruz qoyaraq humanitar atəşkəs rejiminin şərtlərini növbəti dəfə kobud şəkildə pozublar. "Smerç" qurğusundan buraxılmış kasetli raketlərlə atəş nəticəsində dörd mülki şəxs, o cümlədən yeddi yaşlı qız həlak olub. Dördü uşaq olmaqla on dörd nəfər ciddi xəsarət alıb".**

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəsmi "Instagram" hesabında edilən paylaşımda yer alıb.

Paylaşımda deyilir: "Silahlı münaqişələr zamanı mülki şəxslərin qətlə yetirilməsi 1949-cu il Cenevrə Konvensiyalarının və bütövlükdə, beynəlxalq humanitar hüquq normalarının ən kobud şəkildə pozulması deməkdir. Erməni təcavüzkarlarının əli ilə daha neçə günahsız insan həlak olmalıdır ki, dünya birliyi bu cinayətləri dinməzcə seyr etməyə son qoysun? Həlak olanların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verirəm, yaralananların tezliklə sağalmalarını arzulayıram. Biz öz torpağımızı təcavüzkarlardan azad edəcəyik və bu cinayətlərə son qoyacağıq.

Uca Tanrı Vətənimizi qorusun!"

## Prezident İlham ƏLİYEV: "Azərbaycan Ordusu Zəngilan, Füzuli, Cəbrayıl və Qubadlı rayonlarının 13 kəndini işğaldan azad edib"

Müzəffər Azərbaycan Ordusu Zəngilanın Birinci Ağalı, İkinci Ağalı, Üçüncü Ağalı, Zərnəli, Füzulinin Mandılı, Cəbrayılın Qazanzəmi, Xanağabulaq, Çullu, Quşçular, Qaraağac, Qubadlının Qiyaslı, Əbilcə, Qılıcan kəndlərini işğaldan azad etmişdir.

Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində bildirib.

## Ermənistan atəşkəs rejimini artıq üç dəfə kobud şəkildə pozmaqla siyasi müstəvidə qeyri-konstruktiv yanaşma nümayiş etdirir

### Prezident İlham Əliyev Rusiyanın "İnterfaks" agentliyinə müsahibə verib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Rusiyanın "İnterfaks" agentliyinə müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.**

***- Cənab Prezident, sağ olun ki, gərgin iş qrafikinizdə bizim agentliyimizə müsahibə üçün vaxt tapmısınız. Azərbaycan Silahlı Qüvvələrinin Dağlıq Qarabağda əks-hücuma başlamasının dünən düz bir ayı tamam oldu. Siz ötən ayı münaqişənin hərbi-siyasi nizamlanması baxımından necə qiymətləndirirsiniz?***

- Azərbaycan Ordusu döyüş meydanında özünün üstünlüyünü sübut etdi. İşğal edilmiş ərazilərin xeyli hissəsi bu bir ay ərzində azad olundu. Erməni tərəfinin təqribən 30 il ərzində işğal olunmuş torpaqlarda möhkəmləndirilmiş rayonlar yaratmasını nəzərə alsaq, orada bir neçə müdafiə xətti var idi. Ərazinin relyefi də erməni tərəfi üçün daha əlverişlidir, çünki ora dağlıq ərazidir və bizim hərbi qulluqçular əks-hücum əməliyyatlarını həyata keçirərkən həm mühəndis qurğularını, həm də dağlıq relyefi adlamalı olurdu. Buna görə də bütün bu amillər nəzərə alınmaqla, ölkəmizin ərazilərinin xeyli hissəsi bir ay ərzində azad edildi və bu göstərir ki, Azərbaycan Ordusunun dünyada ən yaxşı döyüş qabiliyyətinə malik ordulardan biri hesab edilməsi əbəs deyildi.

*Ardı 2-ci səh.*

## Ermənistan ordusunun Bərdəni raket atəşinə tutması nəticəsində həlak olanların sayı 21-ə çatıb

**Ermənistan ordusunun Bərdə şəhərini raket atəşinə tutması nəticəsində həlak olan mülki şəxslərin sayı 21-ə çatıb. AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Baş Prokurorluğu məlumat yayıb.**

Məlumatda bildirilib ki, oktyabrın 28-də saat 13 radələrində Ermənistan silahlı qüvvələri tərəfindən Bərdə şəhərinin dinc sakinlərin sıx hərəkətdə olduğu və ticarət obyektlərinin yerləşdiyi əraziyə beynəlxalq hüquqla qadağan olunmuş kaset bombalarından istifadə edilməklə zərbələr endirilməsi nəticəsində 21 nəfər həlak olub, 70-ə yaxın şəxs isə yaralanıb. Şəhərdə yerləşən mülki infrastruktur obyektlərinə və nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib.

Bundan başqa, təcavüzkar Ermənistan silahlı qüvvələri tərəfindən oktyabrın 27-də saat 16 radələrində Bərdə rayonunun Qarayusifli kəndinin ağır artilleriyadan atəşə tutulması nəticəsində xəsarət almış daha bir dinc sakin müalicə olunduğu xəstəxanada aldığı xəsarətlər səbəbindən vəfat edib. Bununla da oktyabrın 27-də Ermənistan silahlı qüvvələri tərəfindən törədilmiş cinayətlər nəticəsində həlak olanların sayı 5-ə çatıb.

Hazırda prokurorluq əməkdaşları tərəfindən mövcud şəraitdə mümkün olan bütün istintaq tədbirləri həyata keçirilməklə zərərçəkmiş şəxslərin siyahısının dəqiqləşdirilməsi üzrə işlər aparılır.

**Düşmənin 306 tankı - 253-ü məhv edilib, 53-ü qənimət kimi götürülüb; 79 ədəd piyadaların döyüş maşını - 50-si məhv edilib, 29-u qənimət kimi götürülüb; 297 ədəd müxtəlif çaplı toplar - 251-i məhv edilib, 24-ü qənimət kimi götürülüb; 106 ədəd minaatan - 61-i məhv edilib, 45-i qənimət kimi götürülüb; 54 ədəd tank əleyhinə vasitə; 86 "Qrad" qurğusu; 2 "Uraqan" Yaylım Atəşli Raket Sistemi; 1 "Tos"; zenit-raket kompleksləri - 4 "Tor", 42 "Osa", 4 "Kub", 1 "Kruq", 2 "S-125" qurğusu; 6 "S-300" atıcı qurğusu; 1 aşkaretmə stansiyası; 1 lokator; əməliyyat taktiki raket kompleksləri - 2 ədəd Elbrus; 1 ədəd "Toçka-U" məhv edilib; 416 yük avtomobili - 231-i, onlardan 20-si sursatı ilə birgə məhv edilib, 173 yük avtomobili hərbi qənimət kimi götürülüb.**

## İlham Əliyev beynəlxalq informasiya məkanında erməni faşizmini ifşa edir

# Ermənistan atəşkəs rejimini artıq üç dəfə kobud şəkildə pozmaqla siyasi müstəvidə qeyri-konstruktiv yanaşma nümayiş etdirir

## Prezident İlham Əliyev Rusiyanın "İnterfaks" agentliyinə müsahibə verib

*Əvvəli 1-ci səh.*

Ölkələrin hərbi potensialının dəyərləndirilməsi ilə məşğul olan qurumların vaxtaşırı dərc etdiyi reytinqlərə əsasən, Azərbaycan Ordusu dünyanın aparıcı 50 ordusu sırasındadır. Həm peşəkarlıq, həm təlim, həm döyüş qabiliyyəti, ən başlıcası mənəvi döyüş ruhu, əlbəttə ki, Azərbaycan Ordusunun texniki təchizatı da çox cəhətdən bizim uğurumuza kömək edib. Biz Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı şəhərlərini, Xocavənd rayonunun bir hissəsini azad etmişik. Azərbaycan Ordusunun uğurlu fəaliyyəti, uğurla irəliləməsi davam edir. Bu bir ay ərzində mən dəfələrlə demişəm ki, biz bu münaqişənin nizamlanmasının hərbi mərhələdən siyasi mərhələyə keçməsini istəyirik. Lakin təəssüf ki, erməni tərəfi atəşkəs rejimini artıq üçüncü dəfə kobud şəkildə pozaraq, bizim azad etdiyimiz əraziləri yenidən işğal etməyə cəhd göstərərək qarşıdurmanı davam etməyə doğru yönəldir. Buna görə sizin sualınıza bir daha cavab verirəm - hərbi-siyasi nizamlama yeganə mümkün yoldur. Biz istərdik ki, hərbi faza danışıqlar masası arxasında başa çatsın, Azərbaycan ərazilərinin bundan sonra da işğaldan azad olunması məsələləri həll edilsin.

***- Cənab Prezident, Siz artıq qeyd etdiniz ki, Bakı hərbi fazanı maksimum tez bir müddətdə başa çatdırmaqda maraqlıdır. Sizin fikrinizcə, hazırda hərbi faza nə qədər uzun müddət davam edə bilər və Bakı yalnız Dağlıq Qarabağın ətrafındakı yeddi rayonla kifayətlənməyə hazırdırmı?***

- Bu ay ərzində mən Azərbaycan xalqına müraciətlərimdə, habelə çoxsaylı müsahibələrimdə dəfələrlə demişəm ki, biz istənilən anda, günü bu gün dayanmağa hazırıq. Lakin bunun üçün erməni tərəfi işğal edilmiş ərazilərin qalan hissəsindən qoşunlarını çıxarmaq barədə öhdəlik götürməlidir. Buna görə də hərbi qarşıdurmanın nə qədər uzun müddət davam edəcəyini qabaqcadan deyə bilmərəm. Bu, erməni tərəfindən asılıdır. Artıq dediyim kimi, onların bizim torpaqlarımızı yenidən işğal altına qaytarmaq üçün göstərdiyi daimi cəhdlər fiaskoya uğrayıb. Düşünürəm ki, onların hərbi yolla heç nəyə nail olmayacaqlarını anlamaları üçün bu kifayətdir. Lakin təəssüf ki, onlar dediyim kimi, atəşkəs rejimini artıq üç dəfə kobud şəkildə pozmaqla siyasi müstəvidə qeyri-konstruktiv yanaşma nümayiş etdirirlər. Bunu nəzərə alaraq biz, əlbəttə, gələcək fəaliyyətimizi planlaşdıracağıq. İşğal edilmiş ərazilər məsələsinə gəldikdə, şübhəsiz, azərbaycanlılar əvvəl yaşadıqları bütün işğal olunmuş ərazilərə qayıtmalıdırlar. Mənim yanaşmam həmişə belə olub. Azərbaycanlılar təkcə Dağlıq Qarabağın hüdudlarından kənarda, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin hüdudlarından kənarda yerləşən işğal edilmiş yeddi rayona deyil, o cümlədən əsrlərboyu yaşadıqları ərazilərə, torpaqlara qayıtmalıdırlar - ilk növbədə, Şuşaya, Xankəndiyə və azərbaycanlıların əsrlərboyu məskunlaşdığı digər torpaqlara. Mən onu da demişəm ki, nizamlama barədə bizim təsəvvürümüz Dağlıq Qarabağın erməni və azərbaycanlı əhalisinin birgə yaşamasından ibarətdir. Tarixən iş elə gətirib ki, artıq 200 ildir erməni əhalisi bu torpaqlarda yaşayır. Ermənilərin Şərqi Anadoludan və İrandan köçürülməsi tarixini biz hamımız bilirik. Lakin iş belə gətirib. Onlar 200 ildir orada yaşayırlar. Erməni əhalinin bundan sonra da orada yaşaması barədə bizim heç bir planımız yoxdur. Əksinə, mən həmişə demişəm ki, Azərbaycanda erməni millətindən olan minlərlə vətəndaş yaşayır. Qonşu ölkələrdə də ermənilər və azərbaycanlılar birgə yaşayır və öz aralarında yaxşı dolanırlar. Bu, Dağlıq Qarabağda niyə mümkün olmasın? Bizim təsəvvürümüz belədir. Azərbaycanlılar əvvəl yaşadıqları bütün ərazilərə qayıtmalıdırlar. Erməni əhali də həmin torpaqda yaşamalıdır, özü də mehriban qonşuluq şəraitində. Biz müharibənin vurduğu yaraları sağaltmağa çalışacağıq.

***- Yəni belə çıxır ki, erməni hərbçilər işğal edilmiş bütün ərazilərdən çıxarılmayınca Bakı dayanmayacaq.***

- Biz Ermənistan tərəfindən onların yüksək rəhbərliyinin şəxsində öhdəlik almalıyıq ki, qoşunları işğal olunmuş ərazilərdən çıxaracaqlar. Hələlik biz bunu eşitməmişik. Erməni rəhbərliyindən bu cür öhdəlik alınandan və bu, ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən təsdiq ediləndən dərhal sonra biz hərbi əməliyyatları dayandırmağa hazırıq. Bu şərtlə ki, erməni tərəfi də onları dayandırsın. Çünki atəşkəs üç dəfə pozulub və hər üçü erməni tərəfin təqsiri üzündən baş verib. Bilirsiniz ki, dünən kasetli raketlərlə atəşlər nəticəsində Bərdədə dörd dinc vətəndaş, o cümlədən 7 yaşlı qız həlak olub. Bərdə münaqişə zonası deyil. Yəni bu, Vaşinqtonda razılaşdırılmış atəşkəsin kobud şəkildə pozulmasıdır. Bundan əvvəl Moskvada razılaşdırılmış atəşkəs elə ertəsi gün ermənilər tərəfindən Ermənistan ərazisindən Gəncəyə ballistik raket atılması yolu ilə pozuldu. Bunun nəticəsində 10 nəfər həlak oldu. Gəncəyə ballistik raketlərlə ikinci hücum nəticəsində bu dinc şəhərdə daha çox, ümumilikdə isə, 30-a yaxın insan həlak oldu. Ona görə də atəşkəsə riayət edilməməsi bizim təqsirimiz deyil. Buna görə erməni tərəfi indiyə qədər işğal altında saxladıqları ərazilərdən çıxacaqları barədə öhdəlik götürməlidir. Buraya Ağdam rayonunun bir hissəsi, Laçın rayonu bütünlüklə və Kəlbəcər rayonunun bir hissəsi daxildir. Təbii ki, o halda biz siyasi nizamlama keçməyə hazırıq. Siyasi nizamlama çox aspektləri əhatə edəcək. Baza prinsipləri bizim tərəfimizdən



qəbul edilib, ermənilər tərəfindən rədd edilib. Lakin Ermənistanın baş nazirinin dünənki təcavüzkar bəyanatı onu göstərir ki, onlar vasitəçilərə bir söz deyir, özləri isə tamam başqa iş görürlər.

***- Cənab Prezident, Siz yerində qeyd etdiniz ki, Bakı baza prinsiplərinə, əsasən, sadiqdir. Bu prinsiplərin birinci bəndi Dağlıq Qarabağ ətrafındakı beş rayonun azad edilməsi barədə idi. Lakin hazırda beş rayondan dördü bilavasitə Azərbaycan Ordusu tərəfindən demək olar ki, azad edilib. Belə çıxır ki, minimum baza prinsipləri ya aktual deyil, ya da onlara müəyyən düzəliş edilməsinə ehtiyac var.***

- Bu, yenə də erməni tərəfin davranışından asılı olacaq. Bilirsiniz ki, sabah Cenevrədə Azərbaycanın və Ermənistanın Xarici İşlər nazirləri arasında danışıqlar olmalıdır. Erməni tərəfin baza prinsiplərinə nə dərəcədə sadiq olduğunu orada görəcəyik. Bundan sonra biz həmin prinsiplərin hazırda nə dərəcədə aktual olub-olmadığını artıq özümüz qiymətləndirəcəyik. Hərçənd bu bir ay ərzində mən dəfələrlə bəyan etmişəm ki, Azərbaycan, bütövlükdə, bu prinsipləri qəbul edib, əlbəttə, orada bizi qane etməyən müəyyən məqamlar var. Birinci mərhələdə beş rayonun qaytarılmasının nəzərdə tutulmasına gəldikdə isə, əlbəttə, indi bu, artıq aktual deyil. Ona görə ki, baza prinsiplərində ərazilərin qaytarılmasının növbəliliyi müəyyən edilmişdi. Birinci mərhələdə beş rayon, Kəlbəcər və Laçın rayonları ikinci mərhələdə. Sonra isə artıq azərbaycanlıların Dağlıq Qarabağ ərazisinə qaytarılması. Prinsip etibarilə, bütün məcburi köçkünlərin əvvəlki yaşayış yerlərinə qaytarılması. Buna görə də biz birinci mərhələni praktiki olaraq başa çatdırmışıq. Bu səbəbdən əgər indi erməni tərəfi baza prinsiplərinə sadiq olduğunu bildirərsə, biz dərhal hazırda işğal altında olan Laçın, Kəlbəcər rayonlarının və Ağdam rayonunun bir hissəsinin Azərbaycanın nəzarətinə verilməsi barədə danışacağıq. Beləliklə, biz müəyyən dərəcədə vasitəçilərin də işlərini asanlaşdıracağıq. Ona görə ki, mühüm bəndlərdən biri artıq həyata keçiriləcək və bizim hansısa ikinci mərhələni gözləməyimiz lazım olmayacaq. O mərhələ dərhal başlamalıdır. Əgər biz siyasi nizamlama barədə razılığa gəlsək, erməni qoşunları Kəlbəcər və Laçın rayonlarından, habelə Ağdam rayonunun bir hissəsindən dərhal çıxarılmalıdır.

***- Siz artıq XİN rəhbərlərinin sabahkı görüşü mövzusuna toxundunuz, bütövlükdə, Bakının gözləntilərini təsvir etdiniz. Lakin dəqiqləşdirmək istərdim, hər halda Bakı güman edir ki, erməni tərəfi konstruktivlik nümayiş etdirəcək və danışıqlar mücərrəd, uzun-uzadı deyil, daha konkret xarakter daşıyacaq.***

- Düşünürəm ki, bəli, hər halda, biz buna ümid edirik. Hərçənd erməni tərəfin aqressiv davranışı və onların beynəlxalq hüququ kobud şəkildə pozması, Cenevrə konvensiyalarını pozması və hərbi cinayətlər törətməsi, əlbəttə, onların nizamlama məsələsini konkret müzakirə etməyə hazırlaşmasından xəbər vermir. Ona görə ki, dinc şəhərlərə kasetli raketlərlə və döyüş sursatları ilə hücumlar hərbi cinayətdir. Ermənilərin atəşləri nəticəsində bizim 69 dinc vətəndaşımız həlak olub, 300-dən çox adam yaralanıb. Budur, erməni faşizminin siması. Lakin eyni zamanda düşünürəm, döyüş meydanında Ermənistanı məğlub etməyimiz hər halda onlardan ötrü ciddi siqnal olmalıdır ki, onlar daha imitasiya fəaliyyəti apara, bizi, Minsk qrupunun həmsədrlərini aldada, mahiyyət etibarilə məsələnin konkret müzakirəsindən yaxa qurtara bilməzlər. Danışıqlar prosesinə gəldikdə isə, son bir il ərzində, hətta bir ildən də çox müddətdə praktiki olaraq bu proses aparılmayıb. Bu, 1994-cü il atəşkəs anından sonra ilk dəfə idi. Ona görə ki, o vaxtdan bəri danışıqlar prosesi müxtəlif intensivliklə gedir, tərəflər baza prinsiplərinin bəndlərini razılaşdırırdılar. Axı bu prinsiplər göydən düşməyib. Bu prinsiplər Minsk qrupu tərəfindən, onun həmsədrləri tərəfindən təklif edilmiş və münaqişə tərəfləri onları razılaşdırmışdılar. Əlbəttə, proses ləng gedirdi, lakin, ümumiyyətlə, müəyyən tərəqqi vardı. Amma Ermənistanda yeni hökumət hakimiyyətə gələndən sonra birinci ildə onlar bizə və bildiyimə görə vasitəçilərə də vədlər verirdilər, ikinci ildə isə artıq açıq şəkildə özlərinin əsl niyyətlərini nümayiş etdirdilər ki, onlar bircə qarış belə torpaq verməyəcəklər və üstəlik, bizi yeni ərazilər uğrunda yeni müharibə ilə hədələyirdilər. Yeri gəlmişkən, bu sözləri onların müdafiə naziri deyib. Hazırda o, müdafiə naziri kimi həm öz xalqının, həm də dünya ictimaiyyətinin nəzərində tamamilə hörmətdən düşüb. Mən təəccüblənirəm, necə olub ki, belə alçaldıcı məğlubiyyətdən sonra o, indiyə qədər istefa verməyib.

***- Cənab Prezident, Siz qeyd etdiniz ki, Ermənistanın baş naziri son vaxtlar çox davakar bəyanatlar verir, bəyanatların ritorikasının özü davakardır. Lakin, bütövlükdə, onun sonuncu bir neçə bəyanatını izləsək, əvvəlcə o deyirdi ki, bu münaqişənin diplomatik nizamlanması yolu yoxdur. İki gün bundan əvvəl deyib ki, Ermənistan ağrılı güzəştlərə hazırlaşmalıdır. Lakin dünən ritorika dəyişdi, Sizin dediyiniz kimi, daha davakar oldu. Siz necə hesab edirsiniz, bu, nə ilə bağlıdır?***

- Bunu şərh etmək mənim üçün çətindir. Yəqin ki, Ermənistanın baş nazirinin başına nələr gəldiyini qiymətləndirməkdən özümü saxlayacağam. Yəqin ki, bu cür hərbi məğlubiyyət onun vəziyyətinə təsir göstərib. Əks halda bu cür qeyri-ardıcıllığı necə izah etmək olar. Axı bu qeyri-ardıcıl bəyanatlar və hərəkətlər, ilk növbədə, ölkənin rəhbəri kimi onun özü üçün tamamilə irrasional və zərərli, həm də onun ölkəsi üçün təhlükəli və zərərlidir. Çoxları sual verir, bu hərbi toqquşmalar nə üçün məhz indi baş verdi? Nə üçün əvvəl olmadı? Hətta Azərbaycana qərəzli münasibət bəsləyənlər və Ermənistanı açıq dəstəkləyənlər də özlərinə bu sualı verməyə məcburdurlar. Axı 1994-cü il atəşkəs anından 26 il keçib. Bütün bu illər ərzində toqquşmalar olub, qurbanlar olub, lakin belə miqyasda olmayıb. Birdən-birə nə baş verib? Axı Azərbaycanda heç nə dəyişməyib. Mən 17 il nizamlamaya dair danışıqlar aparmışam. Ermənistanın əvvəlki iki prezidenti ilə biz baza prinsiplərinin razılaşdırılması üzrə kifayət qədər ciddi yol keçmişik. Buna görə də obyektiv müşahidəçilərə aydındır ki, təqsir bizdə deyil, təqsir Ermənistanın baş nazirinin bu cür qeyri-adekvat, irrasional, təhlükəli davranmasındadır. Ermənistanın əvvəlki rəhbərlərindən heç biri Azərbaycan xalqının ünvanına bu cür təhqiramiz çıxışları özünə rəva görmürdü. Onların heç biri cinayətkar Dağlıq Qarabağ rejiminin başçısı üçün Şuşada inauqurasiya təşkil etməyi özünə rəva görmürdü. Onların heç biri Cenevrə Konvensiyasını nümayişkaranə şəkildə pozmaqla lovğalanmır, Livan ermənilərinin Dağlıq Qarabağda, o cümlədən Şuşada məskunlaşdırılmasını nümayiş etdirmirdi. Onların heç biri qondarma "Dağlıq Qarabağ parlamenti"ni Xankəndidən Şuşaya köçürməyə hazırlaşmırdı və sair və ilaxır. Yəni bütün bunlar baş nazir Paşinyanın düşünülməmiş və təhlükəli fəaliyyətinin nəticələridir. Onun ölkə daxilindəki bəyanatlarını şərh etməyəcəyəm. Lakin onun nizamlama ilə bağlı məsələlərdə etdikləri Ermənistan üçün çox təhlükəlidir. Bu gün Ermənistan bunu aydın görür. Buna görə düşünürəm ki, Minsk qrupunun həmsədrləri sabah Ermənistanın xarici işlər nazirinin qarşısında məsələni dəqiq qoymalıdırlar. Başa düşürəm, o, çətin vəziyyətdədir. O, öz rəhbərinin qeyri-adekvat davranışına görə cavab verməli olur. Həqiqətən, o, acınacaqlı vəziyyətdədir. O, necəsə vəziyyətdən çıxmalı, sizin qeyd etdiyiniz kimi, bu qeyri-ardıcıl hərəkətləri izah etməli olacaq. Paşinyan gah ağrılı güzəştlərdən danışır, gah deyir ki, məsələnin diplomatik həlli yoxdur, sonra deyir ki, kompromisə getməyə hazırdır, daha sonra deyir ki, Qarabağı axıra qədər müdafiə edəcək, gah deyir ki, Qarabağ Ermənistandır, sonra deyirdi ki, biz danışıqları Dağlıq Qarabağla aparmalıyıq. Yəni bir-birini tamamilə qarşılıqlı istisna edən qeyri-adekvatlıq palitrası. Buna görə də düşünürəm ki, sabah bu məsələlərin çoxu aydınlaşacaq.

***- Siz artıq Minsk qrupunun fəaliyyətinə toxundunuz. Mən belə bir aspekti dəqiqləşdirmək istərdim. Siz Azərbaycan xalqına sonuncu müraciətinizdə vasitəçiləri onların faktiki fəaliyyətsizliyinə görə kifayət qədər sərt tənqid etdiniz. Bu, o deməkdirmi ki, Bakı Minsk qrupunun formatının dəyişdirilməsində israr edəcək? Bunu nə üçün soruşuram? Ötən həftə Prezident Putin Minsk qrupunun formatına yenidən baxılmasının mümkünlüyünü istisna etməyib.***

- Bu bir ay ərzində mən Minsk qrupunun fəaliyyəti barədə dəfələrlə danışmışam və Azərbaycan xalqına müraciətimdə dediklərim əsl həqiqətdir. Axı hər bir struktur, necə adlanmasından, kimlərdən ibarət olmasından asılı olmayaraq, əgər qarşısına qoyulmuş məsələni yerinə yetirmirsə, özünün səmərəsiz olduğunu etiraf etməlidir. Axı qarşıya qoyulmuş vəzifə yerinə yetirilməyib. Hərçənd mən özümün bəzi müsahibələrimdə demişəm ki, Minsk qrupu tərəfindən nizamlamaya yönəlmiş cəhdləri tamamilə inkar edə bilmərəm. Ona görə ki, hər halda baza prinsipləri Minsk qrupu tərəfindən işlənib hazırlanmışdı. Onlar işləyirdilər, variantlar təklif edirdilər. Təkliflərin bəziləri ilə biz razılaşmırdıq, bəziləri ilə erməni tərəfi razılaşmırdı. Yəni bu proses Paşinyan Ermənistanda hakimiyyətə gələnədək davam etdi. Lakin səmərəlilik, nəticəlilik baxımından, əlbəttə, Minsk qrupu özünü doğrultmadı. Mən həmsədrlərin fəaliyyətini nəzərdə tuturam. Özü də əgər Minsk qrupunun həmsədrləri hansısa başqa ölkələr olsaydı, bunu hələ onunla izah etmək olardı ki, o ölkələrin dünyada kifayət qədər təsir qüvvəsi yoxdur, hətta BMT Təhlükəsizlik Şurasının onların özlərinin qəbul etdikləri qətnamələrini reallaşdırmaq üçün kifayət qədər nüfuzu yoxdur. Lakin Minsk qrupunun həmsədrləri BMT Təhlükəsizlik Şurasının üç daimi üzvü, üç nüvə dövləti olduğu halda onların Ermənistana təzyiq göstərməsinin mümkün olmaması, əlbəttə, çoxlu suallar doğurur. Qrupun tərkibi məsələsinə gəldikdə, mən bu barədə artıq demişəm ki, Minsk qrupu 1992-ci ildə yaranıb. Onun necə yaradıldığını bilmirəm. Üzvlərin seçilməsinin hansı prinsiplərə əsaslanması da mənə məlum deyil. Ancaq mən onu da demişəm ki, əgər bu gün biz hansısa təmas qrupu yaratsaydıq, onun tərkibi, əlbəttə, tamam başqa olardı. Orada regionda öz mövqeləri olan, potensialı olan, dünyada nüfuza malik olan ölkələr olardı. Əlbəttə, düşünürəm ki, hazırda həmsədr olan ölkələr də bəlkə qala bilərdi. Lakin bu sual, əlbəttə, mənə aid deyil. Ona görə ki, Minsk qrupunun və onun həmsədrlərinin formalaşması mexanizmi və proseduru ATƏT-in səlahiyyətlərinə aiddir. Mən hesab edirəm ki, münaqişəni nizamlamaq üçün biz formal məsələlərdən yapışmamalıyıq. Minsk qrupu indiki kimi öz işini davam etdirə bilər. Ancaq praktiki olaraq siyasi nizamlama səviyyəsinə çıxmaq üçün region ölkələri arasında regional əməkdaşlığın hansısa yeni mexanizmləri barədə düşünmək lazımdır. Fikrimcə, Prezident Putin bu barədə danışanda, yəqin ki, o da bunları nəzərdə tuturdu.

***- Yeri gəlmişkən, bəzi ekspertlər bununla əlaqədar 2+2 formulunu təklif edirlər. Bu formul, belə deyək, rəsmi Bakı üçün nə dərəcədə məqbuldur?***

- İki tərəf Ermənistan və Azərbaycandır. Bəs o biri iki tərəf kimlərdir?

***- Türkiyə və Rusiya.***

- Bu, bizim üçün məqbul olardı. Ona görə ki, həm Rusiya, həm də Türkiyə bizim qonşularımızdır. Bu ölkələrlə sıx qarşılıqlı münasibətlərimiz var. Bu ölkələrin öz aralarında yaxşı əməkdaşlıq potensialı var. Təkcə son illərin tarixinə baxmaq kifayətdir. Türkiyə və Rusiya həm ikitərəfli gündəlikdəki bir çox məsələlər barəsində, həm də regional təhlükəsizlik məsələlərində qarşılıqlı anlaşmanın yüksək səviyyəsinə nail olublar. Bunu Suriyada da, Liviyada da, beynəlxalq terrorizmə qarşı mübarizə ilə bağlı məsələlərin həllində də görürük. Enerji layihələri, iqtisadi, investisiya xarakterli layihələr də öz yerində. Əvvəllər, hələ bu münaqişə kəskinləşənə qədər mən hər zaman deyirdim ki, biz Türkiyə ilə Rusiyanın yaxınlaşmasını həmişə alqışlamışıq. Hesab edirəm ki, bu, regional təhlükəsizliyin mühüm amilidir. Erməni separatizminin və ekstremizminin bizdən ötrü, - təkcə bizdən ötrü deyil, regiondan ötrü, - əsas təhlükə olduğunu nəzərə alsaq, hesab edirəm ki, Türkiyə ilə Rusiyanın səylərini birləşdirməsi regionun xeyrinə olardı, Dağlıq Qarabağ münaqişəsinin siyasi yolla nizamlanmasını sürətləndirə bilərdi.

***- Cənab Prezident, Siz dəfələrlə demisiniz ki, münaqişənin nizamlanmasında irəliləyiş olması üçün vasitəçilər Ermənistana qarşı hansısa formada sanksiyalar tətbiq etməlidirlər. Sizin fikrinizcə, bu sanksiyalar nədən ibarət ola bilər?***

- Bəli, siz haqlısınız. Mən bu barədə danışmışam. Özü də təkcə indi yox. Mən bu barədə çoxdan danışıram. Lakin təəssüf ki, mənim çağırışlarım cavabsız qalır. Hansı sanksiyalar tətbiq edilə bilərdi? O sanksiyalar ki, Ermənistanı BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirməyə və işğal edilmiş ərazilərdən qoşunları çıxarmağa məcbur etsinlər. Məsələn, İraq Küveyti işğal edəndən sonra İraqa qarşı tətbiq edilmiş sanksiyaları götürmək olar. Axı beynəlxalq hüquq baxımından təxminən eyni hadisə baş verib. Küveytin beynəlxalq aləmdə tanınmış ərazisi İraq tərəfindən işğal edilmişdi, hərbi cinayətlər törədilmişdi, etnik təmizləmə aparılmışdı. Yalnız dünya birliyinin vaxtında reaksiya verməsi nəticəsində bu işğal dayandırıldı, özü də qısa vaxtda. Daha sonra İraqa iqtisadi sanksiyalar tətbiq edildi, silah satışına embarqo qoyuldu, İraqın ərazisi uçuşların qadağan edildiyi zonaya çevrildi, insanlığa qarşı cinayətlər törətmiş hərbi canilər məhkəməyə cəlb edildi, mühakimə olundu. Ermənistana münasibətdə də bu cür sanksiyalar tətbiq edilməli idi. Mən əminəm ki, hətta bu sanksiyalardan biri tətbiq olunsa idi, münaqişə çoxdan həll edilərdi. Sadəcə, bu sanksiyaları tətbiq etmək üçün siyasi iradə və istək yox idi. Çox ehtimal ki, belə bir mövqeyə üstünlük verilirdi - təki vəziyyət daha da kəskinləşməsin, gəlin hər şeyi olduğu kimi saxlayaq.

***- Münaqişə donduruldu?***

- Əlbəttə, donduruldu. Hərçənd hamı başa düşürdü ki, bu, əbədi davam edə bilməz. Hamı bunu hələ 10 il əvvəl başa düşürdü. Rusiya, ABŞ və Fransa prezidentləri bəyanatlarla çıxış ediblər, özü də dəfələrlə. Onlar aydın şəkildə deyirdilər ki, status-kvo qəbuledilməzdir. Yaxşı, biz bunu alqışladıq. Yadımdadır, bu, bizdə bəyənildi və mən də bunu şərh etdim. Bəs sonra nə oldu? Sonra bu tezisdən tədricən uzaqlaşmağa başladılar, onu artikulyasiya etmədilər və yeni tezis fikirləşib tapdılar ki, status-kvo davamlı deyil. Axı bunlar tamamilə fərqli məsələlərdir. Axı biz bunu gözəl başa düşürük. Deməli, həmsədr ölkələr Ermənistana hətta hər hansı siyasi təzyiq göstərmək cəhdindən də geri çəkildilər. Status-kvonun davamlı olmadığını hamı bilirdi. Son hadisələr də bunu göstərdi. Buna görə bir daha deyirəm, münaqişəni tezliklə həll etmək üçün, - hələ gec deyil, - sanksiyalar lazımdır. Düşünürəm ki, həmsədr ölkələr təcavüzkarı işğal olunmuş torpaqlardan getməyə məcbur etmək üçün ona hansı sanksiyalar tətbiq edilə biləcəyi barədə ciddi fikirləşməlidirlər.

***- Siz necə hesab edirsiniz, bir ay davam edən hərbi faza müddətində həmsədr ölkələr bitərəfliyi tam qoruyub saxlaya bilibləmi?***

- Bilirsinizmi, mən bu barədə öz mülahizələrimi bildirmişəm və demişəm ki, əlbəttə, hər bir ölkənin, o cümlədən Azərbaycanın da öz xarici siyasət prioritetləri ola bilər. Biz bəzi ölkələrlə daha sıx münasibətdəyik, bəziləri ilə münasibətlərimiz o qədər də sıx deyil, bəzi ölkələrlə münasibətlərimiz tarixi amillərə, başqaları ilə münasibətlərimiz daha praqmatik amillərə əsaslanır. Buna görə də həmsədr ölkələrdə çox strukturlaşdırılmış və fəal erməni icmalarının mövcud olmasına biz həmişə anlaşıqlı münasibət bəsləmişik. Amerikada da, Fransada da, Rusiyada da. Biz hətta bu vəziyyəti təhlil edəndə onların qərarların qəbuluna daha çox harada təsir etmək imkanını müəyyənləşdirməkdə çətinlik çəkirik. Buna görə biz həmin amili həmişə nəzərə almışıq və indi də nəzərə alırıq. Birinci mərhələdə, hərbi toqquşmaların ilk günlərində bəzi sapmalar bizdə bitərəfliyə şübhə oyadırdı, indi isə düşünürəm ki, bütün bunlar qaydaya düşüb. Həmsədr ölkələrin ali rəhbərliyi ilə mənim əlaqələrim, habelə əminəm, - Azərbaycanın aldığı beynəlxalq dəstək, - indi gördüyümüz bitərəfliyə gətirib çıxarıb. Bir daha deyirəm, kimin ürəyində nə varsa, bu, bizim işimiz deyil. Lakin beynəlxalq hüququn normalarına və bitərəfliyə riayət edilməsi baxımından, əlbəttə, vasitəçilər buna əməl etməlidirlər. Əks halda onlar, sadəcə, vasitəçi olmaq imkanını itirərlər.

***- Nizamlamaya qərəzsiz yanaşmalıdırlar.***

- Tamamilə doğrudur. Ona görə ki, vasitəçi qərəzsiz olmalıdır. O, emosiyalarını evdə qoymalı, ya da ikitərəfli formatı tərk etməli, nizamlama çərçivəsində isə ona ATƏT-in verdiyi mandatı və münaqişəni Azərbaycanın və ya Ermənistanın istəyinə uyğun şəkildə deyil, beynəlxalq hüququn tələb etdiyi qaydada nizamlamaq arzusunu əsas götürməlidir.

***- Siz nisbətən yaxın vaxtlarda bəyan etmisiniz ki, Dağlıq Qarabağda heç bir referendum olmayacaq. Bu, prinsip etibarilə təzə reallıqdır. Bu, o deməkdirmi ki, məsələn, Azərbaycan öz mövqeyini dəyişib və ya ilkin mövqeyini bir qədər sərtləşdirib.***

- Bilirsinizmi, artıq 17 ildir ki, mən bu barədə danışıram, vasitəçilər də bunu bilirlər. ATƏT-in Minsk qrupunun həmsədrləri mənim mövqeyimi bilirlər. Bu illər ərzində mən neçə həmsədrin dəyişdiyini, həmsədr qismində neçə diplomatın dəyişdiyini artıq xatırlamıram. Lakin onlar hamısı təsdiq edə bilər, mən həmişə demişəm ki, Azərbaycanın beynəlxalq miqyasda tanınmış ərazilərində heç vaxt heç bir referendum olmayacaq. Üstəlik, əgər baza prinsiplərinə nəzər salsaq, orada da referendum sözü yoxdur. Orada iradə ifadəsi ilə bağlı, təyini-müqəddərat ilə bağlı müəyyən ifadələr var. Lakin biz həmişə demişik ki, bəli, təyini-müqəddərat beynəlxalq hüququn mühüm prinsipidir, ancaq o, ölkənin ərazi bütövlüyünü poza bilməz. İkincisi, ölkənin ərazi bütövlüyü həmin ölkənin razılığı olmadan dəyişdirilə bilməz. Ona görə də indiki halda bir müsahibəmdə dediyim sözlər mənim mövqeyimi tamamilə əks etdirir, bu, sirr deyil. Təbii ki, mən indi də eyni mövqedəyəm, biz Azərbaycan ərazisində ikinci erməni dövləti yaradılmasına imkan verməyəcəyik. Əgər kimsə ermənilər üçün ikinci dövlət yaratmaq istəyirsə, qoy, öz ərazisinin bir hissəsində yaratsın.

***- Cənab Prezident, son vaxtlar Ermənistanın rəhbərləri tez-tez, bilmirəm bunu necə adlandıraq, şantaja başlayır, bəyan edirlər ki, əgər hərbi faza davam etsə, Ermənistan Dağlıq Qarabağın müstəqilliyini tanıyacaq. Bu halda onlar özləri onu hələ indiyə qədər tanımayıblar. Hələlik yalnız bəyan edirlər. Lakin bununla belə, onlar ümidlərini itirmirlər ki, hansısa ayrı-ayrı ölkələr, beynəlxalq təşkilatlar müxtəlif ifadələrlə, xilas olmaq və sair xatirinə Dağlıq Qarabağın müstəqilliyini tanıyacaqlar. Siz necə hesab edirsiniz, Yerevan tərəfindən belə tanıma nə dərəcədə gözlənilir və bu, münaqişənin nizamlanmasında hansı nəticələrə gətirib çıxara bilər?***

- Sizin bu sualınız Ermənistanın indiki hakimiyyət orqanlarının qeyri-ardıcıl və qeyri-səmimi olmasına bir daha dəlalət edir. Ona görə ki, onlar özləri Dağlıq Qarabağın müstəqilliyini tanımadığı halda, istəyirlər ki, başqa ölkələr bunu etsinlər. Vəziyyət kəskinləşəcəyi halda onların Dağlıq Qarabağın müstəqilliyini tanıyacaqları barədə daimi şantaj və hədələri yenə də küy-kələk oldu. Hərbi qarşıdurma bir aydan çoxdur ki, davam edir. Bəs nə üçün onlar indiyə qədər Dağlıq Qarabağın müstəqilliyini tanımayıblar? Bunu etmək çox asandır. Qoy bəyan etsinlər ki, onu tanıyırlar. Onların siyasətinin bütün mahiyyəti də məhz bundadır. Onlar onilliklər boyu həmişə cəhd ediblər, - təəssüf ki, bəzən başqa ölkələrin arxasında gizlənməyə nail olublar, - onların problemlərini onların əvəzinə başqa ölkələr həll etsinlər. Müasir erməni dövlətinin ideologiyası da, əslində, bundan ibarətdir. Bu ideologiyanın çox dərin tarixi kökləri var. Bütün tarixboyu belə olub. Son 200 ilin tarixini, Qafqazın tarixini izləsək, onların ucbatından neçə müharibə baş verməsini, onların başqa ölkələr üçün necə təxribat yaratmasını görərik.

*Ardı 3-cü səh.*

## İlham Əliyev beynəlxalq informasiya məkanında erməni faşizmini ifşa edir

# Ermənistan atəşkəs rejimini artıq üç dəfə kobud şəkildə pozmaqla siyasi müstəvidə qeyri-konstruktiv yanaşma nümayiş etdirir

### Prezident İlham Əliyev Rusiyanın "İnterfaks" agentliyinə müsahibə verib

Əvvəli 2-ci səh.

Sonra isə kolluğa qaçaraq və kimlərinsə arxasında gizlənərək başqa xalqların qanının axıdılmasının və qarşıdurmanın bəhrələrini gördülər. Onların Qafqaza gəlib çıxmalarının tarixini biz çox gözəl bilirik. Qafqaz regionunda tarixən erməni etnosu olmayıb. Onlar buraya necə gəlib çıxıblar - məhz belə yolla, hiyləgərliklə, məkrliliklə, necə deyərlər, ilanı başqasının əli ilə tutmaq cəhdləri ilə. Onlar indi də eyni hərəkətləri edirlər. Buradan mən onlara, necə deyərlər, cavab çağırışı edirəm - Dağlıq Qarabağı tanıyın. Bu gün tanıyın. Yeri gəlmişkən, bu barədə nisbətən yaxın vaxtlarda demişəm, qoy, bu gün tanısınlar. Lakin başqa ölkələrin bunu etməsini xahiş etmək yenə də Ermənistan rəhbərliyinin qeyri-adekvatlığından və onun siyasi savadının çox aşağı səviyyədə olmasından xəbər verir. Ona görə ki, əgər Ermənistan rəhbərliyi beynəlxalq siyasətin əsaslarından azacıq da olsa baş çıxarsaydı, anlayardı ki, bu gün biz Dağlıq Qarabağ ilə vahid dövlət çərçivəsində və digər beynəlxalq strukturlar çərçivəsində BMT-yə daxil olanda Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən hamıya məlum fakt kimi etiraf edilib. Axı, Qoşulmama Hərəkatı - 120 ölkə Azərbaycanın ərazi bütövlüyünü birmənalı şəkildə dəstəkləyib. Avropa İttifaqına 27 ölkə daxildir. Avropa İttifaqı ilə bizim imzaladığımız sənəddə Azərbaycanın ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı və suverenliyi dəstəklənib. Bunlar təqribən 150 ölkə deməkdir. Buraya İslam Əməkdaşlıq Təşkilatını da əlavə etsək, - düzdür, orada Qoşulmama Hərəkatının üzvləri olanlar da var, olmayanlar da, - budur dünya birliyi. Ermənistanın ucbatından, onun istəyinə görə, onun Dağlıq Qarabağı tanımaq şıltaqlığına görə Azərbaycan ilə münasibətləri korlamaq, özü də, sadəcə, korlamaq deyil, deyərdim ki, bu, hər hansı ölkə ilə diplomatik münasibətləri dərhal pozmağa gətirib çıxarar. Kim belə addım atacaq? Sadəcə, heç kim bunu etməyəcək. Xüsusən ona görə ki, ermənilər özləri onu tanımırlar. Özü də elə bir vaxtda ki, onlar BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əsasən təcavüzkardırlar. Buna görə də deyərdim ki, bu hərəkət onların növbəti ləyaqətsiz cəhdidir, yenə başqasının hesabına öz istəklərinə nail olmağa çalışırlar.

***- Siz çox yaxşı dediniz. Rusiya münaqişə zonasına hərbi müşahidəçilər göndərilməsini təklif etmişdi. Baş nazir Paşinyan, prinsip etibarilə sülhməramlıların münaqişə zonasına daxil olmalarına razılaşdı və bunların rusiyalı sülhməramlılar olmasını istisna etmədi. Yəni bir növ kazus alınır: hərbi müşahidəçilər, yoxsa sülhməramlılar? Ümumiyyətlə, bu məsələ barədə rəsmi Bakının mövqeyi necədir?***

- Bu bənd baza prinsiplərində əks olunub. Lakin biz onu heç vaxt ciddi müzakirə etməmişik. Ona görə ki, sadəcə, biz həmin bəndə çatmamışıq. Regiona sülhməramlıların göndərilməsi nizamlamanın sonuncu mərhələsində, işğalın nəticələri aradan qaldırılanda, işğal edilmiş ərazilər qaytarılanda, qaçqınlar Dağlıq Qarabağa qayıdanda planlaşdırılırdı. Bəli, erməni və azərbaycanlı əhalinin birgə yaşamasını təmin etmək üçün birinci mərhələdə ayırıcı qüvvələr lazım olacaq. Lakin baza prinsiplərində həmin qüvvələrin hansı müddətə göndəriləcəyi, onların hansı ölkələrdən olacağı barədə göstərişlər yox idi. Yəni sadəcə, ona görə ki, biz o bəndə çatmamışdıq. Biz əvvəlcə sazişin əsas bəndlərini razılaşdırmalı idik. Ermənistanın baş nazirinin münaqişə zonasında sülhməramlılar olmasını istədiyini bəyan etməsinə gəldikdə isə, əvvələn, bu, onun işi deyil. Ona görə ki, biz münaqişə zonası deyəndə başa düşmək lazımdır ki, bu, Azərbaycanın ərazisidir. Əgər biz Azərbaycanla Ermənistanın sərhədində sülhməramlılardan danışırıqsa, bu, başqa məsələdir. Bəli, amma indi, mən belə başa düşürəm ki, Azərbaycan ərazisi haqqında danışırlar. Buna görə də, təbii ki, həlledici sözü biz deməliyik, çünki bu mövzu geniş müzakirə edilməyib. Məncə, bu barədə danışmaq hələ tezdir. Lakin öz tərəfimdən qeyd etmək istərdim ki, bu barədə danışanda, əvvələn, başa düşmək lazımdır ki, ehtimal edilən müşahidəçilərin mandatı necə olacaq, onlar harada dislokasiya ediləcək. Başa düşmək lazımdır ki, təmas xətti yoxdur, buna görə də dislokasiya yerləri harada olacaq.

Ermənistan beynəlxalq hüququ pozur, atəşkəsi pozmaqda davam edir, bizim şəhərlərimizi atəşə tutur. Bu yaxınlarda "Euronews" kanalında bir reportaj verilirdi. Orada raketin necə uçması aydın görünürdü. Özü də raket hərbi mövqelərə deyil, bizim şəhərlərə uçur. Buna görə də sülhməramlılar harada yerləşəcək, onların mandatı necə olacaq, şəxsi heyəti, sayı, silahları, funksiyaları nə olacaq, onların təhlükəsizliyini kim təmin edəcək? Buna görə də bütün bu məsələlərin çox diqqətlə öyrənilməsi tələb olunur və yalnız bundan sonra deyə bilərik ki, bəli, biz buna razıyıq və ya razı deyilik. Ona görə bu sual hələ tezdir.

***- Bütövlükdə, indiki vaxtda Azərbaycan, Ermənistan və Rusiya hərbçiləri atəşkəsin monitorinqinin hər hansı mexanizmini müzakirə edirlərmi?***

- Xeyr. İndi belə müzakirələr aparılmır.

***- Siz Ermənistanın baş naziri ilə Qarabağ barəsində danışıqlar aparılması üçün Moskvaya gəlməyə hazırsınızmı və hansı şərtlərlə?***

- Mən belə dəvət almamışam. Üçtərəfli görüşlərdə dəfələrlə iştirak etmişəm, lakin Ermənistanın, Azərbaycanın və Rusiyanın rəhbərlərinin - prezidentlərinin iştirakı ilə. Amma Paşinyan Ermənistanda hakimiyyətə gələndən sonra bu cür görüşlər olmayıb. Ermənistanın əvvəlki prezidentləri ilə belə görüşlər olub. Mən həmin görüşlərdən heç vaxt boyun qaçırmamışam. Hesab edirdim ki, bu görüşlər çox müsbətdir. Ona görə ki, Rusiya Minsk qrupunun həmsədri kimi nizamlamada xüsusi rol oynayır. Çünki Rusiya həm də tarixən istər Ermənistanla, istərsə də Azərbaycanla həmişə sıx əlaqə saxlayır və bu gün siyasi, iqtisadi qarşılıqlı əlaqələr baxımından Rusiya Azərbaycanla və Ermənistanla çox fəal əməkdaşlıq edir, bizim qonşumuzdur. Buna görə, əlbəttə, belə görüşlərin çoxu Rusiya ərazisində keçirilib. Paşinyanın dövründə isə belə görüşlər olmayıb. Ermənistan rəhbərliyinin qeyri-adekvatlığını nəzərə alsaq, indi həmin görüşlərin nə dərəcədə səmərəli olacağını bilmirəm. Lakin əgər belə təklif daxil olarsa, biz ona həmişə müsbət mövqedən baxmışıq və baxacağıq.

***- Yəni belə dəvət olarsa, Siz gəlməyə hazırsınızmı?***

- Bəli. Özü də, siz dediyiniz kimi, heç bir şərtsiz. Buna sübut odur ki, sabah bizim Xarici İşlər nazirləri Cenevrədə, yenə hər hansı şərtlər olmadan görüşəcəklər. Üstəlik, demək istəyirəm ki, hələ münaqişə başlayan vaxt bizim Xarici İşlər naziri, - onun Minsk qrupunun həmsədrləri ilə görüşmək üçün Cenevrəyə səfəri planlaşdırılmışdı, - o, oraya getdi. Ermənistanın xarici işlər naziri isə bir həftə əvvəl, oktyabrın əvvəlində oraya getməli idi, imtina etdi. Humanitar atəşkəs məsələsini razılaşdırmaq üçün xarici işlər nazirlərinin görüşü barədə Moskvadan təklif alınanda da bizim Xarici İşlər naziri Cenevrədən oraya uçdu. Yəni, biz heç bir şərt qoymuruq. Amma mən yenə çox şübhə edirəm ki, Ermənistanın indiki hakimiyyəti nizamlanma üzrə konstruktiv işə qabil olsun.

***- Erməni tərəfin bəyanatlarına qayıtsaq, baş nazir Paşinyan daim deyir ki, Türkiyənin xüsusi təyinatlıları, türkiyəli hərbçilər Azərbaycana, belə deyək, sadəcə, kömək etmirlər, onlar hərbi fazaya fəal cəlb ediliblər. İndi belə fikirlər də əlavə olunub ki, münaqişənin hərbi fazasının həllində pakistanlı xüsusi təyinatlılar Azərbaycana fəal kömək edirlər. Siz bu bəyanatları necə şərh edərdiniz və ümumiyyətlə, Sizin fikrinizcə, hazırda nizamlamada Türkiyənin rolu nədən ibarətdir və perspektivdə bir rol nədən ibarət ola bilər?***

- Bu, Paşinyanın növbəti yalanıdır. Onu da deməliyəm ki, Ermənistanın əvvəlki prezidentləri ilə mənim ünsiyyətim zamanı buna oxşar heç bir hal olmayıb. Bəli, biz düşmənlərik, biz bir-birimizə qarşı müsbət əhvalda ola bilmərik, lakin danışıqlar masası arxasında heç vaxt belə ağ yalan olmayıb. Sadəcə, belə insunasiyalar da olmayıb. Bunlar hamısı yalandır. Burada Türkiyənin heç bir xüsusi təyinatlısı yoxdur. Bu barədə dəfələrlə demişəm, buna ehtiyac da yoxdur. İndi onun ağzı o qədər qızışıb ki, guya hansısa pakistanlı xüsusi təyinatlılar var. Yeri gəlmişkən, buna görə, məncə, etiraz notası da alıb. Bu, cəfəngiyatdır, belə şey yoxdur. Bu, əvvələn, üçüncü tərəfləri münaqişəyə cəlb etmək, münaqişəni beynəlmiləlləşdirmək və özünün alçaldılmış vəziyyətini ört-basdır etmək cəhdləridir. Guya, döyüş meydanında vuruşan Azərbaycan deyil, Türkiyənin və Pakistanın xüsusi təyinatlılarıdır. O, cəfəngiyat danışır. Bu yaxınlarda deyib ki, guya Azərbaycanın Suriyadan gətirdiyi terrorçular Rusiya ərazisinə soxulub və Qroznıda terror aktı törədiblər. Başa düşün, bu ki, tamamilə cəfəngiyatdır. Rusiyanın xüsusi xidmət orqanları bu terror aktını kimin təşkil etdiyini yəqin ki, bilirlər. Bundan əvvəl Paşinyan deyirdi ki, Türkiyənin F-16 təyyarəsi Ermənistana məxsus Su-25 təyyarəsini vurub. Hamı bilir ki, bu, yalandır. Bütün bunları həm Rusiya, həm də digər həmsədr ölkələr izləyirlər. İndi biz texnologiyalar əsrində yaşayırıq. Heç nəyi gizlətmək mümkün deyil. O deyəndə ki, Gəncəyə ballistik raketləri Ermənistan atmayıb, bu, sadəcə, axmaqlıqdır. Ona görə ki, hər hansı ballistik raketin buraxılması izlənilir. Bu raketin haradan buraxılmasını, ona hansı döyüş tapşırığı verilməsini Rusiya da çox gözəl bilir, Amerika da, Fransa da. Bu döyüş tapşırığının hədəfi yaşayış məhəlləsi idi. İkinci dəfə də yaşayış məhəlləsi oldu. Gəncədə bizim heç bir hərbi bazamız, heç bir hərbi şəhərciyimiz yoxdur. Axı o, yalan deyir. Bu dəhşətli dağıntı kadrlarını biz yox, yüzlərlə xarici jurnalist çəkəndə, xarici diplomatlar birbaşa dağıntılar yerindən müsahibə verəndə də Paşinyan yalan deyir. Deyir ki, bunu edən Ermənistan deyil. Bəs kimdir? Biz özümüz Gəncəyə zərbə endirmişik? Yalançılığın, ən başlıcası, axmaqlığın dərəcəsini təsəvvür edirsinizmi? Bunu hər bir adekvat insan başa düşməli idi, bunu gizlətmək mümkün deyil. Buna görə də onun pakistanlı, türkiyəli xüsusi təyinatlılar barəsində dedikləri növbəti sərsəmlikdir. Sabah deyər ki, biz ərazilərimizi azad etmək üçün buraya marslıları gətirmişik. Ondan nə desəniz gözləmək olar.

***- Hər halda, münaqişənin nizamlanmasında Türkiyənin sonrakı rolunu dəqiqləşdirmək istərdim.***

- Bəli, nizamlamada Türkiyənin rolunu görürük, səmərəli roldur. Türkiyə bizə qardaş dövlətdir. Türkiyə dünyada yeganə ölkədir ki, Cənubi Qafqazın üç ölkəsi ilə onun dövlət sərhədləri var. Hazırda Türkiyə təkcə regional problemlərlə bağlı bir sıra məsələlərdə deyil, həm də qlobal planda həlledici söz sahibidir. Türkiyə həm də tamamilə müstəqil xarici siyasət yürüdür. Mənim bildiyimə görə bu da hamıya komanda verməyə adət edənləri çox qıcıqlandırır. Türkiyə bizim etibarlı tərəfdaşımız, Azərbaycanın dostu, həm də Rusiya ilə çox sıx münasibətləri olan ölkə kimi, zənnimcə, hökmən mühüm rol oynayacaq. O, artıq indi həmin rolu oynayır. Rusiya və Türkiyə prezidentləri, bu ölkələrin Xarici İşlər nazirləri, Müdafiə nazirləri daim əlaqə saxlayırlar, bu məsələləri müzakirə edirlər. Bu, onu göstərir ki, Türkiyə artıq cəlb olunub, Ermənistanın nə qədər xoşuna gəlməsə də. Lakin mən əminəm, Ermənistan bunu etiraf etməyə və bununla razılaşmağa məcbur olacaq.

***- Cənab Prezident, hər halda belə bir risk varmı ki, Azərbaycan ilə Ermənistan arasında münaqişə genişlənərək daha böyük regional münaqişəyə çevriləcək, ona iri dövlətlər də qoşulacaq?***

- Səmimi desək, bunu tam istisna edə bilmərəm. Lakin öz tərəfimdən deməliyəm ki, biz buna gətirib çıxara biləcək hər hansı hərəkətlər etməyəcəyik. Bu münaqişəni beynəlmiləlləşdirə biləcək heç bir təxribat olmayacaq. Bu, bizə lazım deyil. Son bir ayda dəfələrlə demişəm ki, biz bunun əleyhinəyik. Bütün ölkələri təmkin nümayiş etdirməyə, müdaxilə etməməyə çağırmışam. Mən şadam ki, belə də olur. Hərçənd Ermənistanın münaqişəni beynəlmiləlləşdirmək üçün daimi cəhdləri, Ermənistan rəhbərliyinin Rusiyadan az qala Ermənistan tərəfində döyüşmək üçün Rusiya qoşunlarını göndərmək barədə daimi xahişləri məhz mənim dediyim ilanı özgə əli ilə tutmaq məsələsidir. Buna görə əminəm ki, region ölkələri, həm Rusiya, həm Türkiyə, həm İran, həm də Gürcüstan, - təbii ki, Azərbaycanın bu ölkələrlə etimada əsaslanan sıx tarixi, mədəni, siyasi münasibətləri var, - təcavüzkarın dəyirmanına su tökən hər hansı hərəkətlərdən çəkinəcəklər.

***- Bu yaxınlarda Prezident Putin bəyan etdi ki, indiki eskalasiyanın gedişində hər iki tərəfdən ölənlərin ümumi sayı təqribən beş min nəfərdir. Sizdə olan rəqəmlər də belədir, yoxsa onlar bir qədər fərqlənir?***

- Mən demişdim ki, biz həlak olan hərbi qulluqçuların sayını münaqişə, müharibə başa çatandan sonra açıqlayacağıq. Müharibə başa çatdıqdan sonra. Dinc sakinlərə gəlincə, biz məlumatları dərc edirik. Mən sizə dedim: 69 nəfər həlak olan və 300-dən çox yaralı var. İtkilərə gəlincə, mən bizim fərziyyələrə görə Ermənistanın hansı itkiləri ola biləcəyini deyə bilərəm.

***- Maraqlı olardı.***

- Baxın, hətta tam riyazi cəhətdən. 256 tank məhv edilib, bu, dünənki gün üçün olan məlumatdır. Hər gün bu rəqəm artır. Hesablayın, orada hərəsində 3-4 nəfər var. Bu, artıq təxminən min nəfər. Sonra 50-dən çox piyadaların döyüş maşını məhv edilib. Orada təxminən neçə nəfərin olduğu aydındır. Yüzlərlə artilleriya topları. Hər birində bir neçə nəfər. 6 ədəd S-300 qurğusu, 40-a yaxın "Osa", "TOR", "KRUQ", "KUB" zenit-raket kompleksləri. 400, bəlkə də 400-dən çox yük maşını, onların böyük hissəsi məhv edilib, həm hərbi qulluqçularla, həm də döyüş sursatı ilə birgə. Əgər bunları hesablasaq, hələ nə qədər səngərlərdə məhv edilib. Axı biz bu səngərləri, təmas xəttini keçmişik. Bu kadrlar internetdə var. Yəni bizim məlumata görə, təkcə erməni tərəfinin itkisi 5 min və daha çox ola bilər, yaralananlar isə müharibədə bir qayda olaraq, 2-3 dəfə çox olur. Bizim itkilərə gəlincə, mən yenə dedim ki, biz onları sonra açıqlayacağıq. Lakin deməliyəm ki, onlar xeyli azdır. Silahlı toqquşmanın xarakteri, mürəkkəb relyef və ermənilərin 30 il ərzində qurduqları istehkamlar nəzərə alınarsa, hesab edirəm ki, hər bir insan həyatı dəyərlidir, lakin bütün bunlarla bərabər, bizim itkilərimiz minimaldır.

***- Bu mövzunu davam etdirmək istərdim. Bəzi hərbi ekspertlər hesab edirlər ki, Azərbaycan, belə deyək, hərbi əməliyyatların aktiv fazasında pilotsuz uçuş aparatlarından fəal istifadə edilməsi hesabına həlak olanların sayını minimuma endirməyə müvəffəq olub. Hətta bəziləri, elə ABŞ-dan olan hərbi ekspertlər hesab edirlər ki, bu, XXI əsrdə döyüş əməliyyatlarının aparılmasının yeni modelidir. Əks-hücum apararkən dronların xeyrinə seçim edilməsi nə ilə bağlı idi?***

- Bilirsiniz, Azərbaycan Ordusunun arsenalı təkcə dronlardan ibarət deyil, bizdə Rusiya, Belarus, İsrail istehsalı olan müasir hava hücumundan müdafiə sistemləri, bir neçə çarpaz hava hücumundan müdafiə sistemləri var. Onlar Ermənistan ərazisindən göndərilən raketlərin çox hissəsini vurur. Təəssüf ki, biz həmin raketlərin hamısını vura bilmirik. Bizdə ən müasir zirehli texnika var, modernləşdirilmiş "T-72" tankları, ən müasir "T-90" tankları, piyadaların döyüş maşınları və sair, müasir uzaqvuran artilleriya silahları var. İndi bu, heç kəs üçün sirr deyil. "Polonez", "Lora", "Ekstra", "Qasırğa" raketləri və sairə. Yəni biz ordumuzun silahlanmasına birtərəfli yanaşmamışıq. Lakin müharibə aparılmasının müasir metodları, əlbəttə, 1990-cı illərdə olan metodlardan fərqlənir. Buna görə də pilotsuz aviasiya bizim döyüş qabiliyyətimizin mühüm amilidir, xüsusən, bu cür möhkəmlənmiş rayonların olması nəzərə alınmaqla. İnanın ki, hətta bizim internetdə nümayiş etdirdiyimiz kadrlar da, əslində, baş verənlərlə müqayisədə çox cüzi hissədir. Bunlar bizim göstərə bildiklərimizdir. Aşkar görünür ki, onlar orada qazılıb yerləşdirilib. Sanki hansısa gəmiricilərdir. Onlar orada hər yeri qazıblar. Aralarında yollar olan, uzunluğu kilometrlərlə ölçülən tunellər var. Siçovul yuvalarına oxşayır. Səs eşidən kimi oraya girirlər. Hər bir artilleriya topunun "siçovul yuvası" var. Buna görə müasir texnika olmasa, bunları məhv etmək çox çətin olardı və bu, çox böyük insan itkisinə gətirib çıxarardı. Biz neçə "Qrad" qurğusunu məhv etmişik. İndiki halda pilotsuz aviasiya - həm Türkiyə dronları, həm də İsrail dronları, əlbəttə, bizə çox kömək edir. Biz azı altı ədəd "S-300" zenit-raket kompleksini məhv etmişik. Üstəgəl müasir pilotsuz uçuş aparatları. Onlar özləri zərbə endirir, özləri kəşfiyyat aparır, həm də zərbə vuran artilleriyanın koordinatlarını verirlər. Buna görə, əlbəttə, bu, bizim uğurumuzun mühüm amilidir. Lakin dediyim kimi, torpaqlarımızı Azərbaycan əsgərləri və zabitləri azad edirlər, bu torpaqlarda bayrağımızı qaldırırlar. Buna görə bütün bunlar bizim sərvətimizdir və təsadüfi deyil ki, Azərbaycan Ordusu ən yüksək döyüş qabiliyyətli ordulardan biri hesab edilir. Mən bilirəm ki, bu müharibədən sonra bu təcrübə öyrəniləcək. Ümumiyyətlə, bu təcrübə hərbi quruculuq üzrə gələcək fəaliyyəti planlaşdıran çox ölkələr üçün, hətta bizim üçün də faydalı olacaq. Bu yaxınlarda Müdafiə Nazirliyində hərbçilərlə müşavirə keçirirdim, orada dedim ki, biz uğurlarımızla yanaşı, nöqsanlarımızı da təhlil etməliyik və gələcəkdə hərbi texnika alanda indi bizə lazım olan, amma, sadəcə, anbarlarda qalmış texnikanı almamaq təcrübəsini əsas götürməliyik.

***- İstifadə edilməmiş qalıb?***

- Bəli.

***- Cənab Prezident, Siz qeyd etdiniz ki, eskalasiyanın indiki fazasında erməni tərəfinin dinc şəhərləri atəşə tutması halları tez-tez baş verib. Gəncənin iki dəfə şiddətli atəşə tutulması, Bərdənin dünən atəşə tutulması, həlak olanların ümumi sayı 70 nəfərə yaxındır, - bu, döyüş əməliyyatları zonasından kənarda yaşayan şəxslər üçün lap çoxdur, - və 300-dən çox yaralı. Lakin, eyni zamanda, Bakıdan daim bəyanatlar səslənir ki, beynəlxalq birlik bu atəşlərə görə Ermənistanı lazımınca qınamır. Yəni beynəlxalq birlik həm Bakıya, həm də Yerevana dinc vətəndaşların atəşə tutulmasını dayandırmaq kimi çağırışlar etməklə kifayətlənir. Lakin Bakının Ermənistanın əməllərini ittiham etməsi beynəlxalq birlik tərəfindən lazımınca qarşılanmır?***

- Bəli, bu, belədir. Lakin bu, bizim üçün yenilik deyil. Bütün bu işğal illəri ərzində Ermənistanın qınanması nədən ibarət olub? Məgər bu, ittiham idimi, xeyr. Məgər kimsə Ermənistanı işğala görə qınayıbmı? Bəli, 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının qətnamələri qəbul edilib. Bəli, sonra biz öz səylərimizlə BMT Baş Assambleyasının və Qoşulmama Hərəkatının qətnamələrinin qəbul edilməsinə nail olduq. Hətta Avropa Parlamentinin də. Lakin onlar, əlbəttə, nizamlama üçün hüquqi baza yaratdılar, amma ittihamları eşitmədik. Hətta atəşkəsin Ermənistan tərəfindən pozulması aydın olduqda belə. Moskvada atəşkəs əldə olunmasından heç bir gün keçməmiş onlar Gəncəyə zərbə endirdilər. İndi də, Vaşinqtonda atəşkəs razılaşdırıldıqdan bir gün sonra, özü də bunun üçün onlar yalvarırdılar. Axı atəşkəs barədə yalvaran onlar idi. Moskvada da, indi də Fransa tərəfinin fəaliyyəti nəticəsində əldə edilmiş atəşkəs pozulub. Bir gün keçmədi, onlar Bərdəni atəşə tutdular. Buna qədər isə onlar Tərtərdə dəfn mərasimini atəşə tutmuşdular. Orada 4 nəfər həlak olmuşdu. Bu qeyri-insani əməllər onu göstərir ki, baxın, görün, biz kiminlə vuruşmağa məcburuq. Onlar üçün nə əxlaq normaları var, nə şərəf, nə ləyaqət. Ümumiyyətlə, müharibənin necə aparılması barədə anlayışları yoxdur. Ona görə də onlar müharibəni belə aparırlar. Bilirsinizmi, hətta hər bir rəqibə, düşmənə də müəyyən dərəcədə hörmət etmək lazımdır, çünki qaydalar, o cümlədən müharibənin aparılması qaydaları var. Erməni tərəfi üçün bu qaydalar yoxdur. Ona görə də biz Ermənistanın pisləncəyinə o qədər də ümid etmirdik. Bizi qardaş Türkiyə dəstəkləyir. Bizi Pakistan, Türkiyə Prezidenti, Pakistanın Baş Naziri açıq dəstəkləyirlər. Onlar dəfələrlə bizi dəstəklədiklərini ifadə ediblər. Bizi çox ölkələr dəstəkləyir. Lakin biz dünya birliyi dedikdə, nə üçünsə həmişə Qərb dünyası başa düşülür. Bax, oradan biz həmrəylik gözləmirdik və gözləmirik.

***- Bundan başqa, erməni tərəfi tez-tez Azərbaycanın müxtəlif enerji infrastrukturunu - Mingəçeviri, qaz kəmərlərini, neft kəmərlərini atəşə tuturdu. Ümumiyyətlə, Siz necə hesab edirsiniz, bu, Azərbaycan neftinin və qazının dünya bazarına çatdırılması üçün müəyyən risklər yarada bilərmi?***

- Əgər onlar vəd etdiklərini reallaşdıra bilsələr, konkret olaraq, Səngəçal terminalını və ya bizim neft və qaz kəmərlərimizi bombalaya bilsələr, bu, əlbəttə, risklərlə bağlı olacaq. İndiki halda düşünürəm ki, onları qınayacaqlar, çünki bu neft və qaz, əsasən, avropalı istehlakçılara lazımdır. Sirr deyil ki, Azərbaycandan çəkilən qaz kəməri müəyyən dərəcədə, çox yox, müəyyən dərəcədə bəzi Avropa ölkələrinin enerji təhlükəsizliyinə şərait yaradır və yaradacaq.

***- Avropanın cənubu.***

- Neftin göndərilməsi məsələsinə gəldikdə, bu gün Avropa İttifaqının üzvü olan bəzi ölkələr özlərinin ehtiyaclarının təxminən 40-50 faizini Azərbaycan nefti hesabına təmin edirlər. Yəni, əgər bu neft-qaz kəmərləri ilə bağlı bir hadisə baş versə, Ermənistan ciddi beynəlxalq təzyiqlə üzləşəcək. Lakin bu da onları dayandırmır. Axı onlar Bakı-Novorossiysk neft kəmərini bombalamağa cəhd göstərmişdilər. Bu neft kəməri Azərbaycan ilə Rusiyanı bağlayır. Həmin Rusiyanı ki, Ermənistan ondan həmişə hansısa xüsusi münasibətlər tələb edir, əvəzində heç nə vermədən. Heç nə. Əsla. İstər tarixi baxımdan, istər beynəlxalq arenada dəstək mənasında. Əlbəttə, indi Sorosun komandasından başqa bir əməl gözləmək çətindir. Buna görə də Mingəçeviri, elektrik stansiyasını bombalamağın məqsədi Azərbaycanın enerji sistemini dağıtmaqdır. Bu, əlbəttə, müəyyən dərəcədə təsir göstərər, lakin biz artıq şaxələnmiş enerji təchizatı şəbəkəsi, yeni elektrik stansiyalarını yaratmışıq. Ona görə də bu, məhz erməni tərəfin yırtıcı mahiyyətini göstərir. Başqa məsələdir ki, biz həmin raketlərin çoxunu havada məhv etmişik. Bir hissəsi tutulub, bir hissəsi partlamayıb. Bu da onların hərbi potensialından xəbər verir. Amma, əlbəttə, belə bir təhdid var və biz ona adekvat reaksiya verməliyik. Mən həmişə demişəm, bu gün də deyirəm, Bərdə şəhərinin vəhşicəsinə bombardman edilməsinə, orada 7 yaşlı qızın həlak olmasına və bir neçə uşağın zərər çəkməsinə baxmayaraq, biz onların tayı deyilik. Biz onlara döyüş meydanında cavab verəcəyik. Biz yeni torpaqların azad edilməsi ilə, bayrağımızı yeni şəhərlərə sancmaqla cavab verəcəyik. Biz şəhərləri, mülki şəxsləri bombalamayacağıq. Sizə lap yaxın vaxtlara aid bir nümunə göstərim. Artıq çoxdandır ki, həlak olanların cəsədlərinin və hərbi əsirlərin dəyişdirilməsi barədə söhbət gedir. Prinsip etibarilə bu mövzu Moskvada səslənib. Bu ayın 10-da humanitar mülahizələrə əsasən biz Beynəlxalq Qırmızı Xaç Komitəsinə dəfələrlə müraciət etmişik ki, gəlin, mübadiləni təşkil edək. Özü də, tam təfərrüatı ilə deyim, mən həlak olmuş erməni hərbçilərinin cəsədləri barədə tapşırıq vermişəm ki, onları maksimum dərəcədə refrijiratorlarda (soyuducularda), soyuq yerlərdə saxlasınlar, biz hamımız bilirik, insanların cəsədləri qalanda nə hala düşür.

***- Cəsədlərin parçalanmaması üçün.***

- Bəli, tamamilə doğrudur. Hər dəfə erməni tərəfi imtina edir. Hər dəfə bəhanələr gətirirdilər ki, gəlin, bunu döyüşlər gedən yerdə edək. Başa düşürsünüzmü, bu, mübadiləni aparacaq insanların, mülki şəxslərin həyatını təhlükə altına qoymaq deməkdir. Biz deyirik yox, axı, bizim dövlət sərhədimiz var. Gəlin, bunu Tovuz rayonunda, Qazax rayonunda edək. Gəlin, orada edək. Deyirlər, yox, yalnız burada. Buna görə dünən mən qərar qəbul etmişəm ki, Ermənistanın həlak olmuş hərbi qulluqçularının cəsədlərinin çox hissəsi birtərəfli qaydada Ermənistana verilsin. Üstəgəl daha iki mülki şəxsi - bu ahıl insanları da verəcəyik. Dünən biz bunu etməyə çalışdıq, onları maşınlarla sərhəd tərəfə yola saldıq. ATƏT-in ofisini, Qırmızı Xaç Komitəsini bu işə cəlb etdik, lakin erməni tərəfi onları qəbul etmir. Onlar həlak olmuş insanlarının cəsədlərini qəbul etmirlər. Ümumiyyətlə, bu, nə deməkdir, bunu necə izah edəsən? Ümumiyyətlə, bu, hansı insani əxlaq normalarına sığır? Biz hər halda cəsədləri verəcəyik. İndi mülki şəxslərin və həlak olanların cəsədlərinin Gürcüstan ərazisindən çatdırılması üzərində işləyirik. Əgər onlar bu cəsədləri qəbul etməsələr, mən heç bilmirəm nə edək?! Görün, biz kiminlə vuruşuruq. Başa düşürsünüz? Bunu hamı başa düşməlidir. Onların bütün saxta, yalvarış dolu bəyanatlarını da. Onların ah-vayı, ağlamaları - bunlar hamısı yalançı göz yaşlarıdır. Biz onları yaxşı tanıyırıq. Buna görə Rusiya ictimaiyyəti onların yalanlarına, böhtanlarına aldanmamalıdır. Bəli, aydındır ki, onlar Rusiya Federasiyasında inteqrasiya ediblər. Təkcə orada yox, Fransada da, Amerikada da. Onlar mediada da yer tutub, ictimai fon yaradırlar. Lakin insanlar bizim kiminlə vuruşduğumuzu başa düşməlidirlər. Anlamalıdırlar ki, biz haqlıyıq. Biz öz torpağımızda vuruşuruq. Onlar bizim torpaqda ölürlər.

***- Cənab Prezident, Siz dəfələrlə vurğulamısınız ki, hərbi faza gec-tez başa çatacaq. Bununla əlaqədar Sizə iki sualım var. Birincisi, Siz bütün rayonların işğaldan azad edilməsindən, yəni, həm Dağlıq Qarabağın, həm də yeddi rayonun qaytarılmasından sonra Azərbaycanın iqtisadi potensialını necə qiymətləndirirsiniz? Bu, Azərbaycanın iqtisadi artım sürətinə necə təsir göstərə bilər?***

- Bunu demək çətindir. Bilirsinizmi, bu barədə müxtəlif ehtimallar var. Əlbəttə, böyük ərazilərin öz nəzarətimizə qaytarılması artım üçün, inkişaf üçün, ilk növbədə, kənd təsərrüfatının və turizmin inkişafı üçün böyük potensialdır. Ona görə ki, Qarabağ regionu ölkəmizin ən gözəl və bərəkətli regionlarından biridir. Həm təbii faydalı qazıntılarla, həm qızılla, sink və qurğuşunla zəngindir. Yeri gəlmişkən, Ermənistan Kəlbəcərdə bir neçə xarici şirkətlə bərabər qızılın qanunsuz hasilatını həyata keçirir. Lakin biz, əlbəttə, onların hamısını müvafiq hüquqi prosedurlar vasitəsilə məsuliyyətə cəlb edəcəyik. Ona görə də bu regionun perspektivi Azərbaycanın davamlı inkişafı üçün, ilk növbədə, ərzaq təhlükəsizliyi məsələlərinin həlli üçün çox vacib olacaq. Lakin anlamaq lazımdır ki, birinci mərhələdə bu, çox böyük maliyyə məsrəfləri tələb edəcək.

***- Bərpa işləri.***

- Bəli, əlbəttə. Çünki hətta bizim göstərdiyimiz kadrlardan da görünür ki, orada bircə ev də qalmayıb. Biz Füzuli şəhərini işğaldan azad edəndə orada bircə salamat bina tapa bilmədik. Təsəvvür edirsinizmi? Bütün şəhərdə, halbuki orada 10 minlərlə insan yaşayırdı. Bircə bina da qalmayıb. Mənə zəng vurdular, dedim ki, bayrağı dirək üzərində qaldırın. Görün, onlar nə ediblər. Ağdamın, Cəbrayıl rayonunun xarabalıqlarına baxın. Hər şey dağıdılıb. Elə bil buradan vəhşilər keçiblər. Elə bil bunlar insan deyilmiş. Onlar hər şeyi söküb-dağıdıblar. Evlərin damlarını, pəncərə çərçivələrini, hətta unitazları da. Bu, sadəcə, quldurluqdur. Buna görə qarşıda bizi çox böyük xərclər gözləyir. İnfrastruktur, yollar, kommunikasiyalar, yaşayış yerləri, inzibati binalar. Buna görə də bu, yəqin ki, birinci mərhələdə ümumi daxili məhsulun həcminə, inşaat sektoruna çox müsbət təsir göstərəcək.

***- İnşaat sektoruna.***

- Bəli, sözsüz. Bir də, əlbəttə, məşğulluq məsələsinə. Tikinti materialları istehsalı ilə bağlı olan hər şeyə. Lakin bu, milyardlarla məsrəf demək olacaq. Biz dəymiş ziyanı hesablayacağıq. Mən artıq komanda vermişəm, işğaldan azad edilmiş ərazilərdə xüsusi müvəqqəti komendaturalar yaradılmasına dair təlimatlar vermişəm. Cəmi bir neçə gün bundan əvvəl bu cür tapşırıq verilib. Biz hər şeyi inventarlaşdıracağıq, orada qalanların uçotunu aparacağıq, bizə vurulmuş ziyanın həcmini qiymətləndirəcəyik və təbii ki, bundan sonra artıq bizim vətəndaşların oraya qayıdacağı mərhələdə müvafiq hüquqi prosedurlar aparılacaq, biz təcavüzkarı məsuliyyətə cəlb edəcəyik. Odur ki, perspektivdə, fikrimcə 5-10 il ərzində bu, qeyri-neft sektorunun inkişafına yaxşı təkan verəcək, qısamüddətli perspektivdə isə bu, məsrəf tələb edəcək. Lakin, başa düşürsünüzmü, Qarabağı bərpa etmək, onu yer üzündə ən gözəl və həyat üçün rahat guşələrdən birinə çevirməkdən bizi dayandıra biləcək maddi maneə yoxdur.

***- Nəhayət, sonuncu sual. Siz Qarabağ münaqişəsi başa çatandan, nizamlanandan sonra bizim regionda vəziyyətin geosiyasi inkişafını və qüvvələr nisbətini necə görürsünüz?***

- Zənnimcə, vəziyyət, əlbəttə, münaqişədən əvvəlki kimi olmayacaq. Biz regionda geosiyasi düzümü çox cəhətdən dəyişmişik. O, artıq dəyişib və bir çox stereotiplər keçmişdə qalıb. Məsələn, Rusiya və NATO arasındakı qarşıdurma kimi. Siz indi baxın, Rusiya və NATO-nun üzvü olan Türkiyə daha çox səmimi və etimada əsaslanan əlaqələrə malikdirlər, nəinki Türkiyə ilə NATO üzvü olan hər hansısa başqa ölkə. Bunlar əvvəl yox idi, bunlar yeni reallıqlardır. Buna görə də, bax, belə dəqiq strukturlaşdırılmış stereotip geosiyasi təfəkkür də ikinci plana keçir. Mən hesab edirəm ki, bu, müsbət amildir. Çünki reallıqları əsas götürmək lazımdır, reallıqları isə siyasətçilər öz fəaliyyətləri ilə yaradırlar. Düşünürəm ki, bu gün bizim regionda regionun gündəliyini müəyyən edən, əməkdaşlığa istiqamətlənən aparıcı siyasi xadimlər arasında çox müsbət əməkdaşlıq formatı yaranır. Çünki bu gün Türkiyə, İran, Rusiya və Azərbaycan arasında həm üçtərəfli, həm də ikitərəfli formatlarda fəal əməkdaşlıqdan danışmaq olar. Bizim üçtərəfli formatımız mövcuddur. Düşünürəm ki, gün gələcək, biz artıq dördtərəfli formatda da fəaliyyət göstərəcəyik. Bu, həm tarixi, həm iqtisadi, həm nəqliyyat, həm geosiyasi və ən başlıcası, bu regionda təhlükəsizliyin möhkəmləndirilməsi baxımından təbii olacaq. Buna görə Ermənistan bundan sonra da Qafqazın bədənində yad cisim kimi qalmamalıdır. Ermənistan buraya onsuz da hamıdan sonra gəlib və erməni dövləti onlara tarixən heç vaxt məxsus olmadıqları torpaqlarda süni şəkildə yaradılıb. Mən Azərbaycan Xalq Cümhuriyyətinin İrəvanı Ermənistana necə verməsini dəfələrlə demişəm. Bu, tarixi faktdır. 1918-ci il mayın 29-da, Cümhuriyyətin yaranması elan ediləndən bir gün sonra İrəvan verilib. Özü də müzakirələr zamanı qanunverici orqanının İrəvandan olan deputatları bunun əleyhinə idilər, lakin onların fikrini heç kim nəzərə almadı. Bax, beləcə İrəvanı götürüb veriblər. Buna görə də, necə deyərlər, olan olub, keçən keçib. İndi Ermənistan yad cisim olmamalı və işğala son qoymalı, Azərbaycan ilə, Türkiyə ilə münasibətləri normallaşdırmalıdır. Bu, onlara yalnız fayda gətirə bilər, başa düşürsünüzmü, yalnız fayda. Bütün kommunikasiyalar açılacaq, onlar inteqrasiyalı enerji, nəqliyyat layihələrinin bir hissəsi, ümumi təhlükəsizlik sisteminin bir hissəsi olacaqlar. Baxın, bu gün Türkiyə Rusiyadan S-400 zenit-raket komplekslərini alır. Bu, tamamilə yeni təhlükəsizlik sistemidir. Bu, sadəcə, hava hücumundan müdafiə kompleksinin alınması deyil, yeni təhlükəsizlik, qarşılıqlı etimad sisteminə bir addım yaxınlaşmaqdır. Bunu qarşılıqlı etimad olmadan əldə etmək mümkün deyil. Biz Rusiyadan S-300-ləri çoxdan almışıq. Bu da qarşılıqlı etimad amilidir. Buna görə regionun belə konfiqurasiyası hamının xeyrinədir. Amma Ermənistan başa düşməlidir ki, o, artıq yolun kənarındadır. Artıq ondan ötrü heç kim vuruşmayacaq. Bəs sonra? Əgər o, bizimlə qarşıdurmaya davam edərsə, əgər bundan sonra da Türkiyəyə ərazi iddiaları irəli sürərsə, başa düşməlidir ki, bizim qarşımızda necə dura bilər. Lakin biz qarşıdurma istəmirik, biz sülh istəyirik, onların bizə və xalqımıza gətirdiyi bütün ağrı-acılara və faciələrə baxmayaraq. Buna görə də düşünürəm ki, geosiyasi reallıqlar müsbət istiqamətdə inkişaf etməlidir. Hər halda biz öz tərəfimizdən hər şeyi edəcəyik ki, bu, belə olsun.

***- Bütün suallarımıza ətraflı cavab verdiyinizə görə bir daha sağ olun.***

- Sağ olun.

# “Azərbaycan-İran dövlət sərhədi tam bərpa edilib”

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də İran İslam Respublikası Prezidentinin xüsusi nümayəndəsi, Xarici İşlər nazirinin müavini Seyid Abbas Əraqçinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**



AZƏRTAC xəbər verir ki, qonaqları salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- Xoş gəlmisiniz. Şadam sizi görməyimə.

Artıq bir aydır ki, müharibə gedir. Bizim xalqımız üçün bu, Vətən müharibəsidir. Biz torpaqlarımızı işğalçılardan azad edirik. Bu, beynəlxalq hüququn və tarixi ədalətin bərpasıdır.

Bu gün bir neçə kənd işğalçılardan azad edildi. Ancaq Ermənistan namərd hücumlarla bizim mülki vətəndaşlarımızı hədəfə alıb. Bir neçə saat bundan əvvəl Bərdəyə bir neçə raketlə atəş açmışdır və bu atəş nəticəsində 21 nəfər mülki şəxs həlak oldu, 70-dən çox dinc insan yaralandı. Ölənlərin sayı arta bilər.

Dünən də Ermənistan Bərdəyə, yenə də mülki əhaliyə zərbə vurmuşdur. Bu zərbə nəticəsində dörd nəfər həlak oldu, onlardan biri yeddi yaşlı qız uşağıdır. Döyüş meydanında qabağımızda dura bilməyən Ermənistan bax, belə əxlaqsız addımlarla bizə zərbə vurmaq istəyir, bizi durdurmaq istəyir. Amma buna nail ola bilməyəcək. Bir də ki, üçüncü dəfə elan olunmuş və Ermənistanın xahişi ilə razılaşdırılmış atəşkəsi kobudcasına pozur. Birinci dəfə oktyabrın 10-da Moskvada o məlum bəyannamə qəbul olunandan sonra bir gün keçməmiş Ermənistan öz ərazisindən ballistik raketlərlə Gəncə şəhərini atəşə tutmuşdur. Hər kəs bilir ki, bu atəşkəsi Ermənistan pozub, bu dəfə də Ermənistan pozub. İndi işğaldan azad edilmiş şəhər və kəndlərimizdə mövcud olan vəziyyət tam aydındır. Demək olar ki, bütün şəhər və kəndlərimiz dağıdılıb. Qəbirlər, tarixi abidələr, bütün binalar dağıdılıb. Elə bil ki, vəhşi qəbilə bu torpaqları işğal altında saxlayıb. Bizim məscidlərimiz ermənilər tərəfindən dağıdılıb və təhqir edilib. Zəngilan rayonunda ermənilər tərəfindən dağıdılmış məsciddə onlar donuz saxlayırdılar. Bu kadrlar internetdə var. Bütün dünya, bütün müsəlman aləmi görür ki, biz hansı vəhşilərlə mübarizə aparırıq. Amma bir daha demək istəyirəm ki, bizi heç nə durdura bilməz. Əgər Ermənistan öz xoşu ilə işğal edilmiş qalan torpaqlardan çıxmasa, onları oradan da qovacağıq.

Məmnunluq hissi ilə deyə bilərəm ki, Azərbaycan-İran dövlət sərhədi tam bərpa edilib. Bu münasibətlə mən Azərbaycan və İran xalqlarını təbrik etmişəm. Göstəriş vermişəm ki, bizim sərhəd xidmətimiz tezliklə bu sərhədin bütün mühafizə infrastrukturunu yaratsın. Bu işlərə start verildi. İran-Azərbaycan sərhədinin digər istiqamətlərindəki kimi, bu istiqamət də dostluq, qardaşlıq sərhədi olacaqdır.

Bildiyiniz kimi, bir neçə il bundan əvvəl Xudafərin və Qız qalası hidroqovşaqları və su anbarları haqqında İran-Azərbaycan müqaviləsi imzalanmışdır. Mən indi hökumətə göstəriş vermişəm ki, biz tərəfdən işçi qrup yaradılsın. Mən xahiş edirəm ki, İran tərəfindən də müvafiq qurum təhkim edilsin ki, tezliklə bu məsələləri müzakirə edək və bu obyektin birgə istismarı haqqında razılığa gələk.

Xahiş edirəm ki, hörmətli cənab Prezident Həsən Ruhaniyə mənim təşəkkürümü çatdırın. O, bu müddət ərzində mənə telefonla zəng etmişdi. Bizim çox yaxşı söhbətimiz olub. Sizi də Azərbaycana ezam edib, biz bunu yüksək qiymətləndiririk. İran-Azərbaycan əlaqələri son illər ərzində çox sürətlə inkişaf edib və hesab edirəm ki, tarixdə ən yüksək səviyyəyə qalxıb. İmzalanmış bütün sənədlər və əldə edilmiş razılaşmalar icra olunur. Bizim möhkəm tarixi köklər üzərində qurulmuş əlaqələrimiz əminəm ki, gələcəkdə də uğurla inkişaf edəcək. Bir daha xoş gəlmisiniz.

Seyid **Abbas ƏRAQÇİ** dedi:

- Cənab Prezident, mənə vaxt ayırdığınıza görə çox təşəkkür edirəm.

Hər şeydən əvvəl bu gün Bərdə şəhərinin raket hücumuna məruz qalması ilə əlaqədar həyatını itirmiş mülki insanlara, dinc insanların ölümünə səbəb olmuş bu hadisə ilə əlaqədar, orada şəhid olmuş insanlarla əlaqədar Sizə, Azərbaycan xalqına, Azərbaycan dövlətinə başsağlığı vermək istəyirəm. Siz də yaxşı bilirsiniz ki, İran İslam Respublikası elə ilk günlərdən Azərbaycanın ərazilərinin işğal olunmasına müxalif olub və Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib. Mən özümə borc bilirəm, son günlərdə Azərbaycan Ordusunun döyüş meydanında əldə etdiyi qələbələr, işğal olunmuş ərazilərin bir hissəsinin azad edilməsi münasibətilə Sizi təbrik etmək istəyirəm. Bu yolda öz canını fəda edən bütün şəhidlər qarşısında baş əyirəm.

Cənab doktor Həsən Ruhaninin isti salamlarını Sizə çatdırıram.

Prezident İlham Əliyev İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İranın dövlət başçısına çatdırmağı xahiş etdi.

# “Azərbaycanın dinc mülki əhalisinə hər hücum Ermənistanın ağlını itirmiş hərbi-siyasi rəhbərliyinin total mənəvi tənəzzülünə dəlalət edir”

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Ermənistan silahlı qüvvələrinin Bərdəyə növbəti dəfə raket hücumu ilə əlaqədar rəsmi “Instagram” səhifəsində paylaşım edib.**



AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:

“Bu gün Ermənistan silahlı qüvvələri dinc Azərbaycan şəhəri Bərdəyə növbəti dəfə qəddarcasına, qeyri-insani zərbə endiriblər.

Zərbə nəticəsində 21 nəfər həlak olub, 70 nəfər ciddi xəsarət alıb. Təəssüf ki, qurbanların sayı artmaqda davam edir.

Bu cür vəhşicəsinə hücumlar onu göstərir ki, ermənilərin qəddarlığının həddi yoxdur.

Üstəlik, Azərbaycanın dinc mülki əhalisinə hər hücum Ermənistanın ağlını itirmiş hərbi-siyasi rəhbərliyinin total mənəvi tənəzzülünə dəlalət edir.

Bu hücumların məqsədi aydındır - Azərbaycan xalqını qorxutmaq və bizim ordumuzu Ermənistan ərazisinə cavab zərbəsi endirməyə məcbur etmək. Bu, üçüncü tərəfləri münaqişəyə cəlb etməyə imkan verərdi.

Lakin düşmənimiz bilməlidir ki, heç nə bizi haqq yolundan dönməyə məcbur edə bilməz. Hər hücum bizi daha da güclü edir və işğal olunmuş ərazilərimizin erməni təcavüzkarlardan azad edilməsi kimi müqəddəs missiyanı başa çatdırmağın zəruri olmasına inandırır.

Həlak olanların ailələrinə dərin hüznlə başsağlığı verir və yaralananların tezliklə sağalmalarını arzulayıram.

Azərbaycan Ordusu düşməni döyüş meydanında sıxışdırdığı bu günlərdə biz həmrəyliyimizi qoruyub saxlamalı və Prezidentimizin ətrafında möhkəm birləşməliyik.

Yalnız möhkəm yumruq kimi birləşməklə ədalətin zəfər çalmasına nail olacağıq, ona görə ki, Qarabağ Azərbaycandır!

Uca Tanrı Vətənimizi və Azərbaycan xalqını qorusun!”

# “Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 12 sentyabr tarixli 336 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

“Sanitariya-epidemioloji salamatlıq haqqında” Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 fevral tarixli 73-1 nömrəli Qərarı ilə təsdiq edilmiş “Yoluxucu, parazitar və kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları”na əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 12 sentyabr tarixli 336 nömrəli Qərarında aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.1.2-1-ci yarımbəndə “Lənkəran rayonunun” sözlərindən əvvəl “Lənkəran şəhərinə,” sözləri, “Zaqatala” sözündən sonra “, Cəlilabad, Masallı” sözləri əlavə edilsin;

1.2. 1.1.15-ci yarımbəndə “Zaqatala” sözündən sonra “, Cəlilabad, Masallı” sözləri əlavə edilsin.

2. Bu Qərar 2020-ci il 29 oktyabr saat 00:00-dan qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş Naziri***

*Bakı şəhəri, 28 oktyabr 2020-ci il*

# *Hikmət HACIYEV:* “Döyüş meydanında məğlubiyyətə uğrayan Ermənistan qisasını mülki insanlardan almağa çalışır”

**“Ermənistan Azərbaycanın mülki əhalisinə qarşı hücumları davam etdirsə, biz mülki əhalimizin təhlükəsizliyini təmin etmək üçün bütün lazımi tədbirləri görəcəyik”.**



AZƏRTAC xəbər verir ki, bunu Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev oktyabrın 28-də ADA Universitetində səfirlər üçün keçirilən brifinqdə deyib.

Prezidentin köməkçisi qeyd edib ki, Azərbaycan heç bir şəkildə mülki əhalini və obyektləri hədəfə almır. Döyüş meydanında məğlubiyyətə uğrayan Ermənistan isə qisasını mülki insanlardan almağa çalışır. Lakin Ermənistan tərəfi bu hücumlarını davam etdirərsə, biz mülki vətəndaşlarımızın təhlükəsizliyini təmin etmək üçün lazımi tədbirlər görəcəyik.

❖ ❖ ❖

“Ermənistanın işğalçılıq siyasətinin məqsədlərindən biri də qəsdən Azərbaycan xalqının milli irsinin dağıdılmasıdır. Buna etnik və mədəni təmizləmə demək olar. Bunlar müharibə cinayətləridir və insanlıq əleyhinə atılan addımlardır. Ermənistan tərəfindən Azərbaycan xalqına qarşı həyata keçirilən mədəni soyqırımı Azərbaycan mədəniyyətinə, ümumiyyətlə, dünya mədəniyyəti abidələrinə qarşı edilən hücumlardır”.

AZƏRTAC xəbər verir ki, bu fikirləri oktyabrın 28-də ADA Universitetində səfirlər üçün keçirilən brifinqdə Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Hikmət Hacıyev deyib ki, beynəlxalq humanitar hüquqda birmənalı olaraq silahlı münaqişələr zamanı mədəni irsin qorunması ilə bağlı konkret müddəalar var və Ermənistan tərəfindən bu müddəaların pozulmasının da şahidi oluruq. Ermənistan “Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında” 1954-cü il tarixli Konvensiyanı və ona əlavə edilmiş Protokolu, digər müvafiq sənədləri kobud şəkildə pozur. Ümumiyyətlə, biz Ermənistan tərəfindən vandalizm hərəkətlərini görürük. Bununla yanaşı, Ermənistan tərəfindən insan hüquqlarının pozulmasını da müşahidə edirik.

❖ ❖ ❖

“Ermənistan silahlı qüvvələrinin Azərbaycanın dinc yaşayış məntəqələrinə hərbi təcavüzü davam edir”.

AZƏRTAC xəbər verir ki, bunu oktyabrın 28-də ADA Universitetində səfirlər üçün keçirilən brifinqdə Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Prezidentin köməkçisi deyib ki, Ermənistan hərbi birləşmələri Azərbaycanın Gəncə şəhərində, Bərdə və digər rayonlarında dinc sakinləri atəşə tutur. Dünən Bərdəyə atılan raket nəticəsində biri uşaq olmaqla 4 nəfər həlak olub, 14 nəfər mülki şəxs yaralanıb. Bu gün Ermənistanın daha bir terrorunun şahidi olduq. Onlar Bərdədə dinc sakinləri yenidən atəşə tutublar. Əsasən şəhərin mərkəzinə raket zərbələri endirilib, ölən və yaralananlar var. Bu dünya bəşəriyyətinə qarşı atılan addımdır.

Hikmət Hacıyev bildirib ki, Ermənistan tərəfi, həmçinin dünyanın mədəni irsinə də təcavüz edir. Beynəlxalq humanitar hüququn normalarında da birmənalı olaraq mədəni irsin qorunmasına dair müddəalar var. Ermənistan bu müddəaları da pozur. Biz, ümumiyyətlə, mədəni irsə qəsdin şahidi oluruq. Ermənistanın davam edən təcavüzkarlığı insanlara dünyasını dəyişən qohumlarının məzarlarını ziyarət etməyə də imkan vermir. Qəbiristanlıqlar, qəbirüstü abidələr atəşə tutulur, dağıdılır. Ermənistan işğal olunan ərazilərdə də mədəni, dini abidələri məhv edib. Şuşadakı məscidin dağıdılması bunun bariz nümunəsidir. Müqəddəs məbədlərdə mal-qara saxlayan Ermənistan təkcə insanlara deyil, həm də mədəni irsə təcavüz edir. Münaqişə başlayandan indiyə kimi Azərbaycan UNESKO-nun mədəni abidələrinin qorunması müddəalarına əməl edir. Mədəni abidələrin qəsdən dağıdılması cinayətdir. Hazırda Azərbaycan Silahlı Qüvvələri sülhməramlı niyyətini həyata keçirir, sülhün bərqərar olunmasını istəyir. Ermənistan isə təcavüzünü davam etdirir. Füzuli, Cəbrayıl, Zəngilan və işğaldan azad olunmuş digər ərazilərdə biz bu faktların şahidi olmuşuq. Dini abidələrdə mal-qara saxlamaq da bir qəsddir.

Prezidentin köməkçisi bildirib ki, Gəncə şəhərindəki məbəd də Ermənistan tərəfindən dağıntıya məruz qalıb. Bunu təəssüf hissi ilə qeyd edirik və dünya ictimaiyyətinin diqqətinə çatdırırıq. Azərbaycan tərəfindən heç bir mədəni abidə dağıdılmayıb. Əksinə, həmin abidələrin qorunması üçün əlimizdən gələni əsirgəmirik. Əgər bu, davam edərsə, Ermənistan daha çox abidənin dağıdılmasına səbəb olacaq.

# İran Prezidentinin xüsusi elçisi Ermənistanın Azərbaycana qarşı hərbi təxribatları barədə məlumatlandırılıb

Oktyabrın 28-də Azərbaycan Respublikasının Xarici İşlər naziri Ceyhun Bayramov İran İslam Respublikasının Xarici İşlər nazirinin müavini və İran İslam Respublikasının Prezidentinin xüsusi elçisi Seyid Abbas Əraqçi ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə tərəflər Azərbaycan ilə İran arasında mövcud olan yüksək səviyyəli əməkdaşlığı vurğulayıb, gələcəkdə bu münasibətlərin daha da inkişaf edəcəyinə əminliklərini bildiriblər.

Tərəflər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, onun nəticələri və regionda baş verən son gərginliyi ətraflı şəkildə müzakirə ediblər.

Nazir Ceyhun Bayramov bölgədəki son gərginlik, Ermənistan rəhbərliyinin hərbi təxribatları, Ermənistan baş nazirinin bölgədə gərginliyin artırılması məqsədini güdən, münaqişənin danışıqlar yolu ilə həllinə xələl gətirən məsuliyyətsiz bəyanatları və addımları barədə İran Prezidentinin xüsusi elçisinə məlumat verib. Nazir Azərbaycanın Silahlı Qüvvələrinin özünümüdafiə hüququ çərçivəsində və Azərbaycanın mülki əhalisini qorumaq məqsədilə əkshəmlə tədbirləri həyata keçirdiyini bildirib.

Nazir Ceyhun Bayramov xüsusi olaraq vurğulayıb ki, Ermənistan beynəlxalq humanitar hüququ kobud şəkildə pozur və Azərbaycan əhalisini məqsədyönlü şəkildə hədəfə alır. O, münaqişə zonasından uzaq məsafədə yerləşən Gəncə, Mingəçevir, Bərdə və digər şəhərlərin, uşaq və qadınlar da daxil olmaqla günahsız mülki əhalinin Ermənistan silahlı qüvvələri tərəfindən xaincəsinə atəşə tutulduğunu qeyd edib.

Nazir Prezident İlham Əliyev tərəfindən dəfələrlə bildirildiyi kimi, ölkəmizin başlıca məqsədinin xarici silahlı qüvvələrin Azərbaycanın suveren torpaqlarından çıxarılması və Azərbaycanın ərazi bütövlüyünün onun beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində bərpa edilməsi olduğunu vurğulayıb.

Xüsusi elçi Seyid Abbas Əraqçi münaqişənin beynəlxalq hüququn norma və prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə həllinə dair İranın rəsmi mövqeyini bir daha diqqətə çatdırıb, mülki şəxslərin həyatını itirməsi ilə bağlı başsağlığını ifadə edib.

Nazir Ceyhun Bayramov İranın Azərbaycanın ərazi bütövlüyünə göstərdiyi dəstəyə görə həmsöhbətinə minnətdarlığını bildirib.

Görüşdə həmçinin tərəflər qarşılıqlı maraq və narahatlıq doğuran məsələləri müzakirə ediblər.

# Qarabağ münaqişəsinə qədər dövlət qeydiyyatına alınan 700-dən artıq tarix və mədəniyyət abidəsi erməni vandalizminin qurbanına çevrilib

“Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində işğal edilmiş ərazilərdə yerləşən yaşayış evləri, təhsil, sənaye və kənd təsərrüfatı obyektləri ilə yanaşı, yüzlərlə mədəniyyət müəssisəsi, o cümlədən 4,6 milyon kitab fondu olan 927 kitabxana, 808 mədəniyyət sarayı, klub və mədəniyyət evi, 85 musiqi və rəssamlıq məktəbi, 100 mindən artıq eksponatın toplandığı 22 muzey və muzey filialı, 4 rəsm qalereyası, 4 teatr müəssisəsi, 2 konsert müəssisəsi, 8 mədəniyyət və istirahət parkı, Qarabağ münaqişəsinə qədər dövlət qeydiyyatına alınan 700-dən artıq tarix və mədəniyyət abidəsi erməni vandalizminin qurbanına çevrilib”.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Mədəniyyət nazirinin birinci müavini, Mədəniyyət nazirinin vəzifələrini icra edən Anar Kərimov bildirib.

Anar Kərimov deyib: “O cümlədən Cəbrayıl rayonunda 11 və 15 aşırımlı Xudafərin körpüləri (VII-XII əsrlər), Kəlbəcər rayonunda Gəncəsar və Xudavənd məbədləri (XIII əsr), Ağdam rayonunun Xaçın Türbətli kəndində məqbərə (XIV əsr), Füzuli rayonu ərazisində dünyanın ən qədim sakinlərinin yaşayış məskənlərindən biri - Azıx mağarası, Şuşa Dövlət Tarix-Memarlıq Qoruğu erməni vandalizminin qurbanına çevrilib.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş Dağlıq Qarabağ və ətraf 7 rayonda 706-sı dövlət qeydiyyatında olmaqla 2600-dən çox (2625 ədəd) tarix və mədəniyyət abidəsi var. Dövlət qeydiyyatına alınan abidələrdən 6-sı dünya əhəmiyyətli memarlıq, 5-i dünya əhəmiyyətli arxeoloji, 119-u ölkə əhəmiyyətli memarlıq, 121-i ölkə əhəmiyyətli arxeoloji, 393-ü yerli əhəmiyyətli memarlıq, 23-ü yerli əhəmiyyətli bağ-park, monumental və xatirə, 22-si yerli əhəmiyyətli arxeoloji abidələr, 17-si dekorativ-tətbiqi sənət nümunələridir”.

❖ ❖ ❖

“Dağlıq Qarabağda Azərbaycan icmasının əsrlərlə yaşamasına dəlalət edən tarixi abidələrin dağıdılması bu izləri itirmək, azərbaycanlıların mədəni kimliyinin itirilməsi məqsədi güdür”.

AZƏRTAC xəbər verir ki, bu fikirləri oktyabrın 28-də ADA Universitetində səfirlər üçün keçirilən brifinqdə Azərbaycan Respublikası Mədəniyyət nazirinin birinci müavini, Mədəniyyət nazirinin vəzifələrini icra edən Anar Kərimov deyib.

Onun sözlərinə görə, 1990-cı illərin əvvəllərində işğal edilmiş ərazilərimizdə 2625 abidə qeydə alınmışdı. Onların 706-sı dövlət tərəfindən mühafizə edilib. Xüsusi əhəmiyyətə malik olan bu mədəni tarixi abidələrin 11-i beynəlxalq əhəmiyyət, 240-ı ölkə əhəmiyyətli, 455 lokal əhəmiyyətlidir: “XX əsrin əvvəllərində İrəvan quberniyası ərazisində 300 məscid qeydə alındığı halda, bu gün Ermənistan ərazisində yalnız bir məscid - Göy məscid qismən salamat qalmışdır ki, bunu da gözə qum atmaq üçün istifadə edirlər”.

❖ ❖ ❖

“Ermənilərin işğal edilmiş ərazilərimizdəki tarixi abidələrin təyinatının dəyişdirilməsi haqqında faktlar var”.

AZƏRTAC xəbər verir ki, bu fikirləri oktyabrın 28-də ADA Universitetində səfirlər üçün keçirilən brifinqdə Azərbaycan Mədəniyyət nazirinin birinci müavini, Mədəniyyət nazirinin vəzifələrini icra edən Anar Kərimov deyib.

Zəngilandakı məsciddən tövlə kimi istifadə edilməsinin beynəlxalq normaların pozulması ilə yanaşı, müsəlman, islam dünyası üçün təhqir olduğunu söyləyən A.Kərimov deyib: “Bu, vandalizm aktıdır. Ümid edirik ki, beynəlxalq təşkilatlar tərəfindən bu fakt lazımınca pislənəcək və qiymət veriləcək. Ümid edirik ki, beynəlxalq təşkilatlar Ermənistanı tarixi abidələri nişan alıb məhv etməsini dayandırmağa çağıracaq”.

❖ ❖ ❖

“Təəssüf ki, ermənilər tərəfindən işğal olunmuş ərazilərimizdə muzeylərimizin mülkiyyətində olan əlyazmalar və digər vacib sənədlər yox edilib və yaxud onlar oğurlanaraq qara bazarlarda satışa çıxarılıb”.

AZƏRTAC xəbər verir ki, bu fikirləri oktyabrın 28-də ADA Universitetində səfirlər üçün keçirilən brifinqdə Azərbaycan Mədəniyyət nazirinin birinci müavini, Mədəniyyət nazirinin vəzifələrini icra edən Anar Kərimov bildirib.

Həmin sənədlərlə bağlı monitorinqin aparıldığını söyləyən A.Kərimov deyib: “Bu sənədlərin necə geri gətirəcəyimizlə bağlı ictimaiyyət qarşısında məsələ qaldıracağıq. Bura dəyərli eksponatlar, xalçalarımız daxildir. Biz bəzi hərraclarda dəyərli xalçalarımızı tapmışıq. Həmin xalçaları və dəyərli eksponatları ölkəmizə qaytarmağa davam edəcəyik. İşğaldan azad olunan ərazilərdə muzeylərimizi də bərpa etməyə çalışacağıq”.

# Azərbaycanın Xarici İşlər naziri ilə ABŞ-ın Dövlət katibinin müavini, Böyük Britaniyanın Avropa Qonşuluğu və Amerikalar üzrə Dövlət Naziri, İsveçrənin Federal Xarici İşlər Departamentinin rəhbəri və ATƏT-in Minsk qrupunun həmsədrləri arasında telefon danışığı olub



**Oktyabrın 28-də Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov ilə ABŞ Dövlət katibinin müavini Stiven Biqan arasında telefon danışığı olub.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, telefon danışığı zamanı nazir Ceyhun Bayramov Ermənistan tərəfinin beynəlxalq humanitar hüquq qarşısındakı öhdəliklərini kobud şəkildə pozaraq, razılaşdırılmış humanitar atəşkəs rejiminə üçüncü dəfə riayət etmədiyini, eyni zamanda, Bərdə şəhərində dinc Azərbaycan əhalisini qəsdən hədəfə aldığını vurğulayıb. Nazir münaqişə zonasından çox uzaqda yerləşən şəhərlərin uşaqlar və qadınlar da daxil olmaqla, günahsız mülki əhalinin Vaşinqton görüşündən sonra və nəzərdə tutulan Cenevrə danışıqları ərəfəsində Ermənistan silahlı qüvvələri tərəfindən dəfələrlə hücumlara məruz qaldığını qeyd edib. Ceyhun Bayramov, həmçinin həmsöhbətinə Ermənistan tərəfindən xaincəsinə edilən raket hücumu nəticəsində mülki şəxslər arasında itkilər barədə məlumat verib.

ABŞ dövlət katibinin müavini Stiven Biqan mülki itkilərdən ciddi narahatlığını dilə gətirib, mülki şəxslərə qarşı hücumların yolverilməz olduğunu bildirib. O, gərginliyin azaldılması və münaqişənin siyasi həllinə nail olmaq üçün tərəflərin müvafiq addımlar atmasının vacibliyini vurğulayıb.

❖ ❖ ❖

Oktyabrın 28-də Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramovun Böyük Britaniyanın Avropa Qonşuluğu və Amerikalar üzrə Dövlət Naziri Vendi Morton ilə telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, nazir Ceyhun Bayramov həmsöhbətinə Ermənistan silahlı qüvvələrinin üçüncü dəfə razılaşdırılmış humanitar atəşkəs rejimini və beynəlxalq humanitar hüquq normalarını kobud şəkildə pozaraq mülki Azərbaycan əhalisini qəsdən hədəfə aldığını bildirib. Ermənistanın münaqişə zonasından çox uzaqda yerləşən Bərdə şəhərinə raket hücumlarının müharibə və insanlığa qarşı cinayət olduğunu bildirib. Nazir Azərbaycanın dinc əhalisinə qarşı törədilən qəddar hücumlara görə bütün məsuliyyəti Ermənistan rəhbərliyinin daşıdığını vurğulayıb.

Nazir Vendi Morton öz növbəsində mülki insan tələfatı ilə bağlı ciddi narahatlığını ifadə edib və mülki şəxslərə qarşı hücumların yolverilməz olduğunu bildirib. O, bölgədəki gərginliyin azaldılmasının vacibliyini vurğulayıb.

❖ ❖ ❖

Oktyabrın 28-də Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov və İsveçrənin Federal Xarici İşlər Departamentinin rəhbəri İqnasio Kassis arasında telefon danışığı baş tutub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, telefon danışığı zamanı nazir Ceyhun Bayramov Ermənistanın təcavüzkar siyasəti, bölgədəki ən son yüksək gərginlik, Bərdə şəhəri də daxil olmaqla, Ermənistanın cəbhə bölgəsindən aralıda yerləşən və heç bir hərbi hədəf əlamətləri olmayan, mülki əhalinin sıx məskunlaşdığı əraziləri atəşə tutması barədə həmkarını məlumatlandırıb.

O, günahsız mülki əhalinin atəşə tutulmasının müharibə cinayətləri olduğuna diqqət çəkib. Nazir Ceyhun Bayramov, habelə həmkarına Ermənistan tərəfindən xaincəsinə edilən raket hücumları nəticəsində mülki şəxslər arasında olan itkilər barədə məlumat verib.

İqnasio Kassis, öz növbəsində, mülki şəxslərə qarşı hücumlarla bağlı narahatlığını ifadə edib. O, İsveçrənin Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsinə dair mövqeyini bir daha təkrar edib. İqnasio Kassis münaqişənin sülh yolu ilə həlli ilə bağlı rolu olacağı təqdirdə, ölkəsinin yardım etməyə hazır olduğunu qeyd edib.

❖ ❖ ❖

Oktyabrın 28-də Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramovun ATƏT-in Minsk qrupunun həmsədrləri İqor Popov (Rusiya), Endryu Şofer (ABŞ) və Stefan Viskonti (Fransa) ilə telefon danışıqları olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, nazir Ceyhun Bayramov həmsədrlərə Ermənistan silahlı qüvvələri tərəfindən humanitar atəşkəsin bir daha kobud şəkildə pozulması barədə məlumat verib. O, oktyabrın 27-28-də Bərdə şəhərində dinc Azərbaycan əhalisinin məqsədyönlü şəkildə hədəf alındığını vurğulayıb. Nazir Ermənistan silahlı qüvvələrinin münaqişə bölgəsindən uzaqda yerləşən şəhərlərdəki günahsız mülki şəxslərə, o cümlədən uşaqlara və qadınlara xaincəsinə hücum etdiyini bildirib. Nazir, həmçinin həmsədrlərə Ermənistan tərəfindən növbəti dəfə törədilən müharibə cinayəti nəticəsində mülki əhali arasında ağır tələfat barədə məlumat verib.

Ceyhun Bayramov həmsədrləri Azərbaycan mülki vətəndaşlarına qarşı bu qeyri-insani hərəkətləri pisləməyə çağırıb.

ATƏT-in Minsk qrupunun həmsədrləri mülki şəxslərin həyatını itirməsi ilə bağlı narahatlıqlarını bildiriblər. Onlar bölgədəki gərginliyin azaldılması və münaqişənin sülh yolu ilə həllinin vacibliyini vurğulayıblar.

# Ali Baş Komandan tarixi ədaləti uğurla və qətiyyətlə bərpa edir

**"Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyət, iradə, əzm, milli ruh və yüksək idarəçilik dəyərləri və rəhbərliyi, xalqımızın vətənpərvərlik duyğularının birgə həmrəyliyi ilə Azərbaycan Ordusu tarixinin ən şanlı və şərəfli qələbəsini qazanmaqdadır. Nəsillərdən bizə miras qalan ən ülvi hisslərimizlə qələbə dəyərlərini gələcək nəsillərə daşıyırıq".**



AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri Məhərrəm Əliyevin "Müzəffər Ali Baş Komandan tarixi ədaləti uğurla və qətiyyətlə bərpa edir" sərlövhəli məqaləsində yer alıb. Məqaləni təqdim edirik.

Sentyabrın 27-də Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək dinc sakinlərimizin qətlinə yönəlmiş məqsədlə bizim yaşayış məntəqələrimizi, eyni zamanda, hərbi mövqelərimizi atəşə tutması, düşmən ordusunun açıq-aşkar yeni ərazi iddialarının və havadarlarına böyük etiqad və inamla regionda münaqişənin daha da gərginləşdirilməsi niyyətlərinin riyakar nümunəsidir. Azərbaycanın region və dünyada xüsusi əhəmiyyət və sürətlə artan nüfuzu, beynəlxalq təşkilatlarda həmsədrlik, söz haqqının olması, həyata keçirilən strateji layihələrlə ölkəmizin dünya iqtisadiyyatına verdiyi töhfələr düşməndə qıcıq və qısqanclıq yaratması, özünün müqayisəolunmaz dərəcədə bütün sahələrdə geriləməsinin nəticəsidir və təzahürüdür.

Milli Ordumuz sahib olduğu qətiyyət sayəsində Ermənistan silahlı qüvvələrinin döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə bütün cəbhəboyu əkshücum əməliyyatı başlaması ordumuzun çeviklik və peşəkarlıq səviyyəsinin çox yüksək olmasını nəinki düşmənə bütün dünyaya nümayiş etdirdi. Qısa zamanda əldə olunan nailiyyətlər peşəkar idarəçilik, döyüş hazırlığının və hərbi vətənpərvərlik ruhunun daima yüksək olması şəxsi heyətin uğurla irəliləyərək Ermənistan silahlı qüvvələrinin ön xətdə və müdafiənin dərinliyində yerləşən xeyli sayda canlı qüvvəsi, hərbi obyektləri və döyüş texnikalarının aşkar edilərək məhv edilməsi və onların hərəkət trayektoriyasına nəzarət aparılmasına imkan verir. Azərbaycanın dünya miqyasında 50 ən güclü orduya sahib dövlətlərin siyahısında olması bizi çox qürurlandırır və yalnız qələbə ümidlərini yaşadır!

Hər bir Azərbaycan vətəndaşı artıq əmindir ki, hazırkı mürəkkəb tarixi şəraitdə ölkəmizin ərazi bütövlüyünün bərpası Ali Baş Komandanın güclü siyasəti və iradəsi, ordumuzun əzmi və qətiyyəti, xalqımızın həmrəyliyi sayəsində mümkündür.

## Vətən çağırışına olan mənəvi səfərbərliyimizin qarşısında düşmən tab gətirməyəcək!

İllərlə düşmən tapdağı altında olan torpaqlarımızın çağırışına canı, qanı, ruhu və bütün varlığı ilə irəliləyən hər bir azərbaycanlı igid oğullarımıza, bu müqəddəs çağırışa "canım fəda" deyib şəhidlik zirvəsinə ucalan övladlarımıza və onlarla birgə yetişən və yetişməkdə olan nəsillərimizə qələbə sevincimizi yaşatmaq qədər ülvi hissləri yaşadığımız üçün çox qürurluyuq. Torpaqlarımızı işğaldan azad etməklə nəinki ərazi bütövlüyümüzü təmin edirik, eyni zamanda, illərlə kimsəsiz qalan, təhqir olunan, dağıdılan, ancaq hər daşı bir tarix danışan abidələrimizi, irsimizi, dəyərlərimizi və ənənələrimizi millətimizə geri qaytarmış və yenidən qazanmış oluruq. Azərbaycan hər zaman dünyada sülhün, tolerantlıq və dialoqun, mədəniyyətlər və sivilizasiyalara xüsusi hörmət, ehtiram və qayğısı ilə seçilən öncül ölkələr siyahısındadır. Ancaq buna baxmayaraq, işğal altında olan torpaqlarımızda tarixi abidələrimiz, maddi-mənəvi irsimizin qəsdən və riyakarcasına dağıdılması və təhqir olunması beynəlxalq hüquq və ədalət prinsiplərinə sığmayan vandalizm aktının şahidi oluruq. İşğaldan azad olunan rayon və kəndlərimizdə abidələrimizi, səfalı guşələrimizi yararsız və dağıdılmış vəziyyətdə görmək çox ağrılıdır. Müharibə şəraitində belə sahib olduğu humanizm dəyərlərinə sadiq qalaraq mülki insanlara, tarixi-dini abidələrə, sosial-ictimai obyektlərin təhlükəsizliyinə xüsusi həssaslıq və diqqətlə yanaşan Ali Baş Komandanımızla hər birimiz qürur duyuruq.

## Hər bir şəhid olan hərbçi və mülki şəxslərimizin qisasını alacağıq!

Ermənistan hərbçilərinin hədəfinə çevrilmiş Azərbaycanın mülki əhalisinin raket və top atəşinə tutulması nəticəsində 69 nəfər həlak olmuş və 314 nəfər yaralanıb. Bu bir daha riyakar düşmənin hərb meydanında ağır məğlubiyyətinin nəticəsidir. Hərbçilərinin cəsədlərinin toplanmasına belə maraqlı olmayan düşmən ölkəsinin real siyasi, ictimai, sosial-iqtisadi vəziyyətinin necə olduğunu açıq-aşkar nümayiş etdirir. Düşmənin dünya ölkələrinə əsassız yalvarışları, müraciətləri nəticəsiz qaldığı halda Azərbaycan Ordusu cənab Ali Baş Komandanının güclü siyasəti və qətiyyətinə inanaraq, iradə və əzmi ilə zəfər çalır.

Prezident İlham Əliyev çıxışlarında da hər zaman xüsusi əhəmiyyətlə hərbi texnika və avadanlıqların istehsalı istiqamətində uğurlu inkişafı qeyd edərək daima yeni və strateji planların icrasını vurğulamışdır. Bütün həyata keçirilən fəaliyyət və uğurlu nəticələr bu gün ölkəmizin hərbi potensialının, döyüş qabiliyyətinin ən yüksək səviyyədə olduğunu bir daha nümayiş etdirir və ordumuzun potensialını, güc və peşəkarlığını sübut etdirir. Ölkəmizin hərb potensialı və resursunu düzgün qiymətləndirə bilməyən, statistik göstəriciləri analiz etmək qabiliyyətinə malik olmayan Ermənistan hökuməti və dövləti ölümə göndərdiyi minlərlə əsgərlərin ana-atalarına cavab verməli olacaq! Azərbaycan öz ərazi bütövlüyü və torpaqları uğrunda döyüşür və zəfər çalır ancaq Ermənistan acgöz və riyakarcasına yeni ərazi iddiaları ilə, terror planları və regionda sülh və ədalət prinsipləri pozmaq məqsədləri ilə vətəndaşlarını məcburi surətdə ölümə göndərir. Bu əlbəttə ki, təbii bir haldır ki, Azərbaycan əsgərinin mübarizə və hərbi vətənpərvərlik ruhu ermənilərlə müqayisə olunmayacaq dərəcədədir, çünki xalqımız bu günləri, zəfər anlarının həsrətini illərlə gözlədiyi halda ermənilər özgə torpaqlarda öz xoşbəxtliklərini qurmağa cəhd edirdilər. Hər vasitə ilə status-kvonu öz maraqlarına uyğun şəkildə saxlayaraq tarixi, əbədi-əzəli torpaqlarımızdan öz mənfur terror siyasəti, Avropa və Qara dəniz hövzəsi ölkələrinə, həmçinin digər dövlətlərə narkotik maddələrin daşınmasının həyata keçirilməsi, Dağlıq Qarabağ ərazisindən narkotik tranziti, narkotiklərin becərilməsi, satılması, terrorçuların yetişdirilməsi üçün nəzarətsiz zona kimi istifadə edirdilər.

## Azərbaycan xalqı Ali Baş Komandanın qələbə müjdəsini hər an səbirsizliklə gözləyir

Artıq 30 gündür güclü Azərbaycan Ordusunun, rəşadətli əsgərlərimizin şücaəti nəticəsində cəbhədən sevindirici xəbərlər alırıq və bu xəbərlər Azərbaycan Prezidentinin şəxsən özünün xalqa müraciəti ilə çatdırılır. Ali Baş Komandanın hər zaman səsləndirdiyi kimi, "Bizim işimiz haqq işidir. Azərbaycan Ordusu hazırda öz torpaqları uğrunda döyüşür".

Vətən Müharibəsi Azərbaycan Ordusunun uğurları və şücaəti ilə davam edir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev hər gün cəbhədən aldığımız sevindirici xəbərlərlə, beynəlxalq KİV rəhbərlərinə verdiyi səlis və qətiyyətli müsahibələri ilə işğalçı Ermənistanı siyasi-diplomatik sferada da məğlubiyyətə uğradır.

## Xalqımız işğaldan azad olunmuş torpaqlara tezliklə qovuşacaq, həsrət sona çatacaq

Müzəffər Azərbaycan Ordusunun hər bir uğurlu əməliyyatı, xalqımızın qələbə ruhlu və qətiyyətli millət kimi dünya tarixinin heç zaman unudulmayacaq səhifələrinə həkk olunmasına səbəb oldu. Şanlı Ordumuz Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı şəhərlərini, bir çox kəndləri, qəsəbələri və eyni zamanda strateji yüksəklikləri işğaldan azad etməsini çox qürurverici həyəcan və sevinclə qarşıladıq. Azərbaycan xalqının həmrəylik nümayiş etdirərək Ali Baş Komandanın ətrafında sıx birləşməsi və yalnız qələbə ümidi ilə Azərbaycan Ordusuna dəstək olması həqiqətən çox həssas və qürurvericidir. Yaşlı bir azərbaycanlı nənənin nəvəsinə "Bala, bircə dənə də olsa erməni tankı vurmasan, geri gəlmə", şəhid ana-atalarımızın "Vətən sağ olsun" demələri, erməni terroru nəticəsində gecə vaxtı evləri dağıdılan mülki şəxslərin Şanlı Ordumuzu "İrəli - Qələbəyə doğru" səsləmələri, körpə balalarımızın gözündəki qisas və qələbə əzmi milli kimliyimizi özümüzə xatırlatdı, güclü millət olduğumuzu, dəyərlərimizə sahiblənməyi bacaran, torpaqları və ərazi bütövlüyü uğrunda qorxmadan həlak olmağı və öldürməyi bacaran məğrur və qalib millət olduğumuzu növbəti dəfə özümüzə və bütün dünyaya sübut etdi. Hər bir evdə, hər ocaqda hər qarış torpağımızda qalib Azərbaycan bayrağımız var. Bu əzmin, ruh yüksəkliyinin, iradə və qətiyyətin qarşısında heç bir düşmən dayana bilməyəcək!

Qarabağ uğrunda mübarizə bizim haqq və ədalət savaşımızdır. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

*Fuad ƏLƏSGƏROV:*

# "Azərbaycan Avropa Məhkəməsinə müraciət edərək, Ermənistan barəsində təminat tədbirlərinin tətbiq olunmasını tələb edib"



**Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov AZƏRTAC-a müsahibəsində Ermənistanın müharibə cinayətləri ilə bağlı Azərbaycan hökumətinin Avropa Məhkəməsinə müraciətini şərh edib. Müsahibəni təqdim edirik.**

***- Məlum olduğu kimi, Ermənistan tərəfi İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə şikayət göndərmiş və Azərbaycan Hökuməti, öz növbəsində, buna cavab vermişdir. Bu barədə məlumat verməyinizi xahiş edirik.***

- Bəli, artıq qeyd etdiyiniz kimi, Ermənistan Azərbaycana qarşı yeni təcavüz aktı törətdikdən dərhal sonra siyasi riyakarlıq nümayiş etdirərək İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə müraciət etmişdir. 2020-ci il sentyabrın 29-da İnsan Hüquqları üzrə Avropa Məhkəməsi Ermənistan hökumətinin müraciətinə cavab olaraq Məhkəmə Reqlamentinin 39-cu qaydası əsasında həm Ermənistanı, həm də Azərbaycanı mülki əhalinin Konvensiya hüquqlarının pozulmasına gətirib çıxara biləcək tədbirlərdən çəkinməyə və öz öhdəliklərinə riayət etmək üçün görülmüş tədbirlər barədə məlumat verməyə dəvət etmişdir.

Avropa Məhkəməsinin bu dəvəti ilə əlaqədar olaraq Azərbaycan Hökuməti 2020-ci il oktyabrın 13-də Məhkəməyə müvafiq məlumat təqdim etmişdir.

Məlumatda vurğulanır ki, 2020-ci il sentyabrın 27-də Ermənistanın Azərbaycana qarşı törətdiyi təcavüz aktına cavab olaraq Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən başlanmış əks-hücum əməliyyatının gedişi zamanı Azərbaycan Respublikası İnsan Hüquqlarına dair Avropa Konvensiyasına və beynəlxalq humanitar hüquqa əsasən öz üzərinə götürdüyü öhdəliklərə tam və qəti şəkildə riayət edir və heç bir formada mülki əhali və mülki obyektlər hədəfə alınmır.

Qeyd edilmişdir ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin bəyan etdiyi kimi, Azərbaycan Silahlı Qüvvələri təcavüzkar ordu və hərbi birləşmələrə qarşı əməliyyat keçirərək yalnız legitim hərbi obyektləri hədəfə alır. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi də bu istiqamətdə bəyanatlar vermişdir.

Eyni zamanda Avropa Məhkəməsinə Ermənistanın öz Konvensiya öhdəliklərinə əməl etməməsi, onun silahlı münaqişə başlayandan bu günədək Azərbaycana qarşı müharibə cinayətləri törətməsi və bunun nəticəsində onlarca mülki şəxsin həlak olması, yüzlərlə vətəndaşın yaralanması, minlərlə yaşayış binalarının, şəxsi evlərin və digər mülki obyektlərin yararsız vəziyyətə düşməsi barədə məlumat verilmişdir.

Avropa Məhkəməsinə təqdim edilmiş məlumata, həmçinin Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin Ermənistan tərəfindən beynəlxalq humanitar hüququn norma və prinsipləri, Cenevrə konvensiyaları, xüsusilə müharibə zamanı mülki əhalinin müdafiəsi haqqında 1949-cu il 12 avqust tarixli Konvensiya, BMT-nin Uşaq Hüquqları Konvensiyası və insan hüquqları sahəsində digər sənədlərin müddəalarının kobud şəkildə pozulması barədə hesabatları əlavə edilmişdir.

Azərbaycan tərəfi Avropa Məhkəməsinə bu məlumatı təqdim etməklə dövlətimizin beynəlxalq təşkilatların üzvü kimi öz beynəlxalq öhdəliklərinə tam riayət etdiyini, Ermənistanın isə Avropa Məhkəməsini öz siyasi oyunlarına alət etməkdən əl çəkmədiyini bir daha göstərmişdir.

***- Azərbaycan Hökuməti necə, Ermənistanla bağlı Avropa Məhkəməsinə müraciət edibmi?***

- 2020-ci il oktyabrın 27-də Azərbaycan Hökuməti Avropa Məhkəməsinə müraciət edərək, Ermənistan Respublikası barəsində təminat tədbirlərinin tətbiq edilməsini tələb etmişdir. Bu müraciət Ermənistanın şikayətindən fərqli olaraq ciddi xarakter daşıyır və Ermənistan tərəfindən Konvensiya öhdəliklərinin pozulması barədə kifayət qədər əsaslı sübutlara söykənir.

Müraciətdə Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən Azərbaycanın mülki əhalisinin sıx məskunlaşdığı şəhər və kəndlərin, habelə mülki infrastrukturun artilleriya atəşinə məruz qoyulduğu, bunun nəticəsində 69 vətəndaşımızın qətlə yetirildiyi, 326 mülki şəxsə xəsarət yetirildiyi, minlərlə yaşayış evlərinə və mənzillərə bərpaolunmaz ziyan vurulduğu, eyni zamanda, beynəlxalq neft boru kəməri, su kəməri, Mingəçevir su anbarı və digər iqtisadi infrastruktur obyektlərinin hədəfə alındığı göstərilmişdir. Bunlarla bağlı Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Ombudsmanı, Baş prokurorluğu, digər hüquq mühafizə və xüsusi xidmət orqanları tərəfindən toplanmış mötəbər sübutlar, foto və videomateriallar təqdim edilmişdir. Yeri gəlmişkən, məlumat verim ki, qeyd edilən faktlar üzrə Azərbaycan Respublikasının Baş prokurorluğu tərəfindən 43 cinayət işi başlanmışdır.

Ermənistan Respublikası, həmçinin öz silahlı qüvvələrini, hərbi texnikasını Azərbaycan ərazisinə göndərməklə, xarici ölkə vətəndaşlarını Azərbaycan ərazisində hərbi əməliyyatlarda iştiraka cəlb etməklə, Qarabağ ərazisindəki cinayətkar rejimə maliyyə, siyasi və digər yardım göstərməklə öz Konvensiya öhdəliklərini kobud şəkildə pozmaqdadır.

Bütün bunları nəzərə alaraq Azərbaycan Respublikası öz müraciətində Avropa Məhkəməsindən tələb etmişdir ki, Ermənistan öz ərazisindən və Azərbaycanın işğal olunmuş ərazilərindən Azərbaycanın yaşayış məntəqələrinin və mülki infrastrukturunun artilleriya atəşinə tutulmasının, işğal olunmuş ərazilərdə cinayətkar dəstələrə hərbi, siyasi, maliyyə və digər dəstək verilməsinin, silahlı qüvvələrinin, hərbi texnikasının və muzdluların Azərbaycan ərazisinə göndərilməsinin dərhal dayandırılması, öz silahlı qüvvələrinin Azərbaycan ərazisindən dərhal çıxarılması barədə təminat tədbirlərini müəyyən etsin.

Ümid edirik ki, Avropa Məhkəməsi Azərbaycanın müraciəti ilə bağlı ədalətli qərar qəbul edəcək. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin vurğuladığı kimi, ədalət və beynəlxalq hüquq bizim tərəfimizdədir! Biz zəfər çalacağıq!

# Bakı Beynəlxalq Enerji Xartiyası Forumu başa çatıb

Bakı Beynəlxalq Enerji Xartiyası Forumu 40-a yaxın ölkənin yüksək səviyyəli dövlət rəsmiləri, beynəlxalq təşkilat, enerji şirkətləri, maliyyə institutları, araşdırma mərkəzləri, eləcə də dövlət qurumlarının təmsilçiləri, ekspertlər və mediadan ibarət 190-dək nümayəndə ilə videokonfrans formatında baş tutub.

Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, "Enerji istehsalı, nəqliyyat, istilik və soyutma sahələrində bərpaolunan enerji mənbələrinə keçid: müasir çağırışlar və meyillər" mövzusuna həsr edilən forumda Energetika naziri Pərviz Şahbazov, Enerji Xartiyasının baş katibi Urban Rusnak və Avropa Komissiyası Enerji Baş Direktorluğunun enerji siyasəti üzrə direktoru xanım Kristina Lobilla Borrero açılış nitqi ilə çıxış ediblər.

Forum Energetika nazirinin müavini Elnur Soltanovun moderatorluğu ilə Enerji Xartiyası Müqaviləsinə üzv və müşahidəçi ölkələrin, eləcə də beynəlxalq təşkilatların yüksək səviyyəli nümayəndələrinin çıxışları ilə davam edib.

Albaniya, Rumıniya, Böyük Britaniya, Ukrayna və İrandan olan dövlət rəsmiləri müzakirə olunan məsələlər üzrə öz baxışlarını səsləndirərək forum iştirakçılarına səmərəli müzakirələr arzulayıblar. İqtisadi Əməkdaşlıq Təşkilatının baş katibi Hadi Süleymanpur çıxışında digər məsələlərlə yanaşı, Dağlıq Qarabağ münaqişəsinə diqqət çəkərək Ermənistanın Azərbaycanın enerji və nəqliyyat infrastrukturuna hücumları ilə bağlı dərin narahatlığını bildirib və bu cür aqressiv yanaşmanın ümumi regional enerji təhlükəsizliyi üçün zərərli ola biləcəyini qeyd edib, davam edən münaqişə dövründə canlarını fəda edən şəhidlər üçün Azərbaycan hökumətinə və Azərbaycan xalqına başsağlığı verib. Davamlı sosial-iqtisadi hədəflərə çatmaq üçün bölgədəki sülhün və sabitliyin əhəmiyyətini vurğulayaraq Azərbaycan Respublikasının suverenliyinə, ərazi bütövlüyünə və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına əsaslanan münaqişənin sülh yolu ilə həllinə dəstəyini ifadə edib.

Forumun "Bərpaolunan enerji mənbələrinə dəstək - hüquqi, texniki və maliyyə aspektləri" adlı növbəti sessiyası Enerji Xartiyası Katibliyindən Kanat Botbayevin moderatorluğu ilə baş tutub. Sessiya Beynəlxalq Bərpaolunan Enerji Agentliyi, Energetika Nazirliyinin tabeliyində olan Enerji Məsələlərini Tənzimləmə Agentliyi, Avropa Günəş Enerjisi Assosiasiyası, həmçinin Avstriyanın aidiyyəti nazirliyindən olan nümayəndələrin çıxışları ilə davam edib. Bərpaolunan enerji mənbələrinə əsaslanan daha dayanıqlı bir dünyaya çağırış və imkanlarla bağlı məsələlər nəzərdən keçirilib, müasir siyasətlər, layihələr və texnologiyaların dünyada enerji sektorunun gələcəyini necə formalaşdıracağına dair müzakirələr aparılıb.

Energetika nazirinin müavini, Enerji Xartiyası Konfransının sədr müavini Samir Vəliyevin moderatorluğu ilə keçirilən "Enerji səmərəliliyinin təşviqi - ən yaxşı təcrübələrin və biliklərin mübadiləsi" adlı son sessiyada isə Yaponiyanın Xarici İşlər Nazirliyi, Kopenhagen Enerji Səmərəliliyi Mərkəzi və Beynəlxalq Enerji Xartiyasından olan nümayəndələrlə yanaşı, Energetika Nazirliyinin aparat rəhbəri Zaur Məmmədov da çıxış edib. Z.Məmmədov Azərbaycanda enerji səmərəliliyinin təmin edilməsi istiqamətində atılan addımlar barədə məlumat verib, sahə üzrə hazırlanan qanun layihələrinə və bu qanun layihələrinin qəbulunun sahənin tənzimlənməsində mühüm əhəmiyyətə malik olduğunu, qanunlarda nəzərdə tutulan tədbirlərin bilavasitə və ya dolayı yolla səmərəliliyin təmin edilməsi üçün əhəmiyyətli olduğunu vurğulayıb. O, çıxışı zamanı Ermənistan silahlı qüvvələrinin Bərdə rayonunun mərkəzini raket atəşinə tutması və nəticədə dinc əhali arasında həlak olanların və yaralananların olduğunu forum iştirakçılarının nəzərinə çatdırıb.

Forum Energetika nazirinin müavini S.Vəliyevin və Beynəlxalq Enerji Xartiyasının baş katibi Urban Rusnakın yekun nitqləri ilə öz işini yekunlaşdırıb.

Xatırladaq ki, Azərbaycanın Enerji Xartiyası Konfransına sədrliyi dövründə keçiriləcək Beynəlxalq Enerji Xartiyası Forumu və Beynəlxalq Enerji Xartiyasının 31-ci Nazirlər görüşünün bu ilin dekabr ayında ölkəmizdə təşkil edilməsi nəzərdə tutulur.

# Humanitar atəşkəsin antihumanist qatilləri










## Düşmən Bərdəni yenidən "Smerç" raketləri ilə atəşə tutub - *dünya erməni terroruna göz yumur*

Müharibə cinayətləri törətməkdə davam edən Ermənistan silahlı qüvvələri oktyabrın 28-də yenidən Bərdədə dinc sakinləri "Smerç" raketləri ilə atəşə tutub.

AZƏRTAC xəbər verir ki, düşmənin silahlı birləşmələri tərəfindən Bərdə şəhərində dinc sakinlərin sıx hərəkətdə olduğu və ticarət obyektlərinin yerləşdiyi əraziyə beynəlxalq hüquqla qadağan olunmuş kaset bombalardan istifadə olunmaqla zərbələr endirilməsi nəticəsində aralarında uşaq və qadınlar da olmaqla, 21 dinc sakin həlak olub, 70-ə yaxın mülki şəxs yaralanıb. Şəhərdə yerləşən mülki infrastruktur obyektlərinə və nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib.

Oktyabrın 27-də də Ermənistan silahlı qüvvələri tərəfindən Bərdə rayonunun Qarayusifli kəndinin müxtəlif istiqamətlərdən kasetli raketlərlə atəşə tutulması nəticəsində aralarında 7 yaşlı uşaq da olmaqla, 5 nəfər mülki şəxs həlak olub, 10-a yaxın dinc sakin yaralanıb.

Qeyd edək ki, Ermənistan atəşkəs rejiminə üçüncü dəfədir əhəmiyyət vermir. Oktyabrın 10-da Moskvada birgə bəyanat, oktyabrın 18-də Parisin vasitəçilik səyləri ilə öhdəliyin yenidən elan edilməsi və oktyabrın 24-də Vaşinqtonda təcili humanitar atəşkəsin həyata keçirilməsi razılığı Ermənistan tərəfindən kobud şəkildə pozulub.

## Fövqəladə Hallar Nazirliyinin rəhbər heyəti hazırda Bərdə rayonundadır




**Xəbər verildiyi kimi, oktyabrın 28-də Bərdə şəhəri növbəti dəfə təcavüzkar Ermənistan tərəfindən raket zərbələrinə məruz qalıb. Hazırkı vəziyyətə görə, nəticədə 21 nəfər həlak olub, 70-ə yaxın insan yaralanıb, bir neçə mülki obyekt dağılıb, çoxsaylı avtomobil yararsız vəziyyətə düşüb.**

Fövqəladə Hallar Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, hadisə ilə bağlı hazırda Fövqəladə Hallar nazirinin müavinləri tibb xidməti general-leytenantı Faiq Tağızadə, general-leytenant Etibar Mirzəyev və Orucəli Hacıyev Bərdə rayonundadırlar.

Nazir müavinləri raket zərbələrinin hədəfinə gəldiyi obyektlərə baxış keçirib, vətəndaşlarla görüşüb, yaralılara baş çəkiblər.

## Mülki əhali arasında xidmət aparan FHN-in bir əməkdaşı raket atəşi nəticəsində həlak olub, biri isə ağır yaralanıb

Ermənistan silahlı qüvvələri humanitar atəşkəs rejimini kobudcasına pozaraq Azərbaycan əhalisinin sıx yaşadığı yaşayış məntəqələrini, mülki obyektləri, o cümlədən fərdi və çoxmənzilli yaşayış binalarını, təsərrüfatları ağır artilleriya və raketlərdən atəşə tutmaqla dağıntı və yanğınlar törətməkdə davam edir.

Mülki əhali arasında xidmət aparan FHN-in bir əməkdaşı raket atəşi nəticəsində həlak olub, bir əməkdaşı isə ağır yaralanıb.

Qeyd edək ki, Fövqəladə Hallar Nazirliyi hazırda gücləndirilmiş iş rejimində fəaliyyət göstərir. Baş verən hər hansı fövqəladə hadisə ilə əlaqədar nazirliyin 112 - "Qaynar" telefon xəttinə dərhal məlumat verilməsi xahiş olunur.






## *Daxili İşlər Nazirliyi:* "Müəyyən sayda polis əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları Bərdəyə ezam olunublar"

**Xəbər verdiyimiz kimi, humanitar atəşkəs rejimini kobud şəkildə pozan Ermənistanın silahlı qüvvələri oktyabrın 28-də günorta saatlarında Bərdə şəhərinin mərkəzini reaktiv sistemlərdən atəşə tutub.**

Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, nəticədə mülki əhali arasında ölən və xəsarət alanlar var, infrastruktura ciddi ziyan dəyib.

DİN rəhbərliyinin tapşırığı ilə yaralı vətəndaşların xəstəxanalara vaxtında çatdırılması, şəhərdə və yollarda təhlükəsizlik tədbirlərinin daha da gücləndirilməsi, eləcə də vətəndaşlara məxsus əmlakın mühafizəsi üçün Bərdə Rayon Polis Şöbəsinə kömək məqsədilə müəyyən sayda polis əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları təcili Bərdəyə ezam olunublar.

Hazırda polis əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları şəhərdə gücləndirilmiş iş şəraitində xidmətlərini davam etdirirlər.

## Erməni işğalçıları dinc əhalinin qətliamını davam etdirirlər

### Bu dəfə hədəf Bərdənin Qarayusifli kəndi oldu

**Xəbər verildiyi kimi, oktyabrın 27-də saat 16:40 radələrində Bərdə rayonunun cəbhə xəttindən uzaq məsafədə yerləşən Qarayusifli kəndi Ermənistan silahlı qüvvələrinin çoxsaylı atəşinə məruz qalıb. Bununla Ermənistan ordusu öz faşist xislətinə sadiq qalaraq növbəti cinayət əməli törədib.**

Düşmənin bu cinayəti də faciə ilə nəticələnib. Raket atəşləri 5 nəfərin ölümünə, 14 nəfərin isə yaralanmasına səbəb olub. Həlak olanlar arasında 7 yaşlı Aysu da var. Aysunun 3 yaşlı bacısı Tahirə isə qəlpə yarası alıb. Yaralılar Bərdə Şəhər Mərkəzi Xəstəxanasına yerləşdiriliblər. Onu da təəssüflə qeyd etmək lazımdır ki, yaralananların üçü azyaşlı uşaqdır. Xəstəxanada yaralılara baş çəkdik, həkimlərlə görüşdük. Həkim Zaur Əliyev məlumat verdi ki, yaralılara yüksəksəviyyəli tibbi yardım göstərilmişdir. Cərrahi əməliyyatlar edilmiş, zəruri tədbirlər görülmüşdür. Kəllə-beyin zədəsi alan bir nəfər neyrocərrahiyyə şöbəsinə göndərilmişdir. Digər yaralıların vəziyyəti orta ağır durumdadır.





Qəlpə yarası alan Qarayusifli kənd sakini Zərqələm Alıyeva: "Raket partlayanda həyətdə idim. Güclü dalğadan yerə yıxıldım. Elə bir göy uçub yerə tökülürdü. Özümə gələndə hiss etdim ki, yaralanmışam. Xeyli qan itirmişdim. Dərhal xəstəxanaya çatdırdılar. Sağ olsun həkimlərimiz, bizə çox canıyananlıqla baxırlar. Ölümdən qorxmuram. Vətənə canım qurban olsun. Amma həlak olan, yaralanan uşaqların halına acıyıram. Bizə ən böyük təsəlli, yaralarımızın məlhəmi qəhrəman oğullarımızın döyüş meydanında çaldığı zəfər, torpaqlarımızı işğaldan azad etmək uğrunda savaşda qazandığı qələbələrdir".

***Lazım QULİYEV,***
***"Azərbaycan"***






# Terrorçu Ermənistanın hədəfi yenə də dinc əhalidir

## XİN Ermənistan silahlı qüvvələrinin Bərdəyə raket hücumu ilə bağlı bəyanat yayıb

**Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi Ermənistan silahlı qüvvələrinin oktyabrın 28-də Bərdəyə raket hücumu ilə bağlı bəyanat yayıb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, bəyanatda deyilir: "Oktyabrın 28-də Ermənistan silahlı qüvvələri Azərbaycanın Bərdə şəhərini "Smerç" yaylım atəşli reaktiv sistemdən raket atəşinə tutub və bu hücum mülki əhali arasında ağır itkilərə səbəb olub. Bərdə şəhərinə xaincəsinə edilən raket hücumu nəticəsində uşaqlar da daxil olmaqla, 21 mülki şəxs həlak olub və 70-dən çox insan ağır yaralanıb.

Hərbi hədəf əlamətləri olmayan, münaqişə zonasından çox uzaqda yerləşən şəhərdəki yaşayış məntəqələrinin növbəti dəfə hədəfə alınması Ermənistanın terrorçu mahiyyətini bir daha nümayiş etdirir.

Ermənistan silahlı qüvvələri tərəfindən Bərdə şəhərində dinc əhalinin məqsədyönlü şəkildə qətlə yetirilməsi soyqırımı, müharibə cinayəti və insanlıq əleyhinə cinayətdir.

Bu, Ermənistan tərəfindən beynəlxalq humanitar hüququn kobud şəkildə pozulmasıdır. Bu cinayətə görə baş nazir və müdafiə naziri də daxil olmaqla, Ermənistan rəhbərliyi tam şəkildə məsuliyyət daşıyır.

Rəsmi olaraq elan edilmiş humanitar atəşkəs dövründə və hər iki dövlətin Xarici İşlər nazirlərinin ATƏT-in Minsk qrupunun həmsədrləri ilə Cenevrə görüşü ərəfəsində Azərbaycanın yaşayış məntəqələrinə və mülki şəxslərə hücumun edilməsi Ermənistanın məqsədinin danışıqları pozmaq, gərginliyi artırmaq və üçüncü dövlətləri münaqişəyə cəlb etmək olduğunu açıq şəkildə göstərir.

Ermənistanın vəhşi əməlləri barədə susmaq və Azərbaycanın dinc əhalisinə qarşı törədilən bu cinayətləri cəzasız qoymaq, cinayətkarları növbəti vəhşiliklərə təhrik etməyə bərabərdir. Beynəlxalq ictimaiyyət Ermənistan tərəfindən beynəlxalq hüququn pozulması, məqsədyönlü şəkildə mülki şəxslərin qətlə yetirilməsinin qarşısının alınması üçün zəruri addımlar atmalı və bu ölkənin silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasını tələb etməlidir.

Azərbaycan bu qeyri-insani hərəkətlərə görə cavabdeh olan şəxslərin ədalətdən yayınmaması və məsuliyyətə cəlb olunması üçün əlindən gələni əsirgəməyəcək".

## Türkiyə XİN Ermənistanın azərbaycanlı mülki əhalini hədəfə almasını kəskin şəkildə pisləyən açıqlama yayıb

"Ermənistanın mülki əhalini qətlə yetirmək üçün apardığı xain siyasət Xocalı soyqırımının arxasındakı xəstə zehniyyətin təzahürüdür".

AZƏRTAC xəbər verir ki, bu fikir Türkiyənin Xarici İşlər Nazirliyinin ermənilərin Azərbaycanda dinc əhalini hədəfə almasına dair açıqlamasında yer alıb.

Açıqlamada deyilir: "Dünənki vəhşi hücumdan sonra Ermənistan Azərbaycanın münaqişə zonasından uzaqda olan Bərdə şəhərində mülki əhaliyə qarşı yenidən vəhşi və xain bir hücum həyata keçirdi. İlkin məlumatlara əsasən, bu hücum nəticəsində 21 nəfər həlak olub, 70-dən artıq insan yaralanıb. Həyatını itirən qardaşlarımıza Allahdan rəhmət, yaralıların tez sağalmalarını diləyirik. Can Azərbaycana başsağlığı verir, mətanətli olmasını diləyirik.

Ermənistanın uşaq, gənc, yaşlı demədən mülki əhaliyə qarşı həyata keçirdiyi bu alçaq hücumları lənətləyirik. Ermənistanın mülki əhalini terrora məruz qoymaq və qətlə yetirmək üçün apardığı xain siyasət Xocalı soyqırımının arxasındakı xəstə zehniyyətin təzahürüdür. İşğal etdiyi torpaqlardan çıxmamaq üçün hər yola baş vuran Ermənistanın hakimiyyəti ağıl və vicdanını itirmiş şəkildə hərəkət etməkdədir. Bu son hücum Ermənistanın törətdiyi müharibə cinayətləri siyahısında bir utanc vəsiqəsi olaraq yerini aldı. Başda Minsk qrupunun həmsədrləri olmaqla beynəlxalq ictimaiyyətin Ermənistana lazımi reaksiya verməsinin vaxtı çoxdan gəlib çatıb.

## Türk Şurası Ermənistanın Azərbaycan şəhərlərinə hücumlarını qətiyyətlə pisləyir

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) Baş katibi Bağdad Amreyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə ünvanladığı məktubda son zamanlar Ermənistan silahlı qüvvələrinin beynəlxalq humanitar hüquqa və Cenevrə konvensiyalarının tələblərinə zidd olaraq Azərbaycan şəhərlərinə, mülki əhaliyə və ictimai obyektlərə hücumlarını qətiyyətlə pislədiyini, qardaş Azərbaycan xalqı ilə bu həlledici tarixi dönəmdə həmrəy olduğunu qeyd edib. Məktubda həmçinin vurğulanır ki, Türk Şurası Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərini və onlar üzərində suverenliyini tam şəkildə bərpa etmək üçün BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə və beynəlxalq hüquqa əsaslanan haqlı mübarizəsini dəstəkləyir.

Bağdad Amreyev Azərbaycanın dövlət bayrağının onun azad edilmiş əzəli torpaqlarında daim dalğalanacağına inamını ifadə edib.

## Baş Prokurorluq Bərdə şəhərinin atəşə tutulması ilə bağlı bəyanat yayıb

**Azərbaycan Respublikasının Baş Prokurorluğu Bərdə şəhərinin atəşə tutulması ilə bağlı bəyanat yayıb.**

Baş Prokurorluqdan AZƏRTAC-a daxil olan məlumata əsasən bəyanatda deyilir:

"27 sentyabr 2020-ci il tarixdən Ermənistan Respublikasının silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə konvensiyaları və onların Əlavə protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini, habelə elan edilmiş humanitar atəşkəs rejiminin tələblərini kobud şəkildə pozaraq Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla döyüş əməliyyatlarının aparıldığı bölgəyə aidiyyəti olmayan şəhər və rayonlarımıza raket və ağır artilleriya zərbələri endirir.

Ermənistanın təcavüzkar siyasətinin davamı olaraq, 2020-ci il oktyabrın 28-də saat 13 radələrində düşmənin silahlı birləşmələri tərəfindən Bərdə şəhərinin dinc sakinlərin sıx hərəkətdə olduğu və ticarət obyektlərinin kompakt yerləşdiyi əraziyə hər birinin içərisində 72 ədəd 9N235 saylı, ümumilikdə 144 bombacıq olan "Smerç" tipli əməliyyat-taktiki təyinatlı 9M525 qəlpəli böyük dağıdıcı qüvvəyə malik ballistik "claster" tipli 2 ədəd raket zərbələrinin endirilməsi nəticəsində 5-i qadın olmaqla, 21 nəfər həlak olmuş (siyahı əlavə olunur), 8-i uşaq, 15-i qadın olmaqla 70 şəxs isə müxtəlif dərəcəli bədən xəsarətləri almışdır.

Bundan başqa, raket zərbələrinin təsirindən 30-dan artıq mülki infrastruktur obyektinə, dinc sakinlərə məxsus 20-dən artıq fərdi yaşayış evlərinə və 22 nəqliyyat vasitəsinə xüsusilə külli miqdarda ziyan dəymişdir.

Faktla bağlı Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev tərəfindən Cinayət Məcəlləsinin 120.2.1-ci (cinayətkar birlik-təşkilat tərəfindən qəsdən adam öldürmə), 120.2.4-cü (xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla qəsdən adam öldürmə), 120.2.12 (milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə qəsdən adam öldürmə), 100.2 (təcavüzkar müharibəni aparma) və digər maddələri ilə cinayət işi başlanaraq ibtidai istintaqın aparılması Baş Prokurorluğun İstintaq idarəsinə həvalə edilmişdir.

Hazırda prokurorluq əməkdaşları tərəfindən mövcud şəraitdə mümkün olan istintaq-əməliyyat tədbirləri həyata keçirilir.

Azərbaycan Respublikasının Baş Prokurorluğu bəyan edir ki, Ermənistanın işğalçı və təcavüzkar mahiyyətinin beynəlxalq müstəvidə bir daha ifşa edilməsi, beynəlxalq və milli qanunvericiliyə əsasən təqsirkar şəxslərin məsuliyyətə cəlb edilməsi və sanksiyaların tətbiq olunması məqsədilə beynəlxalq qurumlara müraciət edilməklə mümkün olan bütün tədbirlər görüləcək.

2020-ci il oktyabrın 28-də Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində Bərdə şəhərində həlak olmuş şəxslərin S İ Y A H I S I:

1. 1961-ci il təvəllüdlü Qasımova Solmaz Sədrəddin qızı
2. 1955-ci il təvəllüdlü Süleymanov Hümmət Süleyman oğlu
3. 1969-cu il təvəllüdlü Mustafayeva Leyla Elmir qızı
4. 1972-ci il təvəllüdlü Mirzalıyev Çərkəz Xanlar oğlu
5. 1972-ci il təvəllüdlü Hüseynova Gülşən Mehrab qızı
6. 1995-ci il təvəllüdlü Mirzalıyeva Tükəzban Çərkəz qızı
7. 1983-cü il təvəllüdlü Allahverdiyev Əsgər Mahir oğlu
8. 1990-cı il təvəllüdlü Cəfərov Amil Fazil oğlu
9. 1969-cu il təvəllüdlü Hacıyev Fazil Hacı oğlu
10. 1980-ci il təvəllüdlü Əhmədov Mirsahir Yusif oğlu
11. 1990-cı il təvəllüdlü Kazımov Dəyanət Tahir oğlu
12. 1993-cü il təvəllüdlü Əliyev Sadiq Sahib oğlu
13. 1984-cü il təvəllüdlü Abbasov Ruslan Məhəmməd oğlu
14. 1977-ci il təvəllüdlü Xıdırov İntiqam Ələmdar oğlu
15. 1991-ci il təvəllüdlü Şəfiyev Rəşad Vaqif oğlu
16. 1990-cı il təvəllüdlü İsmayıllı Vasif Vaqif oğlu
17. 1984-cü il təvəllüdlü İsgəndərov Yalçın Rizvan oğlu
18. 1947-ci il təvəllüdlü Quliyev Ağamoğlan Bəylər oğlu
19. 1988-ci il təvəllüdlü İsmayılov Fuad İsa oğlu
20. 1971-ci il təvəllüdlü Mustafayev Məhərrəm Ənvər oğlu
21. 1960-cı il təvəllüdlü Əliyeva Almaz Salah qızı (2020-ci il oktyabrın 27-də xəsarət almış, 2020-ci il oktyabrın 28-də isə vəfat etmişdir)".

## Pakistan Milli Assambleyası Ermənistanın Azərbaycana qarşı təcavüzünü və mülki əhaliyə hücumlarını pisləyən qətnamə qəbul edib

**Oktyabrın 28-də Pakistan Milli Assambleyası Ermənistanın Azərbaycana qarşı təcavüzünü və Ermənistan silahlı qüvvələrinin Azərbaycanın mülki əhalisinə qarşı qəddar hücumlarını qəti şəkildə pisləyən qətnamə qəbul edib.**

Qətnamə millət vəkili, sabiq spiker Sərdar Ayaz Sadiqin təşəbbüsü ilə Assambleyaya təqdim olunub və yekdilliklə təsdiqlənib.

Xatırladaq ki, 2012-ci il fevral ayının 1-də Pakistan Senatının Xarici Əlaqələr Komitəsi, 2017-ci ilin fevral ayının 2-də isə Pakistan Milli Assambleyasının Xarici İşlər üzrə Daimi Komitəsi Ermənistanın Azərbaycana qarşı təcavüzünü pisləyən və Xocalı soyqırımını tanıyan qətnamələr qəbul edib.

Qətnamə bütövlükdə Pakistan Milli Assambleyasının mövqeyini əks etdirir.

## *Ombudsman:* "Ermənistan beynəlxalq hüququn norma və prinsiplərini növbəti dəfə kobud şəkildə pozub"

**Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Ermənistan silahlı qüvvələrinin Bərdəni raket atəşinə tutması ilə bağlı açıqlama yayıb.**

Ombudsman aparatından AZƏRTAC-a bildirilib ki, açıqlamada deyilir: "2020-ci il oktyabrın 26-da saat 08:00-dan etibarən elan edilmiş humanitar atəşkəs rejiminin tələblərini ardıcıl şəkildə pozmaqla müharibə cinayətlərini davam etdirən Ermənistan silahlı qüvvələri döyüş əməliyyatları zonasında və ondan uzaqda yerləşən Azərbaycanın mülki əhalisinin sıx məskunlaşdığı yaşayış məntəqələrini və infrastruktur obyektlərini qadağan olunmuş silahlardan, əməliyyat-taktiki raket sistemlərindən, ağır artilleriyadan istifadə etməklə atəşə tutur.

Ermənistan silahlı qüvvələri tərəfindən ikinci gündür ki, Bərdə rayonu ərazisində mülki əhalinin sıx məskunlaşdığı yaşayış məntəqələrinin beynəlxalq hüquqla qadağan olunmuş kaset bombalarından növbəti dəfə istifadə edilməklə atəşə tutulması çoxsaylı insan tələfatı və dağıntılar baş verməsi ilə nəticələnib.

Təəssüflə bildiririk ki, 2020-ci il oktyabrın 28-də saat 13:00 radələrində Bərdə şəhərində dinc sakinlərin sıx hərəkətdə olduğu və ticarət obyektlərinin yerləşdiyi əraziyə raket zərbələrinin endirilməsi nəticəsində 21 nəfər həlak olub, 70-ə yaxın şəxs yaralanıb, şəhərdə yerləşən mülki infrastruktur obyektlərinə və nəqliyyat vasitələrinə isə külli miqdarda ziyan dəyib.

Təcavüzkar siyasətindən, sülh və insanlıq əleyhinə yönəlmiş müharibə və terror cinayətləri törətməkdən hələ də əl çəkməyən işğalçı Ermənistan mülki insanlara qarşı növbəti dəfə terror aktı törətməklə beynəlxalq hüququn norma və prinsiplərini, beynəlxalq humanitar hüquq normalarını, o cümlədən Cenevrə konvensiyalarını, xüsusilə də müharibə zamanı mülki əhalinin müdafiəsi haqqında 1949-cu il 12 avqust tarixli Konvensiyanı, habelə BMT-nin Uşaq Hüquqları Konvensiyasının müddəalarını bir daha kobud şəkildə pozub.

Ermənistanı daha da azğınlaşdıran, sülh və insanlıq əleyhinə yönəlmiş yeni-yeni qatı cinayət əməlləri törətməyə sövq edən əsas amillərdən biri də həmin işğalçı dövlətin ötən dövr ərzində Azərbaycana qarşı törətdiyi müharibə və terror cinayətlərinə görə nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən beynəlxalq hüquqi sanksiyaya məruz qalmaması, ölkəmizin ərazi bütövlüyünü tanıyan, işğal olunmuş torpaqlarımızın qeyd-şərtsiz azad olunmasının, qaçqın və məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtmasının hüquqi vəziyyətini müəyyən edən BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin icrası üzrə təsirli tədbirlərin görülməməsi ilə bağlıdır.

Bir daha dünya ictimaiyyətinə səslənərək bildiririk ki, Ermənistan tərəfindən müntəzəm şəkildə törədilməkdə davam edən qəddar, qeyri-insani cinayət əməllərinə laqeyd qalmayın, beynəlxalq müharibə cinayətlərinə yol vermiş işğalçı Ermənistan dövlətindən beynəlxalq hüquq normalarına və BMT Nizamnaməsinin tələblərinə əməl etməyi, mülki əhalinin həyat və sağlamlığı üçün ciddi təhlükə yaradan cinayətkar əməllərdən çəkinməyi, Ermənistan silahlı qüvvələrinin işğal etdikləri Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxmalarını, dinc əhalinin qətlə yetirilməsində təqsirkar olan şəxslərin cəzalandırılması ilə bağlı təsirli tədbirlər görülməsini ədalət və insanlıq naminə tələb edin".

## Ədliyyə Nazirliyi nüfuzlu beynəlxalq təşkilatlara müraciətlər ünvanlayıb

BMT-nin dəstəyi ilə yaradılmış və dünyanın 140 dövlətini birləşdirən Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyasının (IAACA) vitse-prezidenti kimi Azərbaycan Respublikasının Ədliyyə naziri Fikrət Məmmədov təşkilatın üzvlərinin işğalçı Ermənistanın ölkəmizə qarşı törətdiyi hərbi təxribatlar və müharibə cinayətləri barədə məlumatlandırılması məqsədilə Assosiasiyanın prezidenti, Qətərin Baş Prokuroru Dr.Ali Al Marriyə müraciət ünvanlayıb.

Ədliyyə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müraciətdə Ermənistanın hərbi təcavüzü nəticəsində əzəli tarixi torpağımız Dağlıq Qarabağın və ətraf yeddi rayonun işğal olunduğu, Azərbaycan əhalisinin etnik təmizləməyə məruz qalaraq bir milyon soydaşımızın qaçqın və məcburi köçkünə çevrildiyi qeyd edilib.

Bildirilib ki, münaqişənin ATƏT-in Minsk qrupu çərçivəsində danışıqlar yolu ilə həllini müxtəlif bəhanələrlə uzadan, BMT Təhlükəsizlik Şurasının erməni silahlı qüvvələrinin işğal altında olan ərazilərimizdən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnaməsinin icrasına məhəl qoymayan Ermənistan ona sərf edən status-kvonu davam etdirərək 30 ildir torpaqlarımızı işğal altında saxlayır. Ermənilər bu ərazilərin zəngin təbii ehtiyatlarını istismar edərək qeyri-qanuni iqtisadi fəaliyyət göstərir, qanunsuz məskunlaşdırma həyata keçirir, tarixi, mədəni və dini abidələrimizi məhv edir, məscidlərimizdə heyvanlar, xüsusilə müsəlmanların hisslərinə toxunan donuz saxlayırlar.

Bütün bunlarla beynəlxalq hüquq normalarını, o cümlədən 1949-cu il Cenevrə konvensiyalarını kobud şəkildə pozan Ermənistanın yeni rəhbərliyinin açıq işğalçılığa hesablanan şüarlarla çıxışlar etməsi qeyd olunub, düşmənin hərbi təxribatlarını intensivləşdirdiyi bildirilib.

Müraciətdə bu məsələlərin BMT-nin Baş Assambleyasının 75-ci Sessiyasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən dəqiq faktlarla dünya ictimaiyyətinin diqqətinə çatdırıldığı vurğulanıb.

Qeyd olunub ki, 2020-ci il sentyabrın 27-dən Ermənistan silahlı birləşmələrinin yaşayış məntəqələrimizə və dinc əhaliyə qarşı başladığı hərbi təxribatlara cavab olaraq ölkəmiz BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun şəkildə özünümüdafiə hüququna əsaslanmaqla işğalçını sülhə məcbur etmək məqsədilə əks-hücum əməliyyatları həyata keçirir.

Doğma torpaqları uğrunda və yalnız öz ərazisində heç bir kənar dəstək olmadan öz gücü ilə vuruşan ordumuzun uğurlu əks-hücumunu görən Ermənistan tərəfinin qəsdən və məqsədyönlü şəkildə ağır artilleriya qurğularından, xüsusilə beynəlxalq hüquq normalarına əsasən, istifadə olunması qadağan edilmiş kaset bombaları ilə hərbi əməliyyatlar aparılan yerdən onlarca, yüzlərlə kilometr aralıda yerləşən, insanların sıx məskunlaşdığı Gəncə, digər dinc şəhər və rayonlarımızı, o cümlədən oktyabrın 28-də Bərdəni dəfələrlə atəşə tutduğu, nəticədə 21 nəfərin həlak olduğu, 70 nəfərin isə yaralandığı diqqətə çatdırılıb. Ümumilikdə, bu günədək təkcə hərbçilərimiz deyil, eyni zamanda qadın, uşaq və ahıllar olmaqla, 94 dinc sakinin həlak olduğu, 380-dən çox mülki şəxsin yaralandığı, 2700-dən artıq yaşayış binasının və mülki obyektin dağıdıldığı və ya ciddi ziyan gördüyü qeyd olunub.

Razılaşdırılmış humanitar atəşkəs rejiminə dəfələrlə məhəl qoymayan Ermənistanın qeyri-insani siyasətindən əl çəkmədiyi, dinc əhaliyə və mülki infrastruktura hədəflənən təxribatlarını davam etdirdiyi, həlak olanların və yaralananların sayının artdığı vurğulanıb.

Müraciətdə Gəncəyə səfər etmiş Qətərin Azərbaycandakı səfirinin dinc insanlara qarşı törədilmiş müharibə cinayətlərini pislədiyi, bu dövlətin ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə dəstəyi minnətdarlıqla qeyd edilib.

Bundan əlavə, münaqişəyə xarici ölkələrdən muzdluları cəlb edən Ermənistan tərəfindən, həmçinin Çikaqo Konvensiyasının tələbləri pozularaq humanitar yardım adı altında mülki aviasiya vasitəsilə bu ölkəyə silahların daşındığı vurğulanıb, bununla əlaqədar Azərbaycan tərəfindən Beynəlxalq Mülki Aviasiya Təşkilatına müraciət olunduğu barədə məlumat verilib.

Qeyd edilib ki, Azərbaycan döyüş meydanında açıq üstünlüyə malik olmasına baxmayaraq, insanların həyatını qorumaq naminə qan tökülməsini istəmir və razılaşdırılmış prinsiplər çərçivəsində sülh danışıqlarının aparılmasının tərəfdarıdır.

Nazir beynəlxalq nüfuza malik peşəkar hüquqşünas və prokuror kimi müharibə cinayətlərinin qarşısının alınması üçün səylərini əsirgəməyəcinə, IAACA-da təmsil olunan çoxsaylı dövlətlərin mötəbər nümayəndələrinin səslərini bütün dünyaya çatdıracaqlarına ümidvar olduğunu bildirib.

Ədliyyə Nazirliyi tərəfindən həmçinin birgə layihələr həyata keçirilən BMT-nin Uşaq Fonduna (UNICEF) müraciət ünvanlanaraq Ermənistanın müharibə cinayətləri, mülki insanların hədəfə alınması, 11-i uşaq olmaqla onlarca dinc vətəndaşların həlak olması, bəzi uşaqların hər iki valideynini itirməsi barədə məlumat verilib. Habelə ordudan kütləvi fərarilik halları ilə üzləşən düşmənin çıxılmaz vəziyyətdə olması görüntüsünü yaratmaq niyyəti ilə döyüş əməliyyatlarına hətta uşaqları cəlb etməsi faktları diqqətə çatdırılıb. Bununla da Ermənistanın beynəlxalq humanitar hüququn, xüsusilə BMT-nin Uşaq hüquqları haqqında Konvensiyasının tələblərini kobud surətdə pozduğu vurğulanıb.

Eyni zamanda BMT-nin digər ixtisaslaşmış qurumu və fəal tərəfdaşımız olan Dünya Bankına müraciət göndərilib. Bildirilib ki, respublikamızın dinc əhalisi və mülki obyektləri dəfələrlə Ermənistanın terror və hərbi təxribatlarına məruz qalır, o cümlədən məhkəmə infrastrukturunun müasirləşdirilməsinə dair birgə layihə həyata keçirdiyimiz Gəncə və digər yaşayış bölgələrimizə raket zərbələri endirilib, məhkəmə binalarına ciddi ziyan dəyib.

Bundan əlavə, nazirliyin sıx əməkdaşlıq etdiyi, dünyadakı yüksək nüfuzu və həyata keçirdiyi nəcib missiya nəzərə alınaraq Ümumdünya Səhiyyə Təşkilatına (ÜST) və qurumun Avropa Regional Bürosuna, Qlobal Fonda (səhiyyə üzrə) müraciətlər olunub və onların qeyd edilən məsələlərdə laqeyd qalmayacaqlarına, insanların həyatını və sağlamlığını qorumaq naminə qan tökülməsini dayandırmaq və sülhü bərpa etmək üçün səslərini ucaldacaqlarına ümidvar olduğu bildirilib.

Nazirlik tərəfindən analoji müraciətlər uzun illər əməkdaşlıq edilən Almaniyanın Beynəlxalq Əməkdaşlıq Təşkilatına (GIZ) və Beynəlxalq Hüquq Əməkdaşlığı Fonduna (IRZ) da ünvanlanıb.

## *İran Prezidentinin xüsusi nümayəndəsi:* "Mülki şəxslərə atəş açmaq hərbi cinayətdir"

Azərbaycanın Bərdə şəhərinin Ermənistan tərəfindən raket atəşinə tutulması və nəticədə mülki insanların həlak olması beynəlxalq qanunlara zidd olmaqla yanaşı, həm də hərbi cinayətdir.

AZƏRTAC xəbər verir ki, bu sözləri İran Prezidentinin xüsusi nümayəndəsi, Xarici İşlər nazirinin müavini Abbas Ərakçı Bakıda keçirdiyi mətbuat konfransında deyib. O bildirib ki, rəsmi Tehran bu hadisəni şiddətlə qınayır və belə hallara son qoyulmasını tələb edir. A.Ərakçı Azərbaycan dövlətinə və xalqına başsağlığı verib.

Ermənistan-Azərbaycan münaqişəsinin həllinə dair İranın təkliflər irəli sürdüyünü diqqətə çatdıran A.Ərakçı qeyd edib ki, dövlətlərin ərazi bütövlüyünün qorunması İranın xarici siyasətinin əsas prinsipidir. İran həmişə Azərbaycan ərazilərinin işğal altında qalmasına müxalif olub.

Azərbaycanın İran ilə sərhəd rayonlarının işğaldan azad olunmasının şad xəbər olduğunu bildirdi. Bu bölgədə İran ilə Azərbaycan birgə "Xudafərin" və "Qız qalası" su bəndi inşa edirlər. Artıq ölkələrimiz su bəndlərindən və onların üzərində tikilən Su Elektrik Stansiyasından səmərəli istifadə edəcəklər.

A.Ərakçı Moskva, Yerevan və Ankaraya da səfər edəcəyini bildirib.

## Ermənistanın növbəti müharibə cinayəti Misir mətbuatında

**Misirin "Cairo24" və "Aldiplomasy" portalları, həmçinin "Asiaelyoum" İnformasiya Agentliyi oktyabrın 28-də Ermənistan silahlı qüvvələrinin Bərdə şəhərinə yenidən raket hücumu etməsi və mülki insanların qətlə yetirilməsi barədə xəbərlər yayıblar.**

AZƏRTAC-a istinadla yayılan xəbərlərdə Azərbaycan Respublikasının Baş Prokurorluğunun ermənilərin növbəti müharibə cinayəti ilə əlaqədar yaydığı məlumatda Ermənistan silahlı qüvvələri tərəfindən Bərdə şəhərinin dinc sakinlərin sıx hərəkətdə olduğu və ticarət obyektlərinin yerləşdiyi əraziyə beynəlxalq hüquqla qadağan olunmuş kaset bombalarından istifadə edilməklə zərbələr endirilməsi nəticəsində 21 nəfərin həlak olduğu, 70-ə yaxın şəxsin yaralandığı bildirilib. Həmçinin şəhərdə yerləşən mülki infrastruktur obyektlərinə və nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib.

Xəbərlərdə vurğulanır ki, döyüş meydanında məğlub olan Ermənistan dinc sakinləri və mülki obyektləri hədəfə alır. Azərbaycan Ordusu isə düşmənin bu vəhşiliyinin cavabını cəbhədə qazandığı qələbələrlə verir.

# Müdafiə Nazirliyi xəbər verir

## Anar EYVAZOV: "Heç bir təxribat qələbə əzmimizə və zəfər yolumuza mane ola bilməz"

**Oktyabrın 28-də Ermənistan silahlı qüvvələrinin Bərdədə dinc əhaliyə qarşı "Smerç" tipli yaylım atəşli reaktiv sistemləri ilə raket zərbələri nəticəsində mülki əhalimiz arasında xeyli sayda ölənlər və yaralılar var. Azərbaycan Ordusu ilə üzləşməyi bacarmayan qorxaq düşmən bu dəfə də xaincəsinə mülki əhalimizi və yaşayış məntəqələrimizi atəşə tutub.**




AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin Mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 28-də Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib.

Anar Eyvazov bildirib ki, Ali Baş Komandanımızın qeyd etdiyi kimi, Bərdə sakinlərinin qisası yerdə qalmayacaq və döyüş meydanında işğalçılara bundan sonra da layiqli cavab veriləcək. Təkcə Bərdəni deyil, ötən müddət ərzində humanitar atəşkəs rejimini kobud şəkildə pozan düşmən Ermənistanın Berd, Çəmbərək, Vardenis və Gorus rayonları ərazisindən və işğal edilmiş ərazilərdən cəbhənin müxtəlif istiqamətlərində yerləşən bölmələrimizin mövqelərini və cəbhəboyu bölgəyə yaxın yaşayış məntəqələrimizi artilleriya qurğularından, o cümlədən "Smerç" və "Qrad" tipli yaylım atəşli reaktiv sistemlərdən atəşə tutub. Bundan başqa, Ağdərə, Xocavənd, Füzuli, Zəngilan və Qubadlı istiqamətlərində hücuma cəhd edən düşmən bölmələrimizin qətiyyətli zərbəsi ilə itki verərək geri çəkilməyə məcbur edilib. Nəticədə düşmənin xeyli sayda canlı qüvvəsi, bir neçə döyüş texnikası, o cümlədən "Osa" tipli zenit raket kompleksi, "Konkurs" tipli tank əleyhinə raket kompleksi, 3 "Qrad" tipli yaylım atəşli reaktiv sistemi, 2 "Qiasint" topu, 12 artilleriya topu, minaatan və 6 avtomobil texnikası dəqiq atəş zərbələri ilə məhv edilib.

Müdafiə Nazirliyinin mətbuat katibi bildirib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin özünün rəsmi "Twitter" hesabında qeyd etdiyi kimi, həyata keçirilən tədbirlər nəticəsində Qubadlı, Zəngilan, Cəbrayıl və Füzuli rayonlarının ümumi olaraq 13 kəndi azad olunub.

"Ermənistanda hərbi müqavilələr və polis əməkdaşları Azərbaycan Ordusu ilə döyüşə girməkdən imtina edirlər. Düşmənin ordu rəhbərliyi şəxsi heyət çatışmazlığını aradan qaldırmaq üçün 2000 nəfərdən ibarət heyətin toplanması barədə göstəriş verməsinə baxmayaraq, heç 300 nəfəri də yığa bilməyiblər. Eyni zamanda düşmən bölmələrində ərzaq, silah, sursat və nəqliyyat vasitələrinin çatışmazlığı kəskin olaraq özünü büruzə verib.

"Düşmən bilməlidir ki, Azərbaycanda dövlət-xalq-ordu birliyi sarsılmazdır. Heç bir təxribat qələbə əzmimizə və zəfər yolumuza mane ola bilməz. Humanitar atəşkəs rejimini kobud şəkildə pozaraq şəhər və rayonlarımıza atəş açan düşmənin qüvvə və vasitələri ordumuz tərəfindən darmadağın edilib. Qələbə bizimlədir", - deyə Anar Eyvazov vurğulayıb.

## Ermənistan atəşkəs rejimini pozmaqda davam edir

**Humanitar atəşkəs rejimini kobud şəkildə pozan Ermənistan silahlı qüvvələri Bərdə şəhərini "Smerç" yaylım atəşli reaktiv sistemindən atəşə tutub.**

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ölən və xəsarət alanlar var, mülki infrastruktura ziyan dəyib.

❖ ❖ ❖

Ermənistan silahlı qüvvələrinin bölmələri oktyabrın 28-də gecə və səhər müxtəlif vaxtlarda Ermənistan-Azərbaycan dövlət sərhədində yerləşən yaşayış məntəqələrimizi və bölmələrimizin mövqelərini atıcı silahlardan atəşə tutub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistanın Berd, Çəmbərək, Vardenis və Gorus rayonları ərazisindən Azərbaycanın Tovuz, Gədəbəy, Daşkəsən və Qubadlı rayonlarının əraziləri düşmən tərəfindən atəşə tutulub.

Səhər saat 07.35-dən 09.00-dək isə Ağcabədi rayonu ərazisi düşmən tərəfindən atəşə məruz qalıb.

❖ ❖ ❖

Ermənistan mətbuatının, guya, Azərbaycan Ordusunun Xankəndidə yerləşən doğum evini atəşə tutması barədə xəbər məqsədyönlü şəkildə yayılan dezinformasiyadır.

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu məlumatla düşmən bir qədər əvvəl Bərdə şəhərində törətdiyi çoxsaylı insan tələfatı ilə nəticələnən hərbi cinayətindən diqqəti yayındırmağa çalışır.

❖ ❖ ❖

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Ermənistan tərəfinin Azərbaycan Ordusuna məxsus pilotsuz uçuş aparatının (PUA), guya, vurulması ilə bağlı yaydığı məlumatları təkzib edib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Ordusuna məxsus PUA-nın cəbhə xəttində, guya, vurulması barədə Ermənistanın yaydığı məlumat yalandır.

❖ ❖ ❖

Ermənistan tərəfinin Şuşa və Xankəndi şəhərlərinin Azərbaycan Ordusu tərəfindən, guya, raket atəşinə tutulması barədə yaydıqları məlumat yalandır. Bir daha bildiririk ki, Azərbaycan Ordusu mülki əhalini heç vaxt atəşə tutmur.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin məlumatında bildirilib.

Məlumatda qeyd olunub ki, Azərbaycan humanitar atəşkəs rejiminə əməl edir.

❖ ❖ ❖

Azərbaycan Silahlı Qüvvələrinin zabiti leytenant Salmanov Fəqan Rzalı oğlu döyüş meydanında şəxsi bacarığı ilə seçilən hərbi qulluqçulardandır.

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, onun dəqiq hesablamaları ilə verdiyi çox sayda hədəflər məhv edilib.

❖ ❖ ❖

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi sosial şəbəkələrdəki rəsmi hesablarının siyahısını bir daha təqdim edib.

AZƏRTAC nazirliyin Mətbuat xidmətinə istinadla xəbər verir ki, həmin hesablar aşağıdakılardır:

**"Facebook" - https://www.facebook.com/wwwmodgovaz/**

**"Instagram" - https://www.instagram.com/azerbaiyan_mod/**

**"Twitter" - https://twitter.com/wwwmodgovaz**

**"YouTube" - https://www.youtube.com/channel/UCp9m21a2rl1_0DltLvHcuCw**

**"Telegram" - t.me/Azerbaijan_MOD.**

## Bərdənin qisası alındı: Azərbaycan Ordusu düşmənin xeyli sayda canlı qüvvəsini və hərbi texnikasını məhv edib



Rəşadətli Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrinin Bərdə rayonunun Qarayusifli kəndində törətdiyi qanlı terror cinayəti nəticəsində həlak olan şəhidlərimizin qisasını alıb.

AZƏRTAC-ın bildirdiyinə görə, ordumuzun bölmələrinin dəqiq zərbələri nəticəsində düşmənin xeyli sayda canlı qüvvəsi və hərbi texnikası məhv edilmişdir.

Bərdə şəhidlərinin qisasını düşməndən layiqincə alan Ordumuz ötən gün ərzində və gecə saatlarında cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsini, eləcə də 1 ədəd "Osa" ZRK, 3 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 6 ədəd D-30, 5 ədəd D-20 və 1 ədəd D-44 topu, 2 ədəd 2A36 "Qiasint-B" topu, 1 ədəd 120 millimetrlik minaatan, 1 ədəd "Konkurs" tank əleyhinə raket kompleksi və 6 ədəd avtomobil texnikasını məhv edərək sıradan çıxarıb.

Xatırladaq ki, Ermənistan silahlı qüvvələrinin oktyabrın 27-də saat 16 radələrində Bərdə rayonunun Qarayusifli kəndini müxtəlif istiqamətlərdən ağır artilleriya atəşinə tutması nəticəsində dörd mülki şəxs - İsmayılov Ehtiram Xəlil oğlu, Cəfərova Ofeliya Məcid qızı, Əhmədova Aybəniz Əşrəf qızı və 2013-cü il təvəllüdlü İsgəndərova Aysu Rövşən qızı həlak olublar.

Şanlı Azərbaycan Ordusunun sarsıdıcı zərbələri qarşısında duruş gətirə bilməyərək geri çəkilən Ermənistan ordusu işğalçı ölkənin hərbi-siyasi rəhbərliyinin bilavasitə göstərişi ilə yaşayış məntəqələrimizi və dinc əhalini hədəfə alır.

## Bölmələrimizin dəqiq atəş zərbələrinə tab gətirə bilməyərək döyüş meydanından qaçan düşmən qüvvələri məhv edilib



**Bölmələrimizin dəqiq atəş zərbələrinə tab gətirə bilməyərək döyüş meydanından qaçan düşmən qüvvələri məhv edilib.**

Bu barədə AZƏRTAC-a Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

## Müdafiə Nazirliyi: Tərtər rayonunun ərazisi BM-21 "Qrad" YARS və toplardan atəşə tutulub

**Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər rayonunun ərazisini BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemlərdən və toplardan atəşə tutub.**

Bu barədə AZƏRTAC-a Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

## Qubadlı istiqamətində döyüşlərdə düşmənin atıb-qaçdığı hərbi texnika və silah-sursat

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Qubadlı istiqamətində gedən döyüşlər zamanı düşmənin atıb-qaçdığı hərbi texnika və silah-sursatın görüntüsünü paylaşıb.



# Ermənistan sonu görünməyən böhrana qədəm qoyub

**Ermənistanda bütün sahələrdə dərinləşən tənəzzül müharibə fonunda bu ölkənin ordusunun da durumuna təsirsiz ötüşmür. Orduda əvvəllər də müşahidə olunan pozuntular artıq daha geniş miqyas alıb. Eyni zamanda müharibə N.Paşinyan iqtidarına olduqca baha başa gəlir.**



Ermənistanın hücumlarının və təxribatlarının qarşısı Azərbaycan Ordusu tərəfindən effektiv şəkildə alınır. Eyni zamanda düşmənin itkiləri durmadan artır. Çoxminli itkilər isə Ermənistanda əsgər analarının etiraz dalğasının başlanmasına səbəb olub. Hakimiyyət itkiləri gizlətməyə çalışsa da, buna nail ola bilmir. Elə bu səbəbdəndir ki, Ermənistanın hakimiyyətin nəzarətində olmayan media orqanları Paşinyanın kriminal rejimini dezinformasiya yaymaqda ittiham edirlər. Əsgər anaları açıqlanan itki rəqəmlərinə inanmırlar. Onlar hakimiyyəti əsgər itkisinə etinasızlıqda ittiham edir, ölkə rəhbərliyinin indiyə qədər onları aldatdığını bildirirlər.

Elə bu səbəbdən də əsgər anaları növbəti dəfə etiraz aksiyası keçiriblər. Aksiyada Qarabağda gedən döyüşlərdə həlak olan Samvel Melkunyanın anası deyib ki, həmişəki kimi hökumət itkiləri gizlədir, həlak olmuş əsgərlərin cəsədlərini ailələrinə vermir. "Nəyə görə Azərbaycan torpaqlarına hərbi xidmət keçməyə kasıb, imkansız ailələrin övladları göndərilməlidir? Ümumiyyətlə, bizə Qarabağ lazımdırmı?" - deyə o bildirib.

Qeyd edək ki, işğalçı ordu ötən bir ayda o qədər itki verib, əsgərləri o qədər zərbə alıb ki, yaralıların yerləşdirilməsi üçün Ermənistandakı hospitallarda yer qalmayıb. Hər gün ölkənin müxtəlif xəstəxanalarına yaralıların daşınması davam edir. Valideynlərin bir çoxu Qarabağda xidmət edən övladlarından bir xəbər ala bilmədiklərindən paytaxtdakı morqlara və xəstəxanalara üz tutublar.

Bu arada Ermənistanın keçmiş baş naziri və müdafiə naziri Vazgen Manukyan da hakimiyyəti tənqid edi. Öz açıqlamasında Ermənistanın tarixinin ən biabırçı və dağıdıcı dövrünü yaşadığını deyən Vazgen Manukyan bildirib ki, ölkənin gələcəyi təhlükə altındadır. O, qeyd edib ki, indiki hökumət istefaya getməlidir.

İyirmi bir il bundan əvvəl işğalçı ölkənin parlamentində törədilən terror aktı nəticəsində qətlə yetirilən baş nazir Vazgen Sarqsyanın qardaşı Aram Sarqsyan qeyd edib ki, həmin cinayət Qarabağ məsələsinə görə törədilmişdi. Aram Sarqsyan "Panorama.am" saytına açıqlamasında deyib ki, cəbhədəki hazırkı məğlubiyyət Ermənistanın terror aktına görə cəzalandırılmasıdır: "Çox güman ki, müharibə bizim bu günahımız ucbatından bitmir. Biz Allah qarşısında günah işlətmişik, özümüz özümüzün əleyhinəyik, ona görə də müharibə qurtarmır. Biz bu məsələyə nöqtə qoymağı bacarmalıyıq. Bu problemi daim növbəti nəslə ötürmək düzgün deyil. Bildiyimə görə, müharibə, həqiqətən, müəyyən müddət davam edəcək və belə şəraitdə yaşamağı öyrənmək lazımdır.

Göründüyü kimi, Ermənistanda daxili siyasi vəziyyət tədricən mürəkkəbləşməyə doğru gedir. Gözlənilir ki, cəbhədəki çoxsaylı insan itkiləri ilə əlaqədar vətəndaşlar tezliklə küçələrə axışacaq. Bununla da Ermənistan sonu görünməyən daxili siyasi böhrana qədəm qoyacaq.

Paşinyan isə hökumət strukturlarında kadr dəyişikliklərinə gedərək hələ ki diqqəti cəbhədəki uğursuzluqlardan yayındırmağa çalışır. Xatırladaq ki, bir müddət əvvəl Ermənistan prezidenti Armen Sarkisyanın qərarı ilə Arqişti Kərəmyan Milli Təhlükəsizlik Xidmətinin direktoru vəzifəsindən azad edilmişdi. Qeyd edək ki, 2018-ci il hakimiyyət dəyişikliyindən sonra Milli Təhlükəsizlik Xidmətinin rəhbərliyində tez-tez kadr dəyişikliyi olur. Artur Vanesyan 2018-ci il mayın 10-dan 2019-cu il sentyabrın 16-dək xidmətin direktoru işləyib. Keçmiş müavini Eduard Martirosyan ötən il sentyabrın 19-da Artur Vanesyanın istefasından sonra Milli Təhlükəsizlik Xidmətinin direktoru vəzifəsini icra etməyə başlayıb. Bu il iyunun əvvəlində E.Martirosyan tutduğu vəzifədən azad edilib. Onun yerinə 29 yaşlı Arqişti Kərəmyan gətirilib.

Ötən günlərdə Ermənistan Milli Təhlükəsizlik Xidmətinin sərhəd qoşunları komandanı Vaqinak Sarkisyan tutduğu vəzifədən azad edilib. Srağagün isə bu qurumun Əks-kəşfiyyat idarəsinin rəisi general-mayor Ohanes Karumyan işdən çıxarılıb.

Bu arada dünyada bütün dinlərin sülh, barışıq və dostluğa çağırdığı bir halda Ermənistan cəmiyyətində din amili faşist və şovinist ideologiyasının yayılmasında lokomotiv kimi çıxış edir. Belə ki, bütün ermənilərin Katolikosu II Qaregin erməni xalqına müraciət edərək insanları müharibəyə qoşulmağa səsləyib. Bu barədə Qaregin "Facebook" səhifəsində videomüraciət yayımlayıb. Ermənistanda əhalinin müharibəyə qoşulmaqdan imtina etməsi və cəbhədə böyük itkilərin verilməsi ilə bağlı xəbərlərin fonunda Katolikos II Qaregin müraciətində erməni gənclərini ölümə getməyə səsləyib və bunun, guya, həlledici an olduğunu bildirib.

Qeyd edək ki, Qaregin müharibənin başlanmasından sonra ilk dəfədir ki, ermənilərə belə bir müraciət edir. Bu, erməni ordusunun çətin vəziyyətdə olduğunu, ölkədə döyüşməyə adam tapılmadığını təsdiq edir. Ona görə də Ermənistanda son ümid kimi kilsə dövriyyəyə girib. Digər tərəfdən, II Qaregin qarşıdurmada olduğu Paşinyan hakimiyyətinə bu dəstəyi verməklə əvvəlki təsir gücünü yenidən qaytarmaq istəyir.

Ümumilikdə isə, son daxili ziddiyyətlər göstərir ki, Ermənistanı qarşıdakı dövrdə daha çətin günlər gözləyir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

Torpaqların işğaldan azad olunması uğrunda Vətən müharibəsi gedir

# Böyük qələbələrlə tariximizə şanlı səhifələr yazılır

*Əvvəli 1-ci səh.*

Ona görə informasiya savaşında iştirak, düşmənin yalanlarının ifşası və insanlara doğruların çatdırılması özünü Azərbaycana bağlı bilən hər kəsin müqəddəs missiyasıdır.

Ali Baş Komandan İlham Əliyev mahir sərkərdə və diplomat kimi ordumuzu düşmən üzərinə səfərbər edərək, eyni zamanda müxtəlif müsahibələri vasitəsilə Azərbaycanın mövqeyini dünyanın siyasi dairələrinə, güc mərkəzlərinə, beynəlxalq ictimaiyyətə çatdırdığı kimi, Mehriban xanım Əliyeva da öz çağırışları, bəyanatları, tövsiyələri ilə hər bir cəmiyyət üzvünü, hər bir fərdimizi düşmənlə informasiya savaşına səfərbər etməyə, haqq davamızda insanlarımızın öz imkanlarını birləşdirməsinə çalışır.



## Hamımız əsgərik

Hələ hərbi əməliyyatların ilk günlərindən Mehriban xanım öz "Instagram" səhifəsində paylaşım edərək yazmışdı: "Əziz həmvətənlər! Rəşadətli Ordumuz əzəli Azərbaycan torpaqlarını erməni işğalından azad etmək üçün uğurlu əks-hücum əməliyyatı apardığı bir vaxtda düşmən öz məkrli niyyətlərini göstərməkdən əl çəkmir. Qızğın döyüşlərin davam etdiyi bütün həftə ərzində Ermənistan vicdansızcasına feyk xəbərlər tirajlayır. Bu şiddətli hücumda beynəlxalq birliyi fəal surətdə yanlış məlumatlandıran erməni diasporu xüsusi rol oynayır. Bu gün biz hamımız, həqiqətən, tarixi hadisələrin şahidləriyik! Lakin biz baş verənləri, sadəcə, kənardan müşahidə edə bilmərik. Bizim hər birimiz Böyük Qələbə anını yaxınlaşdırmaq üçün əlimizdən gələni etməyə borcluyuq. Deməli, biz hamımız erməni yalanını ifşa etmək üçün maksimum səy göstərməyə borclu olan əsgərlərik".

Mehriban xanım Əliyeva düşmənin cəbhə bölgəsindəki təxribatlarına qarşı əks-hücum əməliyyatlarının başladığı 27 sentyabr tarixindən bütün beynəlxalq hüquq normalarını pozub müxtəlif şəhər və kəndlərimizdə dinc sakinləri, o cümlədən körpələri qətlə yetirən Ermənistanın hərbi cinayətlərini öz müracilərində ifşa edir. Hətta dəfn mərasimi zamanı qəbiristanlığı belə atəşə tutub mülki vətəndaşların həyatına son qoyan işğalçı dövlətin, bu ölkənin rəsmilərinin insaniyyətdən kənar olduğunu, rəhmsizliyini, vandallığını, bununla da mənəvi tənəzzülə uğradığını dünyaya göstərir. Beynəlxalq ictimaiyyəti Ermənistanın müharibə cinayətlərini qınamağa çağırır.

## Tarixi ədalət bərpa olunur

Ölkə sərhədlərindən çox-çox kənarlarda nəcib əməllərə imza atmış Mehriban xanım Əliyevanın iki böyük qurumun UNESKO və ICESCO-nun xoşməramlı səfiri kimi beynəlxalq nüfuzu, rəy lideri kimi başqalarına təsir imkanları, onun şəxsiyyətinə olan inam Azərbaycan həqiqətlərinin dünyaya obyektiv çatdırılmasına, münaqişəni kənardan izləyən əcnəbilərin bu məsələdə kimin haqlı, kimin haqsız olmasını müəyyən etməsinə, bu savaşda Azərbaycanın mövqeyini dəstəkləyənlərin sırasının getdikcə genişlənməsinə kömək göstərir.

Azərbaycanın Birinci vitse-prezidentinin "Trend" Agentliyinə verdiyi müsahibəsində toxunduğu məqamlar da bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Mehriban xanım Əliyeva təxminən 30 illik uzun fasilədən sonra Azərbaycan əsgərinin əzəli, tarixi torpaqlarımızda yenidən bayrağımızı ucaltmasını böyük sevinc və fəxarət hissilə bəyan edir, bunu sadəcə, hərbi uğur deyil, tarixi ədalətin bərpası kimi qiymətləndirir. Müsahibəsində Mehriban Əliyeva deyir: "Mübaliğəsiz demək olar ki, bu gün Prezident İlham Əliyev başda olmaqla Azərbaycan xalqı yeni tarix yazır. Bizim birgə qələbələrimizin tarixini!

Mən xalqın öz Prezidenti ətrafında necə sıx birləşdiyini, dövlət başçısının ümumi məqsəd naminə, Azərbaycan torpaqlarının işğaldan azad edilməsi naminə birləşməyə çağırışını gənclərimizin necə qətiyyətlə və mərdliklə qəbul etmələrini görürəm". Bununla da ölkənin birinci xanımı dünyaya bir çağırış edir. Lider-xalq birliyinin gündən-günə möhkəmlənməsini, insanların ruh yüksəkliyini, iradəsinin güclənməsini, tükənməz əzmini göstərir. Mehriban xanım Əliyeva erməni təbliğatının feyklərini ifşa edən, erməni təcavüzü haqqında həqiqətləri bütün mümkün platformalarda beynəlxalq ictimaiyyətə çatdıran Azərbaycan gənclərinin, vətəndaşlarımızın yerinə yetirdikləri böyük əhəmiyyətli missiyadan qürurla söz açır. Tarixin saxtalaşdırılması hallarının aşkar edilməsində, əsassız, yalan, təhrikçi materialların yayılmasının qarşısının alınmasında bu fəaliyyətin rolunu xüsusi vurğulayır: "Azərbaycan xalqı öz Prezidentinə inanır və əmindir ki, Prezident nəyi necə, nə vaxt etmək lazım olduğunu bilir. Buna görə də biz bütün hərəkətlərimizdə və fəaliyyətimizdə həmişəkindən daha çox həmrəyik. Şübhəsiz, bizim əsgərlərimiz bu dəstəyi hiss edirlər. Bilirlər ki, onların arxasında bütün Azərbaycan xalqı dayanır". Bu çox əhəmiyyətli bir məqamdır, xalqın dövlətinə olan sadiqliyini göstərir. Məhz belə bir vəhdətin nəticəsidir ki, istər ayrı-ayrı şəxslərin xalqa bəyanatlarında, istər beynəlxalq danışıqlarda nümayiş etdirilən mövqelərdə, istər cəbhədən xəbərləri paylaşan jurnalistin reaksiyalarında, istərsə də orduya çağırılacağı vaxtı gözləyən hər bir gəncin çıxışında ölkə rəhbərinin nəfəsi, iradəsi hiss olunur. Bu səbəbdən dövlət başçısı böyük əminliklə və dərin bir güvənlə bildirir ki, "Azərbaycan vətəndaşları cəsarət göstərirlər, hər kəs öz yerindədir, ordumuza, dövlətimizə hər an dəstək verməyə hazırdırlar və bunu edirlər". Əslində, belə bir güvən güclü birlik deməkdir. Sarsılmaz olduğumuzu, istənilən an güclü bir sel kimi hərəkətə gələ bilmək əzmimizi ortaya qoyur.

## Erməni terrorizminin ifşası

Mehriban xanım müsahibəsində vurğulayır ki, Gəncə, Mingəçevir, Tərtər, Bərdə, Ağdam, Ağcabədi, Goranboy, Naftalan və digər yaşayış məntəqələrinin dinc əhalisinə edilən hücumlarla düşmən özünün nə qədər mənfur, çirkin xislətli olduğunu göstərir. Günahsız mülki şəxslərin, uşaqların, qadınların öldürülməsi Ermənistanın insanlığa qarşı cinayətlərinin, dövlət səviyyəsində həyata keçirdiyi terrorizm siyasətinin açıq ifşasıdır. Bütün bunlar birmənalı şəkildə göstərir ki, rəsmi Yerevanın sülhdə əsla marağı yoxdur, işğalçı ölkə yalnız münaqişənin eskalasiyasını, onun regional qarşıdurmaya çevrilməsini arzu edir. "Lakin Ermənistanın heç bir alçaq əməli, - nə siyasi platformaya əsaslanan iyrənc provokasiyaları, nə informasiya məkanında məkrli avantüraları, nə dinc vətəndaşlara vəhşicəsinə hücumları, - heç nə Azərbaycan xalqının iradəsini sındıra bilməz. Birlik, həmrəylik, bir-birinin dərdinə şərik olmaq və qarşılıqlı dəstək nümayişi müəyyən mənada heç kəsin heç vaxt bizim iradəmizi və Vətənimizi işğaldan azad etmək istəyimizi sındıra bilməyəcəyinə dair Azərbaycan xalqının ismarıcıdır", - deyir Mehriban xanım və dünya birliyini baş verən bu hadisələrə laqeyd qalmamağa, Ermənistanın beynəlxalq konvensiyalara, habelə BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə etinasızlığına son qoymağa çağırır.

Bu tarixi günlərdə Mehriban xanımın fəaliyyəti təkcə informasiya savaşındakı nəticələrlə məhdudlaşmır. Xalqımızın bu haqq işində canını fəda edərək şəhidlik zirvəsinə ucalmış hərbi qulluqçularımızın ailələri, düşmənin hərbi cinayətlərindən zərər çəkmiş insanlar da ölkənin Birinci vitse-prezidentinin diqqət və qayğısı ilə əhatə olunub. Onun tapşırığı ilə Heydər Əliyev Fondu həlak olanların ailələrinə lazımi kömək göstərir. Yaralı əsgərlərin sağalması və normal həyata qayıtması üçün mümkün tədbirlər həyata keçirilir.

## İki düşmənlə üz-üzə

Mehriban xanım Əliyeva cəmiyyətimizi hazırda iki düşmənlə mübarizə apardığımız faktını da unutmamağa çağırır. Bu düşmənlərdən biri işğalçı Ermənistandırsa, digəri bütün dünyanı sarmış koronavirus pandemiyasıdır. Azərbaycan bir çox ölkələrin pandemiya səbəbindən üzləşdiyi faciəli ssenaridən fərqli olaraq bugünədək vaxtında və hərtərəfli düşünülmüş tədbirlər sayəsində xilas ola bilib. Ekspertlərin fikrincə, bizim ölkəmiz epidemiyanın ilk və olduqca təhlükəli mərhələsini ən az sayda itki ilə başa vurmuş dövlətlər sırasındadır. Amma təhlükə hələ aradan qalxmayıb və son günlər baş verən yoluxma sayı dinamikanın yüksəldiyini göstərir. Pandemiyaya qarşı mübarizə tədbirlərinin daha da gücləndirildiyi bu günlərdə vətəndaşlarımız COVID-19-un doğurduğu təhlükələrə qarşı da sayıqlığını itirməməlidirlər. Doğmalarımız, özümüz, Vətən naminə...

Mehriban xanım cəmiyyətimizi buna çağırır, hər birimizə koronavirus təhlükəsini unutmamağı, aylarla riayət etdiyimiz elementar qaydaları gözləməyi, sosial məsafə saxlamağı, həqiqətən, real zərurət olmadığı halda insanların kütləvi şəkildə toplaşdığı yerlərə getməməyi tövsiyə edir. "Biz yalnız birliyimizi qorumaqla və Prezidentin ətrafında sıx birləşməklə bu ilin yadda qalacağı bütün çağırışları və çətinlikləri dəf edə bilərik. ...Bu gün ordumuz öz tarixi missiyasını davam etdirdiyi bir vaxtda dövlətimizin, o cümlədən səhiyyə sisteminin üzərinə düşən yükü maksimum azaltmaq lazımdır. İndi bütün resursların bizim xilaskarlıq əməliyyatı üzərində cəmləşməsi müstəsna əhəmiyyət kəsb edir. Biz arxa cəbhədə öz sağlamlığımızın qeydinə qalmaqla, sayıqlıq və intizam nümayiş etdirməklə, eyni zamanda ön cəbhədəki əsgərlərimizə kömək edir və onları qoruyuruq. Əminəm ki, biz bu vəzifənin öhdəsindən gələcəyik və bir daha sübut edəcəyik ki, gücümüz birlikdədir!"

Bu günlərdə Yaponiyanın "Nikkei" qəzetinə müsahibəsi zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Mehriban xanım haqqında səsləndirdiyi fikirlər onun Vətən qarşısındakı böyük xidmətlərinə ümumxalq qiymətinin ifadəsi oldu: "Onun azərbaycanlılar arasında güclü dəstəyi var. Siz küçədə istənilən şəxsdən soruşa və onların onu necə sevdiyini və dəstəklədiyini görə bilərsiniz". Mehriban xanım Əliyeva, həqiqətən, xalqımızın qürur duyduğu şəxsiyyətdir. Belə şəxsiyyətlərimizin yaratdığı qürurun, milli həmrəyliyin, bəşəriyyətə xidmət arzusunun gücü ilə tariximizdə böyük qələbələrlə şanlı səhifələr yazacağıq.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Heç bir qüvvə Azərbaycanın iradəsinə təsir edə bilməz

## Ordumuz İlham Əliyevin Ali Baş Komandanlığı ilə öz tarixi vəzifəsini tam yerinə yetirəcək

**İkinci Qarabağ müharibəsinin ilk 30 günü Azərbaycan xalqında işğal olunmuş torpaqlarımızın azad edilməsi ilə bağlı formalaşmış əminliyin reallığa çevrilməsi ilə əlamətdar oldu. Bu əminlik isə sülh danışıqlarının nəticəsiz qalacağı təqdirdə Azərbaycanın güc tətbiqi ilə ədaləti bərpa edəcəyi idi.**

Gözlənilən zaman yetişdi və sentyabrın 27-də düşmənin növbəti təxribatından sonra başlanan əks-hücum əməliyyatları qısa müddətdə işğal altında qalan torpaqlarımızın bir qisminin azad edilməsi ilə nəticələndi.





## 30 günün reallıqları

İlham Əliyev dəfələrlə öz çıxışında bildirmişdir ki, sülh danışıqları nəticəsiz qalacağı təqdirdə Azərbaycan öz ərazi bütövlüyünü müharibə yolu ilə bərpa edəcək. İndiyədək ölkəmizdə həyata keçirilən ordu quruculuğu da ilk növbədə bu məqsədə köklənib. Ən müasir döyüş vasitələri ordumuzun arsenalına daxil edilib. Ən əsası hərbi təlimlərin sayı artırılıb və bu zaman müasir döyüşlərin aparılması istiqamətində vərdişlər təkmilləşdirilib, yeni yanaşmalar, texnikalardan istifadə qaydaları mənimsənilib.

Bu baxımdan hərbi əməliyyatların ilk 30 gününün ortaya qoyduğu və beynəlxalq aləmdə də etiraf edilən ən böyük həqiqət ordumuzun müasir döyüş imkanları ilə döyüşən hərbi güclərdən olduğunu göstərdi. Eyni zamanda Azərbaycan Ordusunun dünyanın ən güclü orduları sırasında olması barədə beynəlxalq reytinq agentliklərinin hesabatlarında yer alan məqamlarda öz təsdiqini praktik olaraq tapdı.

Ermənistan 30 ilə yaxın idi ki, işğal altında saxladığı torpaqlarımızda olduqca güclü istehkamlar yaratmış, onları müxtəlif vasitələrlə möhkəmləndirmişdi. Xüsusən 2016-cı ilin Aprel döyüşlərindən sonra Azərbaycanın gücünü görən işğalçı öz mövqelərini daha da möhkəmləndirmişdi. İstehkamların artilleriya atəşinə qarşı betonlaşdırılması, yük avtomobillərinin hərəkətinin görünməz olduğu dərin səngərlərin qazılması, tanklar və piyadalar əleyhinə çoxsaylı minaların basdırılması ilə düşmən öz mövqelərini möhkəmləndirmişdi. Üstəlik, bu mövqelər cəbhə xətti boyu ən əlverişli yüksəkliklərdə tutulmuşdu.

Ordumuz belə bir şəraitdə əks-hücum əməliyyatlarına başlamalı oldu. Məhz peşəkarlığın, yüksək döyüş vasitələrinin və hazırlığının mənimsənilməsinin, ən əsası Azərbaycan əsgərinin vətənpərvərliyinin nəticəsi olaraq düşmənin illərdir möhkəmləndirdiyi bir neçə pilləli səngərləri, o cümlədən təbii istehkam rolunu oynayan yüksəkliklərdəki mövqeləri qısa müddətdə ələ keçirildi. Cəmi 30 gün müddətinə ordumuz Füzuli, Zəngilan, Cəbrayıl, Qubadlı, Xocavənd və Tərtər rayonlarında uğurlu əməliyyatlara imza atdı. Füzulidən Zəngilana qədər 132 km-lik dövlət sərhədinə nəzarət bərpa olundu. *"Bir aya yaxındır ki, müharibə gedir. Bu müddət ərzində ölkəmiz döyüş meydanında böyük uğurlar əldə edib. Hər gün cəbhədən yaxşı xəbərlər gəlir. Gün ərzində müntəzəm olaraq mənə döyüş bölgələrində aparılan əməliyyatlar haqqında məlumat verilir və mənim tərəfimdən müvafiq göstərişlər verilir. Demək olar ki, hər saat müxtəlif bölgələrdə baş verən hadisələrlə bağlı məlumat daxil olur, həm Müdafiə Nazirliyi və həm də digər qurumlar məni məlumatlandırırlar. Hər gün operativ müşavirələr keçirilir. Bir sözlə, vəziyyət tam nəzarət altındadır. İşğal olunmuş torpaqlarımızın bir hissəsi bu müddət ərzində işğalçılardan azad edilibdir, 100-dən çox yaşayış məntəqəsi - şəhərlər, kəndlər işğalçılardan azad edilibdir. Azad edilmiş şəhər və kəndlərimizdə artıq Azərbaycan bayrağı ucaldılıbdır",* - deyə Prezident İlham Əliyev ordumuzun uğurlu əməliyyatları barədə danışarkən deyib.

## Azərbaycan göstərdi ki, Ermənistanı güc yolu ilə ram edə bilər

Ötən bir ayın başqa bir reallığı isə Azərbaycanın beynəlxalq təzyiqlərin qarşısında mətinliklə duruş gətirməsi və uğurlu hərbi əməliyyatlarını məhz belə bir şəraitdə həyata keçirməsidir. İşğal edilmiş torpaqlarını bir-bir azad edən respublikamıza bu dövrdə xaricdən çoxsaylı təzyiqlər edildi. Təbii ki, bu zaman məqsəd Ordumuzun zərbələrindən acınacaqlı vəziyyətə düşən Ermənistanı xilas etmək idi. 30 ildir Ermənistanın işğalçı siyasətinə göz yumanlar, BMT qətnamələrinin icrasını tələb etməyənlər, danışıqların mənasız qalmasına səbəb olanlar sentyabrın 27-dən başlayaraq bəyanatlarla, zənglərlə problemin hərbi yolla mümkünsüzlüyü barədə hay-həşir salırlar.

Lakin İlham Əliyev yüksək diplomatik peşəkarlıqla, siyasi uzaqgörənliklə onların hamısını ifşa etdi. Azərbaycan Prezidenti çoxsaylı xarici KİV-ə müsahibələrində bütün dünyaya göstərdi ki, müharibənin yenidən başlanmasının səbəbi işğal siyasətinin davam etməsi, bu işğala göz yumulmasıdır. Ən əsası isə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun işğal altındakı əraziləri azad etməsi göstərdi ki, Azərbaycan ATƏT-in Minsk qrupunun susqunluğu qarşısında ildən-ilə daha da azğınlaşan, danışıqları tamamilə iflic edən və həyasızlaşaraq yeni işğal planlarından dəm vuran Ermənistanı güc yolu ilə ram edə bilər.

Bir vaxtlar sərxoş halda Şuşada yallı gedən, bu qədim Azərbaycan şəhərində separatçı rejim üçün andiçmə təşkil edən, başından böyük danışan N.Paşinyan indi acizanə şəkildə gününü dövlət başçılarına yalvarmaqla keçirir. Azərbaycan Ermənistan ordusunu elə bir hala salıb ki, şəxsi heyətinin böyük hissəsi məhv edilib, bir hissəsi şikəst edilib, yerdə qalanlar pərən-pərən düşüb. Cəbhəyə göndərmək üçün kişi tapa bilməyən Paşinyan indi qadınları döyüşə çağırır. Budur, düşmənin sonu. Onu bu vəziyyətə salan isə Azərbaycandır. Torpaqlarını işğalçılardan təmizləyən, ərazilərində beynəlxalq hüququ təmin edən Azərbaycan Ermənistanı döyüş meydanında cəzalandıraraq, ona tarixinin ən böyük acısını yaşadır.

Danışıqlar prosesində baza prinsiplərini rədd edən, bir neçə gün öncə "Münaqişənin diplomatik həlli yoxdur", - deyən N.Paşinyan artıq məcbur olub bu dəfə atəşkəs üçün ABŞ-a yalvarır və həm də kompromislərdən danışır. Növbəti humanitar atəşkəsdən sonra Ermənistan Azərbaycanın mülki yaşayış məntəqələrini atəşə tutur, ordumuzun işğaldan azad etdiyi ərazilərə hücum etməyə cəhd göstərir. Eyni zamanda Ermənistana müxtəlif mənbələrdən silahların daşınması davam edir.

Bu, onu göstərir ki, Ermənistan bu humanitar atəşkəsə riayət etmək fikrində deyil. Belə bir vəziyyətdə isə Azərbaycan öz haqq işini inamla davam etdirəcək. Prezident İlham Əliyevin dediyi kimi: *"Bundan sonra da biz haqq yolumuzdan dönməyəcəyik! Heç bir qüvvə bizim iradəmizə təsir edə bilməz. Düşməni sona qədər qovacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik!"*

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***



# Arxa cəbhə



## Azərbaycan Avropanın enerji təhlükəsizliyinə və enerji mənbələrinin şaxələndirilməsinə töhfə verən ölkəyə çevrilib

**Dünən Azərbaycan Respublikası Energetika Nazirliyi ilə Beynəlxalq Enerji Xartiyasının birgə təşkilatçılığı və Azərbaycanın sədrliyi ilə videokonfrans formatında Bakı Beynəlxalq Enerji Xartiyası Forumu öz işinə başlayıb.**

AZƏRTAC xəbər verir ki, "Enerji istehsalı, nəqliyyat, istilik və soyutma sahələrində bərpaolunan enerji mənbələrinə keçid: müasir çağırışlar və meyillər" mövzusuna həsr edilən forumda Energetika naziri Pərviz Şahbazov, Enerji Xartiyasının baş katibi Urban Rusnak və Avropa Komissiyası Enerji Baş Direktorluğunun enerji siyasəti üzrə direktoru xanım Kristina Lobilla Borrero açılış nitqi ilə çıxış ediblər.

Energetika naziri, Enerji Xartiyası Konfransının sədri Pərviz Şahbazov Azərbaycanın aparıcı enerji mərkəzlərindən biri kimi həyata keçirdiyi enerji layihələri, ölkəmizin dünya enerji arxitekturasındakı mühüm rolu barədə danışıb. Bildirilib ki, bu il Azərbaycanın Beynəlxalq Enerji Xartiyası Konfransına sədrlik etməsi ölkəmizin son illərdəki təşəbbüs və nailiyyətlərinin məntiqi nəticəsidir ki, bu təşəbbüs və nailiyyətlərin əhəmiyyətli bir hissəsi enerji sektoru ilə əlaqədardır. Belə ki, Azərbaycan hasil edilən karbohidrogen ehtiyatlarının dünya bazarlarına nəqlinə dair transmilli layihələri ilə bu gün Avropanın enerji təhlükəsizliyinə və enerji mənbələrinin şaxələndirilməsinə öz töhfəsini verən ölkəyə çevrilib. Növbəti mərhələ kimi "Cənub qaz dəhlizi" meqalayihəsi üzərində işlər başa çatdırılıb və bu ilin sonundan etibarən Azərbaycan qazı Avropa istehlakçılarına çatdırılacaq.

Nazir Azərbaycanın Enerji Xartiyası Konfransına sədrlik etdiyi dövrdə görülmüş işlər barədə məlumat verib, üzv ölkələr arasında əməkdaşlığın genişləndirilməsi məqsədilə Enerji Xartiyası müqaviləsinin modernizasiyası, Enerji İnvestisiya Risk Qiymətləndirməsi, Bakıda keçirilməsi planlaşdırılan növbəti nazirlər konfransına hazırlıq və digər istiqamətlər üzrə görülən işləri diqqətə çatdırıb.

Həmçinin forum iştirakçılarına ölkədə energetika sahəsində həyata keçirilən islahatlar, o cümlədən qanunvericilik aktları layihələrinin hazırlanması, institusional dəyişikliklər, icra olunan layihələr barədə məlumat verilib.

P.Şahbazov çıxışında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə də diqqət çəkib. Bu ilin sentyabr ayının 27-dən başlayaraq Azərbaycanın mülki yaşayış məntəqələrinin, sosial-mədəni və strateji obyektlərinin, həmçinin enerji infrastrukturunun Ermənistan silahlı qüvvələri tərəfindən intensiv atəşə tutulması barədə məlumat verib. Döyüş əməliyyatlarından uzaq olan şəhər və kəndlərin atəşə tutulması ilə yanaşı, Azərbaycanın enerji infrastrukturunun da hədəfə alındığını və regionun ən iri elektrik stansiyası olan Mingəçevir şəhərində yerləşən "Azərbaycan" İstilik Elektrik Stansiyasının və Bakı-Tbilisi-Ceyhan neft kəmərinin ballistik raketlərdən atəşə tutulduğunu diqqətə çatdırıb.

Enerji Xartiyasının baş katibi Urban Rusnak Energetika Nazirliyinə Bakı Beynəlxalq Enerji Xartiyası Forumunun təşkilinə görə təşəkkür edib. Baş katib bu forumun Azərbaycan hökumətinin evsahibliyi etdiyi ikinci Beynəlxalq Enerji Xartiyası Forumu olduğunu xatırladaraq, il ərzində Enerji Xartiyası prosesinə daimi dəstəyinə və rəhbərlik etdiyinə görə Azərbaycan tərəfinə minnətdarlığını bildirib.

Daha sonra Avropa Komissiyası Enerji Baş Direktorluğunda enerji siyasəti üzrə direktor Kristina Lobilla Borrero çıxış edərək forumun təşkilinə görə Azərbaycan tərəfinə təşəkkür edib və Avropa İttifaqının bu sahədəki siyasəti barədə ətraflı məlumat verib.

## İşğaldan azad edilmiş ərazidə "Mətanət-A" şirkəti zavod tikəcək

**Ali Baş Komandan, cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın müzəffər ordusu işğal altındakı torpaqların azad edilməsi üçün əks-hücum əməliyyatlarını uğurla davam etdirir. Bu gün cəbhədən gələn hər bir xoş qələbə xəbərlərini bütün xalqımız sevinclə qarşılayır.**




Əlbəttə ki, əldə olunan uğurların təməlində cənab Prezident İlham Əliyevin bütün istiqamətlər üzrə həyata keçirdiyi uğurlu siyasət dayanır. Ölkəmizdə daimi olaraq aparılan iqtisadi islahatlar nəticəsində biz bu gün güclü iqtisadiyyata və bunun da nəticəsində güclü orduya malikik. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" fikrinin təzahürlərini biz bu gün bir daha aydın görür və əminik ki, gələcək illərdə də daha çox görəcəyik.

"Mətanət A" şirkətlər qrupu da bu günlərdə həm arxa cəbhəyə, həm də ön cəbhəyə var gücü ilə dəstək göstərməkdədir. Belə ki, 35 nəfər əməkdaşımız könüllü şəkildə ordu sıralarına qoşulmuş və 1 dəyərli əməkdaşımız torpaqlarımızın azadlığı uğrunda şəhid olmuşdur. Eyni zamanda şirkətimiz Silahlı Qüvvələrə Yardım Fonduna 100 min manat maliyyə dəstəyi göstərmişdir. Dövlətimizin, vətənimizin, iqtisadiyyatımızın inkişafına töhfə vermək bizim fəaliyyətimizin təməl prinsipidir. Xüsusi ilə cəbhəyanı ərazilərdə yaşayan əhalinin məşğulluğunun təmin edilməsi, sosial-iqtisadi rifahının yüksəldilməsi üçün cənab Prezident İlham Əliyev qarşısında götürdüyümüz öhdəliyi bu gün də fəxrlə yerinə yetirməkdəyik. Cəmi 7 ay bundan əvvəl Qazax rayonunun cəbhəyanı ərazisində yerləşən Daşsalahlı kəndində cənab Prezident İlham Əliyevin iştirakı ilə "AZERLİME" müasir əhəng zavodunun açılışını etdik. Bundan sonra da ənənələrimizə sadiq qalaraq yeni zavod tikib istehsala başlamağı işğaldan azad olan ərazilərdə həyata keçirəcəyik. Qeyd olunan istiqamət üzrə aidiyyəti icra hakimiyyəti strukturlarına müraciət edilmiş, nəzərə alınan kimi zavodun tikintisinə başlanacaqdır. Bu zavodlarda yüzlərlə insan çalışacaq. İnanırıq ki, ölkəmizin bütün bölgələrində uğurla davam edən iqtisadi inkişafa bu zavodlarımızda çalışacaq insanlar sayəsində Qarabağda da yeni-yeni uğurlar əlavə edəcəyik. "Milli İqtisadiyyatın İnkişafına töhfə veririk" şüarı ilə işğaldan azad olacaq rayonlarımızda açılacaq zavodlar həm ölkəmizin iqtisadi yüksəlişində mühüm paya, həm də öz doğma yurd-yuvalarına qayıtmış insanlar üçün məşğulluq mərkəzinə çevriləcək və əhalinin sosial rifahının yaxşılaşdırılması üçün əlverişli şərait yaradacaq.

Ali Baş Komandan, cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə bütövlükdə Azərbaycan yeni bir şərəfli tarix yazır. Bizi qarşıda daha böyük işlər gözləyir. Məhz bu gün cəbhədən gələn qələbə xəbərləri bizi sevindirir və bunun fonunda bizə əlavə güc və motivasiya verir. Biz sahibkarlar bundan sonra da əzm və iradə ilə çalışmalı, daha güclü Azərbaycan naminə iqtisadiyyatımızın inkişafına öz töhfəmizi verməliyik.

***Elxan BƏŞİROV,***
***"Mətanət A" Şirkətlər Qrupu Müşahidə Şurasının sədri***

## Azərbaycan MDB ölkələrinə məhsul ixracını artırıb

Cari ilin yanvar-sentyabr aylarında Azərbaycandan MDB ölkələrinə 958 milyon 364 min ABŞ dolları dəyərində məhsul ixrac edilib.

Dövlət Gömrük Komitəsindən bildirilib ki, bu göstərici 2019-cu ilin müvafiq dövrünə nisbətən 105 milyon dollar çoxdur.

Bu ilin 9 ayında Azərbaycanın MDB ölkələrindən idxal etdiyi məhsulun dəyəri isə 1 milyard 988 milyon 378 min dollar olub.

## Balakənli fermerlər tərəvəz sahələrində bol məhsul yetişdiriblər

Balakənin torpaq mülkiyyətçiləri bu il 1943 hektar sahədə tərəvəz yetişdiriblər. Hazırda rayonun təsərrüfatlarında tərəvəz yığımı davam edir. İndiyədək 1800 hektaradək sahənin məhsulu yığılıb.

Balakən Dövlət Aqrar İnkişaf Mərkəzindən verilən məlumata görə, son illər rayonda kələm əkininə maraq artıb. Məhsul istehsalçıları bu il 179 hektar sahədə kələm əkiblər. İndiyədək 46,6 hektar sahənin məhsulu yığılıb, 720 ton kələm tədarük olunub. Hər hektardan orta məhsuldarlıq 154,5 sentner təşkil edir. Torpaq mülkiyyətçiləri yetişdirdikləri məhsulu əsasən yerli bazarlarda satırlar.

Ötən il isə balakənli fermerlər 176 hektar kələm sahəsindən 2713 ton məhsul götürüblər.

## Astarada 231,5 hektarda payızlıq əkin aparılıb

Astara rayonunun təsərrüfatlarında payızlıq əkinlər davam etdirilir.

Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən verilən məlumata əsasən, bu il rayonda 350 hektarda payızlıq əkinlər aparılacaq. İndiyədək 231,5 hektarda payızlıq əkinlər aparılıb. Bunun 43,9 hektarı buğda, 25 hektarı arpa, 2 hektarı vələmir, 50,8 hektarı kələm və 109,8 hektarı yonca bitkisidir.

Əkin kampaniyasını yüksək keyfiyyətlə və optimal müddətdə başa vurmaq üçün sahələrə kifayət qədər maşın və mexanizm, canlı qüvvə cəlb edilib. Rayonun fermerləri və məhsul istehsalçıları Lənkəran "Aqroservis" ASC tərəfindən kifayət qədər gübrə ilə təmin olunublar.

Xəbərləri AZƏRTAC yayıb.

## Səngəçal terminalı - düşmənə göz dağı



**Neft kəmərlərimizi hədəfə alan erməni terrorçuları artıq neçə dəfə raketlərdən atəş açaraq məqsədlərini gerçəkləşdirməyə çalışmışlar. Raketlər Yevlax rayonunun Aran qəsəbəsində Bakı-Tbilisi-Ceyhan (BTC) və Xızı rayonunda - Sitalçay yaxınlığındakı ərazidə Bakı-Novorossiysk neft kəmərlərinə tuşlanmışdı.**

Lakin raketlər ölkəmizin hava hücumundan müdafiə qüvvələri tərəfindən zərərsizləşdirilmişdir. Odla oynamaqdan çəkinməyən erməni faşistləri Azərbaycanı ixrac kəmərlərinə, həmçinin Səngəçal terminalına hücum edəcəkləri ilə hədələyirlər.

Xatırladaq ki, Səngəçal terminalı dünyanın ən böyük neft-qaz terminallarından biri, karbohidrogenlərin ixracının regional mərkəzidir. Azərbaycan neftini və qazını dünya bazarlarına nəql edən kəmərlər başlanğıcını buradan götürür. Belə ki, Xəzərin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" (AÇG) və "Şahdəniz" yataqlarından çıxarılan neft, qaz və kondensat sualtı xətlərlə terminala çatdırılır.

Bu nəhəng obyekt hazırda hər gün 1,2 milyon barel neft və kondensatı, həmçinin 81 milyon standart kubmetrə yaxın "Şahdəniz" qazını texniki emaldan keçirmək gücünə malikdir. Terminalın ümumi qaz emalı və ixracı gücü isə (AÇG səmt qazı da daxil olmaqla) gündəlik təqribən 101 milyon standart kubmetrdir.

Düşmənin gözü Azərbaycanın belə mühüm əhəmiyyətə malik bir sənaye infrastrukturunu əlbəttə, götürmür. O millətin paxıllığı, həmişə nailiyyətlərimizə kölgə salmaq cəhdi də var. Bir də axı Ermənistan ölkəmizin həyata keçirdiyi bütün qlobal layihələrə dalandan baxır.

Məlumdur ki, Ermənistan sosial-iqtisadi sahədə böyük gerilik yaşayan, inkişafdan kənarda qalan, sakinləri dəstələrlə köçüb başqa məmləkətlərə gedən bir ölkədir. Bu ölkə regionda həyata keçirilən qlobal layihələrin heç birinin iştirakçısı deyil. Öz xislətinə görə bu layihələrin hamısından qıraqda qalıb. Neft, qaz ixracı marşrutları, dəmir yolu xətləri, nəqliyyat dəhlizləri Ermənistandan yan keçir. Bir sözlə, Ermənistan öz günahları və cinayətləri ucbatından bu sahədə də çıxdaş edilib.

Azərbaycan dünya əhəmiyyətli nəhəng layihələr həyata keçirib və bu istiqamətdə işləri uğurla davam etdirir. Ermənistan bütün işlərə kənardan seyrçi kimi baxır. Prezident İlham Əliyev hələ bir neçə il bundan əvvəl demişdir ki, Ermənistanı enerji və nəqliyyat layihələrindən biz təcrid etmişik və bunu heç vaxt gizlətməmişik. Ermənistan bu gün bizim səylərimiz nəticəsində siyasi, iqtisadi, investisiya, enerji və nəqliyyat dalanıdır. Torpaqlarımızdan çıxmayana qədər bu vəziyyət belə də olacaq!

İndi mənfur qonşularımız bizə hədə-qorxu gəlmək istəyirlər ki, neft-qaz kəmərlərimizə hücum edəcək, Səngəçalı oda qalayacaqlar. Onların güddüyü bu üzdəniraq məqsədlərdən Prezident İlham Əliyevin bir sıra xarici KİV-ə müsahibələrində də bəhs olunmuşdur.

Fransanın "Figaro" qəzetinə müsahibəsində dövlətimizin başçısı bildirmişdir ki, üç ay müddətində Ermənistan tərəfindən Azərbaycana qarşı üçüncü dəfə hərbi təxribat olmuşdur: "Onlar birinci dəfə bizə Qarabağ bölgəsindən uzaqda olan Ermənistan-Azərbaycan dövlət sərhədində hücum etdilər. Beynəlxalq müşahidəçilərin yekdil rəyi ondan ibarət idi ki, Ermənistan bizə qarşı hücum etmişdir. Onlar yeni əraziləri işğal etmək istəyirdilər. Onlar bizim Ermənistanla dövlət sərhədindən bir neçə kilometr məsafədə yerləşən strateji enerji infrastrukturu üzərində nəzarəti ələ keçirmək istəyirdilər. Yəqin, sizin də bildiyiniz kimi, Trans-Adriatik Boru Kəməri demək olar ki, tamamlanıb". Cənub qaz dəhlizi" təkcə Azərbaycanın deyil, həm də Avropanın enerji təhlükəsizliyi layihəsidir. Hesab edirik ki, Ermənistanın məqsədlərindən biri bu boru kəməri üzərində nəzarəti ələ keçirmək və bizi, ola bilsin Avropa istehlakçılarını şantaj etmək idi".

Xatırladaq ki, ölkəmiz neft, qaz və ixrac layihələrini çoxsaylı xarici tərəfdaşları ilə birlikdə həyata keçirir. Məsələn, BTC üç ölkənin - Azərbaycanın, Gürcüstanın və Türkiyənin ərazisindən keçir. Bu layihədə 11 dünya şöhrətli şirkət tərəfdaşlıq edir. Odur ki, BTC-ni hədəfə almaq, ona zərər yetirmək təkcə Azərbaycanın deyil, həmin şirkətlərin təmsil etdiyi ölkələrin hər birinin iqtisadiyyatına zərbə vurmaq deməkdir. Üstəlik, BTC ilə yanaşı, Azərbaycanın və Gürcüstanın ərazisi boyu "Cənub qaz dəhlizi"nin seqmentlərindən olan Cənubi Qafqaz Boru Kəməri uzanır. Buradan eləcə də Bakı-Supsa neft kəməri keçir. Bu layihələrdə də bizim çoxsaylı tərəfdaşlarımız var. Sözügedən boru xətlərinin hamısının başlanğıcı Səngəçaldadır.

Erməni vandalları düşünməlidirlər ki, təkcə Azərbaycanın deyil, bu layihələrin bütün səhmdarlarının qarşısında cavab verməli olacaqlar. Onların məqsədi, eləcə də həmin tərəfdaşlarımızla bizim aramızda nifaq salmaqdır.

Yaponiyanın "Nikkei" qəzetinə müsahibəsində Prezident İlham Əliyev bu məsələyə də toxunmuşdur: "Ermənistanın rəsmi nümayəndələrindən hədələr eşitmişik ki, onlar bizim kəmərlərimizə hücum edəcəklər, neft-qaz nəqli üçün mühüm olan Səngəçal terminalına hücum edəcəklər. Lakin bu da onların terrorçu xislətinin bir hissəsidir. Çünki onlar açıq şəkildə bəyan edirlər ki, mülki infrastruktura hücum edəcəklər. Əlbəttə ki, əgər onlar bunu etsə, peşman olacaqlar. Çünki bizim tərəfimizdən və həmçinin enerji təhlükəsizliyinin bir hissəsini Azərbaycandan təmin edən ölkələr tərəfindən sərt şəkildə cəzalandırılacaqlar. Həmin ölkələrin reaksiyası necə olacaq? Bu kəmərlərə milyardlarla dollar investisiya yatırılıb. Beynəlxalq banklar, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı və başqaları kimi bütün aparıcı beynəlxalq banklar investisiya yatırıb. Ona görə də, Ermənistan rəhbərliyi bu cür variant barədə yaxşı düşünməlidir. Əlbəttə, qeyd etdiyim kimi, Azərbaycan özü onları sərt şəkildə cəzalandıracaq və mən düşünmürəm ki, onlar bunu, daha bir müharibə cinayətini etməyə cürət göstərəcəklər".

Prezidentdən müsahibə alan jurnalistlər qeyd ediblər ki, Azərbaycan nəinki enerji, eyni zamanda, daşımalar üzrə artıq regional haba çevrilmişdir. Bu mövzuda səsləndirilən sualların cavabında dövlətimizin başçısı vurğulayıb ki, hazırda biz Xəzər dənizinin digər tərəfindəki - şərq hissəsindəki və Avropadakı tərəfdaşlarımıza mühüm nəqliyyat şəbəkəsini təmin edirik. İnfrastruktura yatırdığımız sərmayələr nəqliyyat üzrə geniş beynəlxalq əməkdaşlıq formatının yaradılması ilə nəticələnmişdir. Əlbəttə, başlanğıcda enerji infrastrukturu dayanır. Belə ki, neft və qaz kəmərlərimiz mühüm enerji təhlükəsizliyi mənbəyinə çevrilib. Neft kəmərlərinə gəlincə isə, artıq Mərkəzi Asiyadan nefti Azərbaycan ərazisindən Avropaya nəql edirik.

Son illər Azərbaycan mükəmməl beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq platforması yaradıb. Qonşularının düşməni olan, onların torpağına iddia edən, tarixi saxtalaşdırmağa çalışan ermənilər bütün bunlardan kənarda qaldığından bizim qurub-yaratdıqlarımız onlar üçün göz dağına çevrilib.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Sahibkarlar üçün onlayn görüş imkanı yaradılıb

Sahibkarlarla birbaşa ünsiyyət qurmaq imkanlarının genişləndirilməsi, eləcə də koronavirus (COVID-19) pandemiyası səbəbindən yerində görüşlərin keçirilməsinin və vətəndaş qəbullarının müvəqqəti olaraq məhdudlaşdırılması ilə əlaqədar Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) tərəfindən vətəndaşlar və biznes subyektləri üçün onlayn görüş imkanı yaradılıb.

KOBİA-dan bildirilib ki, vətəndaşlar və sahibkarlar agentliyin rəhbər vəzifəli şəxsləri ilə görüşmək üçün "www.smb.gov.az" saytının "Vətəndaş qəbulu" bölməsinə daxil olmaqla onlayn görüş üçün müraciət edə bilərlər. Eyni zamanda KOBİA digər elektron resurslardan, o cümlədən telefon rabitəsi internet vasitəsilə sahibkarlara informasiya, məsləhət və digər istiqamətlərdə məsafədən xidmətlərin göstərilməsini, biznes subyektlərini maraqlandıran sualların cavablandırılmasını davam etdirir.

## Naxçıvan MR-də müasir nəqliyyat sistemi qurulur

**Bu ilin yanvar-sentyabr aylarında muxtar respublikada nəqliyyat sektorunda 12 milyon 272 min ton yük, 77 milyon 538 min 100 sərnişin daşınıb.**

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinə istinadən AZƏRTAC xəbər verir ki, artan əhali tələbatına uyğun olaraq muxtar respublikada müasir nəqliyyat sisteminin qurulması, nəqliyyat sektorunun səmərəli idarə olunması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.

2020-ci ilin yanvar-sentyabr aylarında Şərur rayonunda Qarxun-Muğancıq-Mehrab-Məmmədsabir, Ordubad rayonunda Xanağa-Ağrı-Dizə-Vənənd kənd və Darkənd, Babək rayonunun Nəcəfəlidizə, Culfa rayonunun Camaldın kəndlərində və Culfa şəhərində avtomobil yollarının yenidən qurulması başa çatdırılıb. Naxçıvan şəhərində avtomobil yolunun, Culfa-Ordubad magistral avtomobil yolunun, Şərur rayonunda Xanlıqlar-Şərur şəhəri-Yengicə-Şəhriyar-Kürçülü-Kərimbəyli-Dəmirçi kənd avtomobil yolunun, Şərur şəhərinə giriş, Qaraburc, Təzəkənd və Şəhriyar, Ordubad rayonunun Nüsnüs və Yuxarı Əndəmic kəndlərində avtomobil yollarının, Şərur şəhərində yeraltı piyada keçidinin yenidən qurulması davam etdirilir.

Naxçıvan Beynəlxalq Hava Limanında uçuş-enmə zolağının yenidən qurulması başa çatdırılıb, Naxçıvan şəhərində 400 yerlik avtomobil parkının tikintisi davam etdirilir.

"Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin Naxçıvan stansiyasında alçaq sərnişin platformasının yenidən qurulması başa çatdırılıb, polis şöbəsi üçün inzibati binanın tikintisi, dartı yarımstansiyası binasının, Şərur rayonunda Elektrik Təmas Şəbəkəsi binasının, Dövriyyə Deposunun inzibati binasının və təmir sexinin, Babək rayonunda Təhlükəsizlik Komandası binasının yenidən qurulması davam etdirilir.

## Nüfuzlu "National Herald Tribune" Azərbaycanı regional lider adlandırıb

**Nüfuzlu "National Herald Tribune" nəşri "Azərbaycan regionun geopolitik və geoiqtisadi mənzərəsini yenidən şəkilləndirir" mövzusunda analitik məqaləni dərc edib.**

AZƏRTAC xəbər verir ki, məqalənin müəllifi İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru, iqtisad elmləri doktoru Vüsal Qasımlıdır. O yazıb ki, Azərbaycanın regional liderliyi son 15 ildə iqtisadiyyatını 3 dəfədən çox böyütməsi və regional neft-qaz və nəqliyyat-logistika layihələrini gerçəkləşdirməsilə sübut olunub. Kissincerin "neftə nəzarət etməklə dövlətlərə, ərzağa nəzarət etməklə insanlara nəzarət mümkündür" sitatına uyğun olaraq Azərbaycan regionun geopolitikası və geoiqtisadiyyatını şəkilləndirərkən yekun bir ştrixə ehtiyac duyurdu. Əhalisinə görə dünyada 90-cı və ərazisinə görə 114-cü ölkə olan Azərbaycan nüfuzlu "US News"un hesabatına görə, dünyada 45-ci gücə çevrilməyi bacarıb. Azərbaycanın regional oyunçu statusunda iqtisadi və siyasi üstünlüyünü hərbi potensialının təsdiqi və ərazi bütövlüyünün bərpası tamamlamalıydı ki, ölkə regional liderliyini tam təsbit etsin. Son 10 ildə Azərbaycanın hərbi büdcəsi ÜDM-in 4 faizi və dövlət büdcəsinin 11 faizi həddində olub. 2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatına cavab olaraq Azərbaycan Ordusunun əks-həmləsi nəticəsində düşmənin 30 ilə yaratdığı müdafiə səddi yarılıb və 1988-1993-cü illərdə işğalına illər sərf edilmiş Azərbaycan torpaqları həftələr ərzində azad edilməyə başlayıb.

Azərbaycanın Cənubi Qafqazda gücün bütün parametrləri - iqtisadi, siyasi və hərbi cəhətdən önə çıxması regionun geopolitikasını və geoiqtisadiyyatını yenidən şəkilləndirir. Azərbaycan regionun geopolitik mənzərəsini dəyişmək üçün quru, su və hava üstünlüyünə malikdir.

"National Herald Tribune" sonda qeyd edir ki, Azərbaycan xalqının Prezident İlham Əliyevin ətrafında sıx birləşməsi islahatların daha da dərinləşdirilməsi üçün əsasları gücləndirəcək.

# Biz birlikdə güclüyük!

## *Operativ Qərargah:* "Xüsusi karantin rejiminin müddəti dekabrın 1-dək uzadılır"

**Yeni növ koronavirus (COVID-19) infeksiyasının yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarına əsasən, ölkə ərazisində xüsusi karantin rejiminin müddəti 1 dekabr 2020-ci il saat 06:00-dək uzadılır.**

Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, eyni zamanda ölkə ərazisində mövcud sanitar-epidemioloji vəziyyətin təhlilinə əsasən, son günlər Lənkəran şəhərində, Cəlilabad və Masallı rayonlarında yüksək yoluxma faktları aşkar olunub. Bu səbəbdən 29 oktyabr saat 00:00-dan etibarən Lənkəran şəhəri, Cəlilabad və Masallı rayonlarına operativ və xüsusi təyinatlı nəqliyyat vasitələrinin, eləcə də yükdaşıyan avtomobillərin hərəkəti istisna olmaqla giriş-çıxış dayandırılır.

Həmçinin Bakı, Sumqayıt, Gəncə, Yevlax, Mingəçevir, Şəki, Şirvan, Lənkəran şəhərlərində və Abşeron, Göygöl, Samux, Sabirabad, Quba, Ağstafa, Biləsuvar, Xaçmaz, İsmayıllı, Qax, Zaqatala, Cəlilabad, Masallı rayonlarında aşağıda qeyd olunan tarixlərdə həftəsonları ictimai nəqliyyatın hərəkəti dayandırılır:

31 oktyabr saat 00:00-dan 2 noyabr saat 06.00-dək;

7 noyabr saat 00:00-dan 9 noyabr saat 06:00-dək;

14 noyabr saat 00:00-dan 16 noyabr saat 06:00-dək;

21 noyabr saat 00:00-dan 23 noyabr saat 06:00-dək;

28 noyabr saat 00:00-dan 30 noyabr saat 06:00-dək.

Bir daha vətəndaşlarımızı COVID-19 virusu ilə mübarizədə mövcud karantin tələblərinə ciddi riayət etməyə, tibbi maskalardan və digər zəruri tibbi-profilaktik vasitələrdən istifadə etməyə, ictimai yerlərdə kənar şəxslərlə minimum kontaktda olmağa çağırırıq.

## Azərbaycanda koronavirus infeksiyasına 988 yoluxma faktı qeydə alınıb, daha 340 nəfər sağalıb

**Azərbaycan Respublikasında koronavirus infeksiyasına 988 yeni yoluxma faktı qeydə alınıb, daha 340 nəfər sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 11 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 52 min 137 nəferin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 42 min 33 nəfər müalicə olunaraq sağalıb, 699 nəfər vəfat edib. Aktiv xəstə sayı 9405 nəfərdir. Ötən müddət ərzində 1 milyon 319 min 474 test aparılıb. Dünənki test sayı isə 11426-dır.




## Azərbaycan Respublikasının Dövlət Neft Fondu (ARDNF) aşağıdakı LOT-lar üzrə *açıq tender elan edir*

**LOT1** Smart kartların satın alınması;
**LOT2** Nessus lisenziyasının 1 (bir) il müddətinə uzadılmasının satın alınması;
**LOT3** Perimetrə giriş-çıxışı idarəetmə informasiya sistemlərinə texniki xidmətin və Smartnet lisenziyalarının 1 (bir) il müddətinə uzadılmasının satın alınması;
**LOT4** Pentest lisenziyalarıın 1 (bir) il müddətinə uzadılması xidmətinin satın alınması.

İddiaçılara təklif edilir ki, **https://www.etender.gov.az** dövlət satınalmalarının vahid internet Portalına (Portal) asan və ya elektron imzaları vasitəsilə daxil olsunlar və eTender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün iddiaçılar lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. eTenderdə iştirak etmək istəyən iddiaçılar Smart kartların satın alınması üzrə 40 AZN, Nessus lisenziyasının 1 (bir) il müddətinə uzadılmasının satın alınması üzrə 100 AZN, Perimetrə giriş-çıxışı idarəetmə informasiya sistemlərinə texniki xidmətin və Smartnet lisenziyalarının 1 (bir) il müddətinə uzadılmasının satın alınması üzrə 100 AZN və Pentest lisenziyalarıın 1 (bir) il müddətinə uzadılması xidmətinin satın alınması üzrə isə 15 AZN məbləğində müəyyən edilən iştirak haqqını Portal üzərindən "ASAN ödəniş" sisteminə keçid edərək ARDNF-in qeydiyyatdan keçmiş aşağıdakı hesabına köçürdükdən sonra tələb olunan sənədləri və tender təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər. Tələb olunan sənədlərin siyahısı Portalda göstərilmişdir.

**Azərbaycan Respublikasının Dövlət Neft Fondu**
**Ünvan: AZ1029, Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, 165**
**VÖEN: 9900041961**
**H/h:AZ84NABZ01360400000000001944**
**Bank: Azərbaycan Respublikasının Mərkəzi Bankı**
**Kod: 501004**
**VÖEN: 9900071001**
**M/h: AZ74NABZ01451700000000001944**
**S.W.I.F.T BIK: NABZAZ 2C**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar Smart kartların və Nessus lisenziyasının 1 (bir) il müddətinə uzadılmasının satın alınması üçün tələb olunan sənədləri (tender təklifi və təklifin təminatı istisna olmaqla) **23 noyabr 2020-ci il saat 10:00-a,** tender təkliflərini (təklifin təminatı ilə birlikdə) **01 dekabr 2020-ci il saat 18:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. Təkliflər **02 dekabr 2020-ci il saat 10:00-da** açılacaqdır.

İddiaçılar Perimetrə giriş-çıxışı idarəetmə informasiya sistemlərinə texniki xidmətin və Smartnet lisenziyalarının 1 (bir) il müddətinə uzadılmasının və Pentest lisenziyalarıın 1 (bir) il müddətinə uzadılması xidmətinin satın alınması üçün tələb olunan sənədləri (tender təklifi və təklifin təminatı istisna olmaqla) **24 noyabr 2020-ci il saat 10:00-a,** tender təkliflərini (təklifin təminatı ilə birlikdə) **02 dekabr 2020-ci il saat 18:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. Təkliflər **03 dekabr 2020-ci il saat 10:00-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

eTenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## Bakı Şəhər Mənzil-Kommunal Təsərrüfatı Departamenti *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir:
**LOT - Nəqliyyat və xüsusi texnikaların satın alınması**

Tender iştirakçılarına təklif edilir ki, **www.etender.gov.az -** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən malgöndərənlər (podratçılar) LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı LOT üzrə 300 (üç yüz) manat**
**İştirak haqqının ödənilməsi yalnız "ASAN Ödəniş" vasitəsilə həyata keçirilə bilər.**
**Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:**
**Hesab: AZ14IBAZ38060019449887596206**
**VÖEN: 1500116861**
**Bank: Azərbaycan Beynəlxalq Bankı Nərimanov filialı**
**Kodu: 805540**
**VÖEN: 9900001881**
**M/H: AZ03NABZ01350100000000002944**
**SWIFT: IBAZAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və bank rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *malgöndərənin (podratçının) Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış;*
- *malgöndərənin (podratçının) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
- *malgöndərənin (podratçının) mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması haqqında məlumat;*
- *malgöndərənin (podratçının) müvafiq sahə üzrə fəaliyyətinə icazə verilən lisenziyalar və Əsas şərtlər toplusuna uyğun olaraq ixtisas göstəricilərini müəyyən edən sənədlər.*

Tender təklifləri, eləcə də bütün yazışmalar və sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Malgöndərənlər (podratçılar) tender təkliflərini, eləcə də bütün sənədləri və müraciətləri dövlət satınalmaları üzrə vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər. Müsabiqədə göstərilən vaxtdan gec təqdim olunmuş sənədlər və təkliflər qəbul olunmayacaq. Malgöndərənlərin (podratçıların) səlahiyyətli nümayəndələri portala daxil olmaqla iştirak edə bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri **19.11.2020-ci il saat 15:00-a** qədər, tender təklifi ilə bank təminatı sənədlərini isə **27.11.2020-ci il saat 12:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **30.11.2020-ci il saat 15:15-də** Portal vasitəsilə açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## Pandemiyanı yalnız qaydalara əməl etməklə nəzarətdə saxlamaq mümkündür

**Ötən ilin dekabrında Çin hökuməti Uhan şəhərində naməlum pnevmoniyanın yayılmağa başlaması barədə Ümumdünya Səhiyyə Təşkilatına məlumat verdi və mütəxəssislər həmin xəstəliyə yeni növ koronavirusun səbəb olduğunu müəyyənləşdirdilər.**




ÜST COVID-19 adlandırılan infeksiyanı bu il martın 11-dən pandemiya elan etdi. Xeyli vaxt keçməsinə baxmayaraq, koronavirus addım-addım kainata yayılmaqda, yoluxma zəncirini və ölüm sayını sürətlə artırmaqda davam edir.

Bu bir reallıqdır ki, dünyada pandemiya ilə bağlı vəziyyət getdikcə pisləşir və infeksiyaya yoluxma halı hazırda daha sürətlə yayılaraq 50 milyon nəfərə çatır. Azərbaycanda koronavirusun yayılmağa başladığı ilk zamandan etibarən ona qarşı effektiv tədbirlərə start verilib, vətəndaşların həyatı, sağlamlığı prioritet məsələ kimi önə çıxarılıb. Pandemiyaya qarşı vaxtında görülmüş preventiv tədbirlər sayəsində Azərbaycan dünyanı bürümüş virusa qarşı mübarizədə nümunəvi ölkələr sırasında qərarlaşmışdı.

Bir müddət əvvələ qədər ölkəmizdə COVID-19-a yoluxma sayı gündəlik 100 nəfərdən aşağı olmuşdu. Təəssüf ki, son zamanlar bir çox obyektiv və subyektiv səbəblərdən dünyada olduğu kimi, ölkəmizdə də yeni növ koronavirus infeksiyasına yoluxma hallarında artım müşahidə edilir. Beynəlxalq mütəxəssislər yoluxmanın artmasına payız-qış mövsümünün şərait yaratdığını, yumşaldılmaları və bu zaman əhalinin pandemiya şərtlərinə tam əməl etməməsini səbəb göstərirlər.

### Bəziləri sosial məsafəni gözləmədi, maskadan istifadəni unutdu və...

Ölkəmizdə isə yoluxma sayının artmasına, sadalanan məsələlərlə yanaşı, həm də bir aydır apardığımız Vətən müharibəsi səbəbindən pandemiyanın arxa plana keçməsi, unudulması oldu. Diqqətimizin tamamilə cəbhəyə yönəlməsi, ard-arda aldığımız qələbə xəbərləri sanki bizlərdə koronavirus adlı ikinci düşmənin də məhv olması kimi yanlış fikir formalaşdırdı. Ona görə də sosial məsafə gözlənilmədi, maska taxılmadı və gigiyena qaydalarına yetərincə əməl edilmədi.

Buna görə də mövcud sanitar-epidemioloji vəziyyət, koronavirusa yoluxmuş aktiv xəstə sayı və yoluxma sürəti əsas götürülməklə, xüsusi karantin rejimi çərçivəsində bir sıra məhdudiyyətlərin tətbiqinə qərar verilib. Noyabrın 2-dək ölkə üzrə bütün təhsil müəssisələrində tətil elan olunub. Dövlət qurumlarında çalışan işçilərin say həddi 30 faizədək azaldılaraq digər əməkdaşlar məsafədən iş rejiminə keçirilib. Sözügedən tarixədək Bakı Metropolitenində sərnişindaşıma fəaliyyəti də dayandırılıb.

COVID-19 virusunun yayılma sürətinin azaldılması, eləcə də onun törədə biləcəyi fəsadların minimuma endirilməsi məqsədilə oktyabrın 24-dən Ağstafa, Biləsuvar, Xaçmaz, İsmayıllı, Qax, Zaqatala rayonlarına və Mingəçevir şəhərinə operativ və xüsusi təyinatlı nəqliyyat vasitələrinin, eləcə də yükdaşıyan avtomobillərin hərəkəti istisna olmaqla giriş-çıxış dayandırılıb. Eyni zamanda adıçəkilən rayonlarda və şəhərdə həftəsonları ictimai nəqliyyatın hərəkəti də dayandırılıb.

### Səhhətlə bağlı istənilən dəyişiklik məsuliyyəti artırmalıdır

TƏBİB-in İnfeksion xəstəliklər üzrə işçi qrupunun həkim-infeksionisti Nəzrin Mustafayeva bildirib ki, koronavirus xəstəliyi 80 faizdən çox hallarda yüngül simptomlarla keçir, onun spesifik müalicəsi yoxdur. Xəstəliyi orta ağır və ağır keçirənlərə dəstək müalicəsi tətbiq olunur: "Digərləri isə müalicə olunmadan belə sağala bilər. Belə ki, xəstəlik gənclərdə, uşaqlarda, xroniki xəstəliyi olmayanlarda, risk qrupundan kənarda qalanlarda öz-özünə sağalıb keçə bilər. Yanaşı xəstəliyi, xroniki xəstəliyi olanlar, risk qrupuna aid edilənlər, yaşlılar, immunsupressiv xəstələr koronavirusu daha ağır keçirirlər. Ölüm statistikasında da bu meyarlar üstünlük təşkil edir".

N.Mustafayeva deyib ki, COVID-19-dan həyatını itirənlər arasında öz-özünə müalicə alan, xəstəxanaya gec müraciət edən şəxslər də az deyil. İnsanlar arasında bəzən yanlış fikirlər yaranır, əlamətləri müşahidə etsələr də, soyuqdəymə, soyuq su içmə ilə əlaqələndirir, koronavirusa yoluxduğunu ağıllarından belə keçirmək istəmirlər. Bu səbəbdən gecikmələr müşahidə olunur. Yalnız iş-işdən keçdikdən, xəstənin vəziyyəti ağırlaşdıqdan və evdəki müalicələr öz təsirini göstərmədikdən sonra onlar xəstəxanaya müraciət edirlər: "Bizim onlara edə biləcəyimiz yardım müəyyən imkanlar çərçivəsindədir. Buna görə də bəzən görülən tədbirlər fayda vermir".

İnfeksionistin sözlərinə görə, koronavirusa yoluxanlarda əksər hallarda qızdırma, öskürək, təngnəfəslik, dadbilmə, iybilmənin itirilməsi müşahidə olunur. Lakin bunlar on minlərlə xəstənin ümumiləşdirilmiş simptomlarıdır. İshal belə bu xəstəliyin əlaməti ola bilər: "Bu o demək deyil ki, testləri pozitiv çıxan xəstələrin hamısında həmin simptomlar müşahidə olunacaq. Qızdırması qeydə alınmayan, lakin koronavirus keçirib sağalan xəstələr var. Buna görə də hazırda səhhətimizlə bağlı istənilən dəyişiklik məsuliyyətimizi artırmalıdır. Adi günlərdən fərqli hiss olunan əlamətlər, yəni iştahasızlıq, əzələ, boyun, baş ağrıları, halsızlıq, yuxuya meyillilik kimi simptomlar da qeydə alınanda maska taxıb, izolyasiya olunmaq lazımdır".

### Yoluxma artdıqca səhiyyə işçilərinin diqqəti yenidən koronavirusa yönəlir

N.Mustafayeva vətəndaşları məsuliyyətli və diqqətli olmağa, qaydalara əməl etməyə çağırıb: "Xüsusilə hazırkı dövrdə məsuliyyətimiz dəfələrlə artıq olmalıdır. Torpaqlarımızın düşmən tapdağından azad edilməsi uğrunda mübarizəmiz davam edir, cəbhədə döyüşən əsgər-zabit heyətini düşünməliyik. Onların belə fədakarlığı qarşısında qorunma tədbirlərimizi çox görməməliyik. Yoluxma artmağa doğru getdikcə səhiyyə işçilərimizin diqqəti yenidən koronavirusa yönəlir, xəstəxanalar dolmağa başlayır, hərbçilər arasında yoluxma ehtimalı yüksəlir. Hazırkı şəraitdə bunlar ölkəmiz üçün arzuolunmaz haldır. Ona görə də hər kəsi kütləvi toplanma yerlərindən uzaq olmağa, buna məcbur olduqda maska taxmağa, sosial məsafə saxlamağa və əl gigiyenasına əməl etməyə səsləyirəm".

Dövlətimiz pandemiyanın qarşısının alınması istiqamətində lazımi addımları atır, vətəndaşlarının təhlükəsizliyi, sağlamlığı üçün zəruri tədbirlər həyata keçirir. Amma görülən bu tədbirlərin effektivliyi birbaşa insanların məsuliyyətindən asılıdır. Buna görə də sosial məsafə saxlayaq, maska taxaq və vətəndaş duyarlılığı nümayiş etdirərək qoyulan qaydalara əməl etməyənlərə qarşı mübarizə aparaq.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## "Azərenerji" ASC kimyəvi maddələrin satın alınması üzrə *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir: **Kimyəvi maddələrin satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini ***dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə*** təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 500 manat iştirak haqqını yalnız "ASAN Ödəniş" vasitəsilə həyata keçirdikdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu **https://etender.gov.az/ *dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə*** adı çəkilən tenderin bölməsində əldə edə bilərlər. Əlaqələndirici şəxs: Azad Məmmədov, telefon: (012)-490-09-27, 598-26-96; 598-05-56

İddiaçı şirkətlərin asan/elektron imzalarının olması zəruridir. Yalnız asan imzası, yaxud elektron imzası olan iddiaçı ***dövlət satınalmalarının vahid internet Portalında qeydiyyatdan keçə bilər.***

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1faizi həcmində bank təminatı (Tender təklifinin qüvvədə olduğu müddətdən **ən azı 30 bank günü** artıq);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması;*
- *iddiaçının mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı sənəd (iri sahibkarlıq subyektləri qanuna əsasən tenderdə iştirak edə bilməz);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *Əsas şərtlər toplusunda (əlavə №17) qeyd edilən malların siyahısı üzrə təqdim olunan qiymət təklifləri bütün siyahını tam əhatə etməlidir;*
- *mallar sifariş verildiyi vaxtdan sonra ən çoxu 2 ay (60 gün) müddətinə çatdırılmalıdır;*
- *müvafiq sertifikatlar.*

Sənədlər Azərbaycan dilində, skan olunaraq **dövlət satınalmalarının vahid internet Portalına** yüklənməlidir (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **20 noyabr 2020-ci il saat 09:00-a qədər,** bank təminatını və tender təklifini **30 noyabr 2020-ci il saat 09:00-a** qədər **dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə** təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflərə baxılmayacaq.

İddiaçıların tender təklifləri **01 dekabr 2020-ci il saat 09:00-da dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə açılacaqdır.**

***Tender komissiyası***

## “Azərenerji” ASC kimya laboratoriyası üçün avadanlıqların satın alınması üzrə *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir: **Kimya laboratoriyası üçün avadanlıqların satın alınması**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini ***dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə*** təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 500 manat iştirak haqqını yalnız “ASAN Ödəniş” vasitəsilə həyata keçirdikdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu https://etender.gov.az/ ***dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə*** adı çəkilən tenderin bölməsində əldə edə bilərlər. Əlaqələndirici şəxs: Azad Məmmədov, telefon: 490-09-27, 598-26-96; 598-05-56.

İddiaçı şirkətlərin asan/elektron imzalarının olması zəruridir. Yalnız asan imzası, yaxud elektron imzası olan iddiaçı ***dövlət satınalmalarının vahid internet Portalında qeydiyyatdan keçə bilər.***

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1faizi həcmində bank təminatı tender təklifinin qüvvədə olduğu müddətdən ən azı 30 bank günü artıq olmalıdır;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması;*
- *iddiaçının mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı sənəd;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq lisenziyalar və sertifikatlar;*
- *malların çatdırılması, quraşdırılması, ehtiyac olduqda texniki servislərinin göstərilməsi və lazımi təlimlərinin verilməsi Bakıda həyata keçirilməlidir;*
- *təhvil verilən bütün mallara keyfiyyət sertifikatı təqdim olunmalı və istehsal ili 2020-ci ildən aşağı olmamalı. Satın alınan avadanlıq akkreditasiya olunmuş qurumlar tərəfindən yoxlanılmalı və sertifikatlaşdırılmalıdır;*
- *təlimlər bitdikdən dərhal sonra təlim keçmiş işçilər müvafiq avadanlıqlar üzrə beynəlxalq sertifikatlarla təmin edilməlidir;*
- *mallar sifariş verildiyi vaxtdan sonra ən çoxu 10 həftə (70 gün) müddətinə çatdırılmalıdır;*
- *müvafiq sertifikatlar.*

Sənədlər Azərbaycan dilində skan olunaraq **dövlət satınalmalarının vahid internet Portalına** yüklənməlidir (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **25 noyabr 2020-ci il saat 09:00-a** qədər, bank təminatını və tender təklifini **03 dekabr 2020-ci il saat 09:00-a** qədər **dövlət satınalmalarının vahid internet Portalı** vasitəsilə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflərə baxılmayacaq.

İddiaçıların tender təklifləri **04 dekabr 2020-ci il saat 09:00-da dövlət satınalmalarının vahid internet Portalı** vasitəsilə açılacaqdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Bakı Telefon Rabitəsi” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən etender.gov.az portalında 19.08.2020-ci il tarixdə elan edilmiş 2020-ci il xətt şəbəkəsində istifadə etmək üçün optik cihaz və alətlərin satın alınması üzrə keçirilmiş açıq tenderin qalibi “TOUCHESS” MMC müəyyən edilmişdir.

“Bakı Telefon Rabitəsi” MMC və “TOUCHESS” MMC arasında 16.10.2020-ci il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Bakı Telefon Rabitəsi” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən etender.gov.az portalında 05.08.2020-ci il tarixdə elan edilmiş GPON layihəsinin davam edilməsini və mövcud şəbəkənin baxım işlərinin görülməsini təmin etmək məqsədilə tələb olunan fiber optik mal-materialların satın alınması üzrə keçirilmiş açıq tenderin qalibi “TOUCHESS” MMC müəyyən edilmişdir.

“Bakı Telefon Rabitəsi” MMC və “TOUCHESS” MMC arasında 16.10.2020-ci il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Bakı Telefon Rabitəsi” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən etender.gov.az portalında 12.08.2020-ci il tarixdə elan edilmiş xətt təsərrüfatında istifadə olunacaq abunəçi qutularının satın alınması üzrə keçirilmiş açıq tenderin qalibi “TOUCHESS” MMC müəyyən edilmişdir.

“Bakı Telefon Rabitəsi” MMC və “TOUCHESS” MMC arasında 16.10.2020-ci il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Göygöl Uşaq və Ailələrə Dəstək Mərkəzi 2020-ci ilin noyabr - dekabr ayları ərzində nəzərdə tutulmuş tədbirlərin keçirilməsi üçün kotirovka sorğusu keçirir

Kotirovka təklifləri 06 noyabr 2020-ci il tarixədək qəbul edilir.

**Əlaqələndirici şəxs: Bayramova Alagöz Məcid qızı.**
**Telefon: +994 (22) 205-34-03, mob.: (050) 623-53-59**
**Göygöl şəhəri, Hummel küçəsi, 33**
**EMAİL: goygol_uadm@mail.ru**

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Qeydiyyat və Notariat Baş İdarəsi tərəfindən 10.09.2020-ci il tarixdə 2020-ci il üçün dövlət notariat ofislərində və qeydiyyat şöbələrində (orqanlarında) istifadəsi nəzərdə tutulan müxtəlif növ blank formaları, qeydiyyat şəhadətnamələri, akt qeydləri, qeydiyyat kitabçaları, həmçinin əmrlər, qərarlar, qanunlar, təlimatlar, arxiv sənədlərinin hesabat toplusu, iş planı, bülletenlərin, arxiv sənədləri üçün xüsusi qutuların hazırlanması və arxiv sənədlərinin cildlənməsi işlərinin elektron satın alınması ilə bağlı elan olunmuş açıq tender proseduru yetərsay olmadığından “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 11.2-ci bəndinə uyğun olaraq ləğv edilir.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi
### “Azərpoçt” MMC-nin Bakı şəhərində yerləşən 21 saylı poçt şöbəsinin təmiri və mebel avadanlıqları ilə təchizi işləri layihəsi üzrə *tender elan edir*

Tender 1 LOT üzrə keçirilir.

| | |
|---|---|
| LOT 1 | 21 saylı poçt şöbəsinin təmiri və mebel avadanlıqları ilə təchizi işləri |

Tender iştirakçılarına təklif edilir ki, **http://www.etender.gov.az -** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin Əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə əldə edə bilərlər.

Hər bir iddiaçı tenderdə iştirak haqqı kimi:
LOT 1 üzrə 200 manat
məbləğində pul vəsaitini “ASAN Ödəniş” sistemi ilə bank hesabına köçürməlidir

**İddiaçılar tərəfindən ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının analoji iş təcrübəsini təsdiq edən sənədlər;*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tikinti işlərinin aparılması üçün müvafiq lisenziyanın olması;*
- *iddiaçının tender təklifinin bank təminatı (zərflər açıldığı gündən ən azı 60 bank günü müəyyən edilir və təklifin qiymətinin ən azı 1 (bir) faizini təşkil etməlidir).*

İddiaçılar konsorsium yaratmaqla tenderdə iştirak etmək istəyirsə, konsorsium barədə müqavilə və ya razılaşma, eləcə də konsorsium iştirakçısı olan bütün şirkətlər barədə yuxarıda göstərilən zəruri sənədləri (məlumatları) təqdim etməlidirlər.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) **19 noyabr 2020-ci il saat 10:00-dək,** tender təklifini və tender təklifinin bank təminatını isə **27 noyabr 2020-ci il saat 18:00-dək** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər dövlət satınalmalarının vahid internet Portalında nəzərə alınmayacaqdır.

İddiaçıların təklifləri **30 noyabr 2020-ci il saat 10:00-da** açılacaqdır. Təkliflərin açılışı dövlət satınalmalarının vahid internet Portalında virtual iclas formatında aparılacaqdır.

Elektron satınalmanın hər bir iştirakçısına onun təklifinin açılmasını və qiymətləndirilməsini müşahidə etmək üçün bərabər şərait yaradılır.

Tenderlə əlaqədar istənilən məlumatı əldə etmək üçün aşağıdakı şəxsə müraciət etmək olar:

Quliyev Zülfiqar - tel: +99412-493-56-00 (daxili 200), faks: +99412-493-00-37.

***Tender komissiyası***

## BİLDİRİŞ

**“Azərenerji” ASC** tərəfindən 01 oktyabr 2020-ci il tarixdə elan edilmiş **2 ədəd 28 m və 32 m hündürlüyə qaldırıcı açıq kabinəsi olan yeni yük avtomobilinin satın alınması** üzrə dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə keçirilən açıq tenderin vaxtı iştirak edən şirkətin müraciətinə əsasən uzadılmışdır. İddiaçılar tenderdə iştirak etmək üçün elanda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 11 noyabr 2020-ci il saat 09:00-a qədər, bank təminatını və tender təklifini isə 19 noyabr 2020-ci il saat 09:00-a qədər ***dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə*** təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflərə baxılmayacaq.

İddiaçıların tender təklifləri 20 noyabr 2020-ci il saat 09:00-da ***dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə açılacaqdır.***

***Tender komissiyası***

## Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Qeydiyyat və Notariat Baş İdarəsi *açıq tender elan edir*

**Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Qeydiyyat və Notariat Baş İdarəsi 2020-ci il üçün dövlət notariat ofislərində və qeydiyyat şöbələrində (orqanlarında) istifadəsi nəzərdə tutulan müxtəlif növ blank formaları, qeydiyyat şəhadətnamələri, akt qeydləri, qeydiyyat kitabçaları, həmçinin əmrlər, qərarlar, qanunlar, təlimatlar, arxiv sənədlərinin hesabat toplusu, iş planı, bülletenlərin, arxiv sənədləri üçün xüsusi qutuların hazırlanması və arxiv sənədlərinin cildlənməsi işlərinin satın alınması**

İştirakçılara təklif edilir ki, öz tender təkliflərini “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun və Əsas şərtlər toplusunun tələblərinə uyğun hazırlayaraq dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:

- aşağı qiymət, yüksək keyfiyyət, peşəkar ixtisas uyğunluğu, müqavilənin vaxtında yerinə yetirilməsi, analoji işlərdə təcrübəsi, texniki imkanları və maliyyə vəziyyəti.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Maraqlananlar Azərbaycan dilində tərtib olunmuş **Əsas şərtlər toplusunu** tenderdə iştirak etmək üçün elektron müraciət etdikdən və aşağıda qeyd olunan hesaba **200 (iki yüz) manat** məbləğində iştirak haqqını ödədikdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada ala bilərlər.

Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

**Ədliyyə Nazirliyi Qeydiyyat və Notariat Baş İdarəsi**

**Hesab: AZ61CTRE00000000000002088403**
**VÖEN: 1300498771**
**Bank adı: Dövlət Xəzinədarlıq Agentliyi**
**Kodu: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesabı: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T.BIK: CTREAZ 22**
**Büdcə təsnifatının kodu: 142 330**
**Büdcə səviyyəsinin kodu: 7**

**İddiaçı statusu almaq və tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təsdiq olunmuş qaydada elektron formada təqdim etməlidirlər:**

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü ərzində qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilər və digər icbari ödənişlər üzrə vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq dövlət orqanının arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi (əsasnaməsi), bank rekvizitləri və dövlət qeydiyyatı haqqında şəhadətnamənin və reyestrdən çıxarışın notariat qaydasında 2020-ci ildə təsdiq edilmiş surətləri.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **19 noyabr 2020-ci il saat 10:00-a** qədər, tender təklifi və bank təminatı sənədlərini isə **27 noyabr 2020-ci il saat 10:00-a** qədər vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **30 noyabr 2020-ci il saat 10:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri haqda Portal vasitəsilə tanış ola bilərlər.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Eldar, Sevil, Cəmil və Bəşir Cəbrayılovlar Qalib Babayevə və mərhumun ailəsinə əzizləri

**SAHİB ƏLİ OĞLU BABAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Elm və Təhsil Mərkəzi “Təfəkkür” Universitetinin rektorluğu, professor-müəllim heyəti universitetin prorektoru, professor İlham Musayevə əzizi

**MİRBƏŞİR HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Salyan Rayon Məhkəməsinin kollektivi Şirvan Apelyasiya Məhkəməsinin Mülki Kollegiyasının sədri Zəki Babayevə oğlu

**İQBAL ZƏKİ OĞLU BABAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 7480
Sifariş 2535
Qiyməti 40 qəpik